Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 28 (6170) 31 iyul 2026-cı il | Qiyməti 40 qəpik

# Moskvaya sərt cavab






Bax:səh-2

## Vilayət Eyvazov sıra baxışı keçirdi



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Adalet.az xəbər verir ki, Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 167 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*Bərzani Əsgərov*

## Gəl bağışla, Sən məni...



**Kəlbəcərdəydim.
Xəfif külək əsirdi...
Bakıda, Gəncədə, Nuxada
41 dərəcə...
Burda qalın yapıncıda...
Ürəyimdən keçdi:
Baş əyirəm:
Şəhidimin ANAsı!
Gəl Səninçün yas tutum ...
Gəl bağışla, Sən məni ...
Yas tutmağa,
göz yaşların axıtmağa
verirsəmsə o fürsəti,
Deməк günah Səndə
deyil....
O bizdədir...
Gəl ağlayaq, həzin-həzin,
Gəl dağlayaq o həzrəti...
xatırlayaq o dəhşəti...
...xatırladın?
Demək günah Səndə
deyil....
O bizdədir...
Əziz ANAM:
Gəl mən sənə oğul olum
(bilirəm ki, o çətindir...)
saçlarını tumarlayım,
damarlardan
qan axmayan ayağını,
ovxalayım,
təsəllimi?
Yox, yox, bildim:
O - OĞLUNUN
istiliyin -
verə bilməz heç vaxt,
heç kim...
Gəl incimə!
Qədrlərin qənimінə çevrilmişik,
Şux DUR!
Bax, bu SƏNin öz haqqındır!
Gəl özləmə!
Ola bilər qanacağın,
o mərfətin
ən sonuna biz enmişik...
Şux DUR!
Bax, bu Sənin öz haqqındır!
Gün gələcək...
Gəl bağışla, Sən məni ...**

## «Heç bir ölkə Türkiyəyə F-35 satmaqda mane ola bilməz»



**Türkiyə sadiq müttəfiqimizdir. Adalet.az xəbər verir ki, bu sözləri ABŞ Prezidenti Donald Tramp bildirib.**

Onun sözlərinə görə, heç bir ölkə Türkiyəyə F-35 tədarük etməkdə mane ola bilməz

"Türkiyə çox qüdrətli ölkədir. Möhtəşəmdir, çox böyük silahlı qüvvələrə malikdir. Onların silahlı qüvvələrində əla texnikalar var. Nəyi satıb-satmayacağımız barədə heç kim mənə göstəriş verməyəcək".

## FHN: Son bir həftədə 881 yanğın baş verib



**Fövqəladə Hallar Nazirliyinin (FHN) qüvvələri tərəfindən ötən həftə 881 yanğına çıxış qeydə alınıb.**

FHN-dən Adalet.az-a verilən məlumata görə, bundan başqa nazirliyin "112" qaynar telefon xəttinə daxil olan müraciətlər əsasında həftə ərzində 36 halda köməksiz vəziyyətdə qalma və 2 yol-nəqliyyat hadisəsi ilə bağlı qəza-xilasetmə əməliyyatı həyata keçirilib.

Yanğınlar operativ şəkildə söndürülüb, insanların həyatının xilas olunması təmin edilib.

Bildirilib ki, hesabat dövründə 9-u azyaşlı olmaqla ümumilikdə 38 nəfər xilas edilib. 2 nəfər xəsarət alıb, 7 nəfərin meyiti təhvil verilib.

## Rusiyada daha bir logistika mərkəzi və neft zavodu vuruldu



**Ryazan Neft Emalı Zavodu və "Wildberries" logistika mərkəzi Ukrayna istehsalı olan FP-1 PUA-ları tərəfindən vurulub.**

Adalet.az Ukrayna mətbuatına istinadən xəbər verir ki, hücumdan qısa müddət sonra "Wildberries" şirkəti Ryazandakı anbarına girişi məhdudlaşdırdığını elan edib.

Şirkət daha sonra "təhlükəsizlik səbəbi ilə" obyektin boşaldıldığını açıqlayıb.

Vilayət qubernatoru həmçinin bildirib ki, Ryazanda "sənaye zonalarında" baş verən hücumda altı nəfər yaralanıb.

## Azərbaycanda 2 mindən çox əlilliyi olan şəxs işlə təmin edilib

**Azərbaycanda ilin əvvəlindən bu günədək 2 100 əlilliyi olan şəxsin münasib işlə təmin olunmasına nail olunub.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, əlilliyi olan şəxslərin əmək bazarına çıxış imkanlarının artırılması məqsədilə müxtəlif peşə hazırlığı kursları təşkil edilir.

Bildirilib ki, cari il ərzində 224 əlilliyi olan şəxs bu kurslara cəlb olunub. Təlimləri uğurla başa vuran şəxslərin işlə təmin olunması üçün müvafiq dəstək tədbirləri həyata keçirilib.

Nazirlik qeyd edib ki, bu istiqamətdə əsas məqsəd əlilliyi olan şəxslərin məşğulluq imkanlarını genişləndirmək və onların əmək bazarına inteqrasiyasını gücləndirməkdir.

## GÜNÜN LƏTİFƏSİ



Qarınqulu ehsanda o qədər yeyir ki, tərpənə bilmir. Qonşuları bunu araba ilə evinə aparmalı olurlar.

Qarınqulu gözünü açıb göydə ulduzları görür və arabaçıdan soruşur:

**-Orada nə yığıncaqdır?**

Arabaçı deyir:

**-Orada da ehsan verilir.**

Qarınqulu:

**-Onda arabanı ora sür.**

# İlham Əliyev Dünya Güləş Birliyinin prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul edib.**

Bu barədə məlumat Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Söhbət zamanı dövlətimizin başçısının Nenad Laloviçlə əvvəlki görüşü məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti ilə görüşdən şərəf hissi duyduğunu deyən qonaq 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının yüksək səviyyədə təşkil edildiyini vurğuladı, buna və ümumilikdə Dünya Güləş Birliyinin fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Ölkəmizdə idmanın güləş növünün inkişafını vurğulayan Nenad Laloviç Azərbaycanda güləş üzrə müxtəlif beynəlxalq səviyyəli yarışların keçirildiyini xatırladı, Azərbaycan Güləş Federasiyası ilə uğurlu əməkdaşlıq etdiklərini dedi.

Prezident İlham Əliyev gənc idmançıların gələcəkdə uğur qazanması baxımından 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının əhəmiyyətinə toxundu və bundan sonra da ölkəmizdə bu cür idman tədbirlərinin təşkilinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan güləşçilərinin indiyədək çox mühüm qələbələr qazandıqlarını vurğuladı.

Görüşdə idmanın güləş növünün ölkəmizdə zəngin ənənələrə malik olduğu qeyd edildi, onun inkişafı üçün dövlət səviyyəsində görülən işlərə toxunuldu.

Azərbaycanla Dünya Güləş Birliyi arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

# MM ABŞ Konqresinin açıqlaması ilə bağlı məlumat yaydı

**Milli Məclis ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin qəbul etdiyi qanun layihəsinə münasibət bildirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən xəbərə görə, MM ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin iyulun 22-də qəbul etdiyi H.R. 9087 saylı qanun layihəsi ilə əlaqədar kəskin etirazını bildirib:

”Həmin sənəddə ölkəmizə qarşı irəli sürülən əsassız ittihamları qətiyyətlə rədd edirik. Beynəlxalq hüquq normalarına və prinsiplərinə kobud etinasızlığın bariz nümunəsi olan bu təşəbbüs Birləşmiş Ştatların Konqresindən erməni lobbisinin maraqları naminə Azərbaycan əleyhinə siyasi təzyiq aləti kimi istifadə etmək üçün göstərilən növbəti cəhddir.

Qanun layihəsinin müəllifi, sabiq konqresmen Robert Menendesin siyasi xəttinin davamçısı konqresmen Bred Şerman erməni lobbi qrupları ilə bağlı olan və ardıcıl surətdə onların siyasi gündəliyini həyata keçirməyə çalışan bir şəxs kimi tanınır. Aydın məsələdir ki, ABŞ Konqresinə növbəti seçkilər ərəfəsində irəli sürülən bu cür təşəbbüslər heç də Birləşmiş Ştatların milli maraqlarını təmin etmək niyyəti ilə bağlı deyil və nüfuzlu lobbi dairələrinin siyasi və maliyyə dəstəyini qazanmaq məqsədi güdür. Qəbul olunan qərarların obyektivliyini şübhə altına alan bu cür praktika Birləşmiş Ştatların hüquq mühafizə orqanları tərəfindən ciddi surətdə araşdırılmalı və lazımi hüquqi qiymətini almalıdır. Sözügedən təşəbbüsün erməni lobbisinin Azərbaycanı gözdən salmaq üçün çoxdan bəri həyata keçirdiyi kampaniya çərçivəsində irəli sürüldüyü aşkardır. Eynilə




belə bir çirkin missiyanı Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okampo yerinə yetirir. Onun Rusiyanın erməni mənşəli oliqarxı Samvel Karapetyan da daxil olmaqla, erməni şovinist dairələri ilə bağlı şəxslərin maliyyə yardımı ilə siyasi motivli rəylər hazırladığı beynəlxalq ictimaiyyətə məlumdur. Eyni siyasi xətt Avropanın bir sıra parlament qurumlarının, o cümlədən Avropa Şurası Parlament Assambleyasının fəaliyyətində də görünür. Bu qurumun ayrı-ayrı deputatları, xüsusən Frank Şvabe kimi şəxslər uzun müddətdən bəri Azərbaycan barəsində qeyri-obyektiv və qərəzli təşəbbüslərlə çıxış edirlər. Bütün bu hərəkətlər erməni lobbisinin müxtəlif beynəlxalq parlament platformalarında həyata keçirdiyi dəqiq əlaqələndirilmiş kampaniyanın tərkib hissələridir.

Narahatlıq doğuran hal budur ki, bu cür addımlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin ardıcıl surətdə irəli aparıldığı bir dövrdə atılır. Möhkəm və uzunmüddətli sülhün bərqərar edilməsinə yönələn beynəlxalq səylər, xüsusən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçilik təşəbbüsü və birbaşa dəstəyi iki dövlət arasında münasibətlərin nizama salınması üçün real imkanlar açmışdır. Belə bir şəraitdə ayrı-ayrı konqresmenlərin siyasi motivli birtərəfli qərarları qəbul etdirmək cəhdləri nəinki etimad mühitini pozur, həm də sülh prosesinə əngəl törədir. Bu cür hərəkətlər yalnız erməni lobbisinin radikal şovinist dairələrinin maraqlarına xidmət edir. Onilliklər ərzində bu dairələr Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına mane olmuş və qarşıdurmanı qoruyub saxlamağa çalışmışlar, indi isə regional gərginlikdən öz siyasi və maliyyə hədəflərinə nail olmaq üçün istifadə edirlər.

Qanun layihəsində Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslər barəsində ”hərbi əsirlər” və ”siyasi məhbuslar” kimi terminlərin işlədilməsi xüsusilə hiddət doğurur. Bu şəxslər hərbi əsirlər və ya siyasi məhbuslar deyildir. Onlar Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquq normaları ilə nəzərdə tutulan hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və digər cinayətlər törətdiklərinə görə cinayət məsuliyyətinə cəlb edilmişlər. Onları siyasi təqibin qurbanları kimi qələmə vermək cəhdləri faktların bilərəkdən təhrif edilməsidir və müstəqil dövlət tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsinə birbaşa müdaxilədir”.

Azərbaycan MM ABŞ konqresmenlərini mütəşəkkil erməni lobbi qruplarının təsiri altında qərarlar qəbul etmək praktikasından əl çəkməyə, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının suverenliyinə hörmət göstərməyə, eləcə də Cənubi Qafqazda sülh prosesinin pozulmasında və qarşıdurmanın qalmasında marağı olan qüvvələrin əlində alətə çevrilməməyə çağırıb.

# Elxan Qəhrəman Azərbaycanın Tacikistandakı səfiri təyin edilib

**Elxan Cahangir oğlu Qəhrəman Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı digər Sərəncamla Əlimirzamin Qəvvam oğlu Əskərov Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılmışdı.

# Prezident Mərakeş Kralına məktub ünvanlayıb

**Prezident İlham Əliyev Mərakeşin Kralı VI Məhəmmədə məktub ünvanlayıb.**

Məktub Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib. Məktubda qeyd olunub:

”Əlahəzrət,

Əziz Qardaşım,

Mərakeş Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz tarixi köklərə və xoş ənənələrə əsaslanan Azərbaycan-Mərakeş münasibətlərinə xüsusi əhəmiyyət veririk.

Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram”.

# Moskvaya sərt cavab

**Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın növbəti dəfə keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı səsləndirdiyi fikirlər reallığın təhrif olunmasıdır.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Mariya Zaxarovanın fikirlərini şərh edərkən deyib. Onun sözlərinə görə, Qarabağ bölgəsi beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya tərəfindən hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb:

”Bu səbəbdən, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) mexanizmlərinin 30 il ərzində Ermənistanın işğalı altında saxlanmış Azərbaycanın suveren ərazilərinə münasibətdə tətbiq edilməsi məsələsini davamlı şəkildə gündəmdə saxlamaq cəhdi və bunun Qarabağ bölgəsinin Ermənistan tərəfindən tanınıb-tanınmaması ilə əlaqələndirilməsi Rusiya tərəfinin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı rəsmi mövqeyinə zidd olmaqla yanaşı, tamamilə əsassızdır”. XİN sözçüsü əlavə edib ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini beynəlxalq hüququn tələblərinə uyğun olaraq bərpa edib və bununla keçmiş münaqişə həll olunub: ”Bu çərçivədə, Rusiya-Ermənistan münasibətlərinə aid mövzuların Azərbaycanla əlaqəli şəkildə şərh edilməsi təcrübəsinə son qoyulmalıdır”.

Qeyd edək ki, iyulun 27-də Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova ”Qvardeysk” gənclər forumunda çıxışı zamanı bildirib ki, ”Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) mexanizmindən istifadə edilməsinə çağırış etsə də, bunun kimin və nəyə münasibətdə tətbiq olunması sual idi. Təəssüf ki, xoşbəxtlikdən ”Dağlıq Qarabağ”ın Ermənistan tərəfindən nə özününkü, nə də müstəqil ərazi kimi tanınmadığı məlumdur. Belə bir şəraitdə KTMT-nin kollektiv təhlükəsizlik mexanizmindən istifadə olunması mümkün deyildi”.

# *Politoloq: “Netanyahu Türkiyəyə F-35 verilməməsinə çalışır”*



**”Türkiyədə keçirilən NATO-nun son zirvə toplantısı çərçivəsində ABŞ prezidenti Donald Tramp ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında ikitərəfli görüş baş tutdu. Bu görüşdən sonra Türkiyənin yenidən F-35 proqramına qoşulması və F-35 qırıcılarının Ankaraya verilməsi ilə bağlı razılığın əldə olundu”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, əgər bu proses reallaşarsa, Türkiyənin Hərbi Hava Qüvvələrinin imkanları əhəmiyyətli dərəcədə artacaq və ölkənin regionda hava gücü kimi mövqeyi daha da möhkəmlənəcək: ”Bu prosesin İsrail tərəfindən diqqətlə izlənildiyi və Baş nazir Benyamin Netanyahunun Türkiyəyə F-35 təyyarələrinin verilməsinə etiraz edir. Məhz B.Netanyahu D.Trampla görüşdə F-35 qırıcılarının Türkiyəyə verilməməsini istəyəcək. Bununla belə, ABŞ administrasiyasının müdafiə siyasətinin öz milli və strateji maraqları əsasında formalaşdığı, bu məsələdə son qərarın Vaşinqtona məxsus olduğu elan edilib”.

Politoloqun sözlərinə görə, Donald Tramp və Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüş ABŞ-Türkiyə münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər: ”Vaşinqton və Ankara son illərdə regional təhlükəsizlik məsələlərində, xüsusilə Suriya istiqamətində müəyyən əməkdaşlıq formatları formalaşdırıblar. Bu da iki ölkənin strateji dialoqunun davam etdirilməsində maraqlı olduqlarını göstərir. ABŞ üçün Türkiyə yalnız NATO müttəfiqi deyil, həm də Yaxın Şərq, Cənubi Qafqaz, Xəzər hövzəsi və Mərkəzi Asiya istiqamətlərində mühüm geosiyasi tərəfdaşdır. Bu baxımdan, Vaşinqtonun Ankara ilə hərbi və strateji əməkdaşlığı genişləndirməyə çalışması mümkün görünür.Bununla belə, F-35 proqramına Türkiyənin tam şəkildə qaytarılması və təyyarələrin təhvil verilməsi ilə bağlı yekun qərarlar ABŞ Konqresinin mövqeyi, hüquqi prosedurlar və ikitərəfli danışıqların nəticəsindən asılı olacaq”.

**Vasif ƏLİHÜSEYN**

# Qarabağ və Şərqi Zəngəzura 1 milyard manatdan çox pul qoyulub

**Bu ilin I yarısında Azərbaycan işğaldan azad olunmuş ərazilərinin (Qarabağ və Şərqi Zəngəzur) yenidən qurulmasına və bərpasına 1 milyard 64,1 milyon manat vəsait yönəldib.**



Adalet.az xəbər evrir ki, Maliyyə Nazirliyinə istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 31,45 % azdır. Məlumata görə, ayrılmış vəsait sifarişçi təşkilatların müvafiq layihələr üzrə təqdim etdiyi kassa sifariş sənədlərinə uyğun olmaqla, illik nəzərdə tutulmuş vəsaitin 30,4 %-i qədər olub.

Həmin vəsaitin 974,1 milyon manatı infrastruktur təyinatlı layihələrinin (avtomobil yolları infrastrukturunun layihələndirilməsi, tikintisi, yenidən qurulması üçün 489,3 milyon manat, yeni yaşayış komplekslərinin layihələndirilməsi və tikintisi işlərinin aparılması üçün 371,1 milyon manat, turizm infrastrukturunun yaradılması üçün 67,6 milyon manat, Şuşa, Xankəndi və Laçın şəhərlərində kanat yolunun layihələndirilməsi və tikintisi üçün 15,9 milyon manat, işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin elektrik təchizatla təmin olunması üçün 15,3 milyon manat, magistral su xətlərinin, tullantı, yağış kollektorlarının və qurğularının tikintisinin layihə-smeta sənədlərinin hazırlanması və tikintinin həyata keçirilməsinə 7,6 milyon manat, sənaye parklarının fəaliyyətinin təşkili və onların ərazisində infrastrukturun yaradılmasına 7,3 milyon manat), 29,8 milyon manatı səhiyyə və mədəniyyət yönümlü sosial təyinatlı layihələrin maliyyələşdirilməsinə, 45,3 milyon manatı ərazilərin minalardan təmizlənməsinə, 14,9 milyon manatı isə müdafiə və hüquq-mühafizə təyinatlı obyektlərin tikintisi və təmiri tədbirləri üzrə xərclərə yönəldilib.

# Qaytarıla bilməyən kreditlər bağlana bilərmi?

**"Azərbaycanda işsizlikdən sığorta təminatı verən daha bir məhsul hazırlanır. Kredit risklərinin sığortalanması təsdiq olunacaq qaydalarda nəzərdə tutulan hallar baş verən zaman ödənilə bilməyən borcun üçüncü tərəfin vəsaiti hesabına bağlanması nəzərdə tutulacaq. Borcalanların həyatı, ölümü və əmək qabiliyyətinin itirilməsi hallarından sığortalanması artıq tətbiq olunur və bu Mərkəzi Bankın qaydaları ilə tənzimlənir".**



Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, hazırlanan yeni qaydalar birbaşa kredit götürən şəxslərin işsiz qalma riskindən sığortalanmasını nəzərdə tutur:

"Bəzi hallarda vətəndaşlarımız kredit götürürlər, amma onlardan asılı olmayan səbəbdən həmin kreditin ödənilməsində çətinlik yaranır. Vətəndaşımızın iş yeri bağlanır və ya işdən azad olunur, və yaxud bir sıra digər birbaşa onun özündən asılı olmayan hallar baş verir və nəticədə həmin kreditin geri qaytarılmasında çətinlik yaranır. Kreditin və ya kredit riskinin sığortalanması belə hallar baş verən zaman öhdəliyin sığorta şirkəti tərəfindən ödənilməsinə imkan verəcək. Kredit risklərinin sığortalanması həm vətəndaşları maliyyə baxımından qoruyacaq, həm də bankların risklərini azaldacaq.Burada əsas məqamlardan biri bu sığorta növünün tətbiq ediləcəyi halda kredit götürən şəxsin xərci ilə bağlıdır. Belə ki, sığortadan istifadə etmək kredit götürən üçün əlavə xərc deməkdir və yalnız sığorta ödənişləri həyata keçirildiyi halda sığorta hadisəsi baş verən zaman öhdəliklər qarşılana bilər".

V.Bayramov bildirib ki, bu, kredit götürən şəxslərin məşğulluğunu itirmə hallarında sığortalanmasıyla yanaşı, kreditin xərc stukturunun dəyişməsi, onların kredit ödənişlərinin sığorta tərəfindən qarşılanması, öhdəliklərin kredit götürən və bank arasında bölüşdürülməsi və eləcə də məşğulluğun itirilməsi riskinə qarşı sığortanın tətbiqinin kredit bazarına təsirinin qiymətləndirilməsini də aktuallaşdırır:

**"Azərbaycanda kredit faizlərinin yüksək olduğunu nəzərə alsaq, banklar müəyyən faiz azalmalarına getməklə bu sığorta növünün tətbiqi halında kredit xərclərindəki artımı kompensasiya edə bilərlər. Bu halda kredit götürən üçün ciddi xərc yaratmadan bu sığorta növünün tətbiqi mümkündür.Bütün hallarda, kredit risklərinin sığortalanması ilə bağlı yeni qaydaların daha qısa zamanda təsdiqi məqsədəuyğun olardı və bu bank sektorunda mütərəqqi dəyişiklik olmaqla yanaşı, bankların da risklərini azalda bilər".**

**Vasif ƏLİHÜSEYN**

# "Bu gün dünyada böyük sərvət qazanmaq üçün iqtisadiyyatı yaxşı bilmək vacib deyil"

**"Elon Mask dediyi kimi 2036-cı ildə pul əhəmiyyətini itirəcək? Elon Maskın son müsahibəsinə baxdım. Adam yenə də ictimai diqqəti üzərinə çəkəcək və öz maraqlarına xidmət edə biləcək kifayət qədər iddialı fikirlər səsləndirdi. İndi onun səsləndirdiyi fikirlərdən 3 əsas fikri ayırıb, nə qədər real ola biləcəyini yazacam".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, Mask deyir ki, 5 il ərzində süni intellekt bütün insanların ümumi intellektini üstələyəcək:

"Doğrumu deyir? Baxaq. Əvvəla onu deyim ki, "bütün insanların ümumi intellekti" anlayışının elmi ölçüsü yoxdur. Düzdür, onsuz da süni intellekt artıq bir çox sahədə insanı üstələyir. Lakin insan intellekti yalnız hesablama qabiliyyəti deyil ki. İnsan intellektində yaradıcılıq, sosial intuisiya, emosional zəka və fiziki dünya ilə qarşılıqlı əlaqə kimi önəmli şeylər var. Ona görə də müəyyən sahələrdə Maskla razılaşsam da, ümumi mənada bu ifadəni təsdiqləmək hələ mümkün deyil. Sonra Mask deyir ki, yaxın 10 ildə insanların AI üzərində tam nəzarəti saxlamaq ehtimalı aşağıdır. Əslində, bu heç Elon Maskın öz fikri deyil, başqalarının fikirlərinin təkrarıdır. Çünki artıq 1 ilə yaxındır ki, OECD, DB və BMT AI-nin sürətli inkişafı idarəetmə və tənzimləmə riskləri yaratdığını, mövcud hüquqi mexanizmlərin isə bu inkişaf tempindən geri qaldığını öz hesabatlarında yazırlar. İndi gəldik müsahibənin əsas yerinə".

O, bildirib ki, onun bu müsahibədə öz məqsədlərinə xidmət edəcək əsas fikri məhz pulla bağlı idi:

"O deyir ki, 2036-cı ildə robotlar bolluq yaradacaq və pul əhəmiyyətini böyük ölçüdə itirəcək. Bu fikir kökündən cəfəngiyatdır. Robotlar məhsuldarlığı ciddi artıra bilər. Amma məgər pul təkcə istehsalın nəticəsidir ki?! Əlbəttə yox. Pul resursların bölüşdürülməsidir. Pul mülkiyyət hüquqlarıdır. Pul torpaq və enerji kimi məhdud resursların qiymətləndirilməsi alətidir. Pul xidmətlərin mübadiləsi üçün lazımdır və s. Odur ki bu gün dünyada mövcud olan reallıqlar qarşısında pulun əhəmiyyətini itirməsi heç yaxın 100 ildə mümkün deyil. Bunun üçün planetdə başqa şərtlər bərqərar olmalıdır. Bəs, Elon Mask bunları bilmirmi? Əlbəttə bilir. Sadəcə o, bu cür proqnozlarla insanların gələcəklə bağlı gözləntilərinə təsir göstərməyə çalışır və bu yanaşma dolayısı ilə onun uzunmüddətli biznes maraqlarına da xidmət edir. Əlqərəz, həmişə dediyimi yenə də təkrarlayıram ki, Elon Maskın ən böyük üstünlüyü super texnologiya yaratması yox, davranış iqtisadiyyatını və insan psixologiyasını çox yaxşı bilməsidir. Onun topladığı sərvətdə bu bacarıq texnaloji bacarığından qatqat fayda verib ona. Ümumiyyətlə, bu gün dünyada böyük sərvət qazanmaq üçün iqtisadiyyatı yaxşı bilmək artıq vacib deyil. Ən vacib olan insanların nəyə inanacağını, hansı xəbərin diqqət çəkəcəyini və hansı fikrin kütləni hərəkətə gətirəcəyini daha yaxşı bilməkdir".

**Sübhan**

## "Tokayev müharibəni dayandırmaq çağırışı ilə həm də..."



**"Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin rusiyalı həmkarı Vladimir Putinlə görüşdə Rusiya-Ukrayna münaqişəsini dondurmağa çağırması onun Ukraynanın mövqeyini dəstəkləməsi anlamına gəlir. Kiyev də eyni sözü deyir, atəşkəsə hazır olduğunu vurğulayır. Doğrudur, Tokayev Putini tam qəzəbləndirməmək üçün tərəfləri İstanbuldakı danışıqlara qayıtmağa çağırış etdi. Bu isə sanki Rusiyanın maraqlarına uyğundur. Ancaq önəmli olan Tokayevin cümləsinin birinci hissəsidir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

"Tokayev müharibəni dayandırmaq çağırışı ilə həm də ölkəsinin maraqlarını nəzərə almış olur. Çünki, Rusiya-Ukrayna müharibəsi Qazaxıstan neftinin Qara dənizlə daşınmasına ciddi təhlükə yaradıb, Novorosisyk limanı və limana yaxınlaşan neft tankerləri dronların hədəfindədir. Tokayev Putinlə görüşdə fikrini belə yekunlaşdırdı ki, "mən vasitəçi olmaqdan qəti şəkildə imtina edirəm". Bütün hallarda Tokayev "müharibəni dayandır" mesajını birbaşa Putinin üzünə söylədi.

Tokayevin bu açıqlamasına Rusiyanın digər iki tərəfdaşı - Belarus Prezidenti Aleksandr Lukaşenko və Çin lideri Si Cinpin də qoşulsalar, Putin daha ciddi təzyiq altına düşəcək", - deyə o, bildirib.

## "Ona görə də ABŞ İranda rejimə böyük zərbə vuracaq"

**"ABŞ Yaxın Şərqə hərbi qüvvələr gətirir. Vaşinqton İrandakı rejimi sərt cəzalandırılması gözlənilir. Müharibənin birinci mərhələsində əldə olunan razılaşmalar, SEPAH yeni şərtlər əldə etmək və hakimiyyəti əldə saxlamaq üçün ABŞ lap mənasız müharibəyə keçdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

"ABŞ İran-Çin oxuna böyük zərbə vurur.Vaşinqtonun əsas strateji planı Hörmüz və Babul-Məndəb boğazını İranın təsirindən tam çıxarmaqdan ibarətdir. Hər iki dəniz nəqliyyat dəhlizi dünyanın əsas iqtisadi arteriyasıdır. Ona görə də belə bir strateji dəniz yolunun SEPAH nəzarətində olması Vaşinqtonun Yaxın Şərq siyasətini zəifledir. Həmçinin beynəlxalq dəniz yollarına nəzarətdə zəif bir dövlətə çevirir. Ona görə də ABŞ İranda rejimə böyük zərbə vuracaq. Məhz ABŞ senatı İrana quru əməliyyatını əngəlləyən qanun layihəsini qəbul etmədi. İrana qarşı müharibə D.Trampın şəxsi siyasi planından çıxaraq ABŞ strateji əhəmiyyətli planıdır", - deyə o, bildirib.

**Vasif**

## Bağlanacağı deyilən Bakı Qızlar Universitetindən açıqlama

**Son günlər bəzi informasiya resurslarında və sosial şəbəkələrdə Bakı Qızlar Universitetinin fəaliyyəti ilə bağlı həqiqəti əks etdirməyən və universitetimizin nüfuzuna kölgə salmağa yönəlmiş paylaşımlar yayımlanır.**

Adalet.az xəbər verir ki, bu barədə Bakı Qızlar Universitetinin müraciətində deyilir.

Qeyd edilib ki, Universitetin bağlanacağı ilə bağlı məlumatlar doğru deyil.

"Biz hesab edirik ki, hər bir ali təhsil müəssisəsinin fəaliyyəti barədə fikir yürüdərkən yalnız rəsmi məlumatlara, obyektiv faktlara və peşəkar yanaşmaya əsaslanmaq lazımdır. Təhsil müəssisələrinin nüfuzuna xələl gətirən əsassız məlumatlar nə təhsilin inkişafına, nə də cəmiyyətin sağlam informasiya mühitinə xidmət edir. İnanırıq ki, Azərbaycan cəmiyyəti maarifçilik ənənələrinə, qadın təhsilinin inkişafına və bu yolda xidmət göstərən elm ocaqlarına hər zaman yüksək dəyər verməyə davam edəcək", - deyə müraciətdə qeyd olunub.

Xatırladaq ki, bir neçə gün əvvəl Akkreditasiya Şurasının iclasında Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "2024-cü və 2025-ci təqvim ilində ali təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsi Qrafiki"nə uyğun olaraq, 7 ali təhsil müəssisəsində aparılmış institusional akkreditasiya və 16 ali təhsil müəssisəsində "İbtidai sinif müəllimliyi" və "Məktəbəqədər təhsil" ixtisasları üzrə proqram akkreditasiyasının nəticələri müzakirə olunub.

**Bakı Qızlar Universiteti üzrə institusional akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi "uyğun deyil" olaraq qiymətləndirilib və Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na uyğun müvafiq tədbirlərin görülməsi barədə qərar qəbul olunub.**



Səxavət Məmməd

# Dünya böyük müharibəyə doğru gedir...

**İranla ABŞ arasında hazırda baş verən toqquşma xarakterinə görə "40 günlük müharibə"dən xeyli fərqlənir. Həmin müharibə zamanı əsas məqsəd İrandakı hakimiyyəti dəyişmək, daxildə etirazları təmin etmək və kürd qruplaşmaları vasitəsilə İran güclərini parçalayaraq - parçalanmayacağı təqdirdə - son dərəcə zəif, ələbaxan və sözəbaxan bir İran yaratmaq idi.**

Ancaq müharibə zamanı hakimiyyəti dəyişmək mümkün olmadı. Yalnız rəhbər şəxslər fiziki cəhətdən məhv edildi. Əksinə, SEPAH bu müharibədən daha da güclənərək çıxdı. Daxildə demək olar ki, etiraz dalğası baş vermədi; xalq hakimiyyətlə daha da yaxınlaşdı. Kürd qruplaşmaları isə arzulanan addımları atmadı.

İranda hakimiyyəti dəyişmək niyə mümkün olmadı? Əslində prosesləri diqqətlə izləyənlər bilir ki, İran müharibədən əvvəl də öldürüləcək hər bir şəxsin yerinə namizədlər müəyyənləşdirmişdi. Hətta bunu açıqlamışdılar. Yəni hakimiyyət baş verəcəkləri əvvəlcədən proqnozlaşdıra bilmişdi. Ümumiyyətlə, müharibələrdə proqnozlaşdırma həlledici əhəmiyyət kəsb edir. Əgər bir tərəfin proqnozlaşdırması 70%-dən yuxarı doğrultsa, orada uğur əldə etmək mümkündür. Görünən odur ki, İran tərəfi ABŞ və İsrail cütlüyündən fərqli olaraq müharibəni və prosesləri daha düzgün hesablaya bilib.

Hazırda davam edən toqquşmalarda isə ABŞ-nin əsas məqsədi sahil zolaqlarını iflic etmək, limanları sıradan çıxarmaq və İranın iqtisadi cəhətdən uzun illər dirçəlməsinin qarşısını almaqdır. ABŞ da fərqindədir ki, Hörmüz boğazına tamamilə nəzarət etmək asan deyil; proseslər bunu hətta imkansız edir. Çin faktoru mütləq şəkildə göz önünə alınmalıdır.

ABŞ tərəfi iddia edir ki, müharibənin başlamasına səbəb İrandır. Hətta bu iddianın altını doldura bilmədikləri üçün müharibənin başlama səbəbi kimi 47 il öncə baş verən prosesləri göstərirlər. Ancaq dünya artıq çox dəyişib. İnternetin inkişafı və alternativ xəbər mənbələri var. Əvvəllər çox rahat idi - necə deyərlər, "qələm düşmən əlində idi". Yazırdılar, televiziya kanallarında car çəkirdilər ki, Əfqanıstanda terrorçu var, İraqda bioloji silah var, Suriyada o var, bu var...

Artıq "İranın nüvə silahı əldə etməyə yaxın olması" mifi də darmadağın olub. MAQATE-dən tutmuş ABŞ-nin öz mütəxəssislərinə qədər bir çox mənbə qeyd edir ki, İran nüvə silahı əldə etmək üçün birbaşa addım atmayıb. İrana hücumun gerçək mahiyyəti əslində Ağ Evdə keçirilən mətbuat konfransında ortaya çıxdı. Ağ Evin mətbuat katibi açıq şəkildə bildirdi ki, onlar Səudiyyə Ərəbistanı ilə nüvə sazişi imzalayacaqlar. Jurnalistlərin "Bəs İrana niyə qarşı çıxırsınız?" sualına cavab çox açıq və sadə oldu: "Səudiyyə Ərəbistanı müttəfiqimizdir".

Yəni, atom və nüvə yaxşı şeydirsə, Səudiyyə Ərəbistanında niyə ola bilər, İranda yox? Deyənlər olacaq ki, İranda hakimiyyətdə radikal dindarlardır. Səudiyyə Ərəbistanında hakimiyyətdə olanlar LGBT üzvləridir, ateistlərdir? Yaxud Tramp və Netanyahunun özü radikal dindar deyil? Bir dəfə də yazmışdım, İran-ABŞ/İsrail müharibəsi məhz radikal dindarların müharibəsidir. Qeyd etmək lazımdır ki, hazırda ən təhlükəli nüvə ölkəsi elə ABŞ-nin özüdür, çünki bu silahdan praktikada istifadə etmiş yeganə dövlətdir. ABŞ əmin olsa ki, İrana nüvə silahı atan kimi Rusiya Ukraynaya və ya Avropa ölkələrinə qarşı ondan istifadə etməyəcək, bəlkə günü sabah nüvə silahından istifadə edər.

Rusiya-Ukrayna müharibəsinin başlaması mətbuata və jurnalistikaya baxışımı 180 dərəcə dəyişdirdi. Qərbin və ABŞ-nin adlı-sanlı media qurumları vaxtilə bizə "müqəddəs standart" kimi nəyi sırıyırdılarsa, hamısını özləri darmadağın etdi. Ən nüfuzlu media qurumları Ukrayna müharibəsinə getmək üçün muzdlu döyüşçülərin hansı məntəqələrə toplanmalı olduqları barədə reportajlar hazırlayır, həmin yerlərdən canlı yayımlar edirdilər. Bəs bu, media əxlaqına zidd deyildimi? Biz vaxtilə "Ermənilər qaniçəndir, işğalçıdır, vəhşilik edib, dinc insanları qırıblar" yazanda bizə deyirdilər ki, bunu bu cür yazmaq olmaz, media əxlaqına ziddir, jurnalist tərəfsiz olmalıdır. Həmin media qurumları və onların əlaltıları ukraynalı, ABŞ vətəndaşı, yəhudi, avropalı öləndə matəm saxlayır, hümanizm, insanlıq deyə bağırırlar. Milyonlarla ərəb, afrikalı, azərbaycanlı (Xocalı) qətlə yetiriləndə isə hümanizm və insanlıq yoxa çıxır. Nə bomba standartdır.

ABŞ iddia edir ki, İran ərazisindəki hərbi obyektlərə zərbələr endirir. Ancaq körpülərin, tunellərin, su mənbələrinin və elektrik stansiyalarının vurulduğunu açıq şəkildə görürük. İran tərəfi də Körfəz ölkələrinə qarşı analoji davranır. Bəziləri deyir ki, İran "müsəlman ölkələrini" vurur. Bəs müsəlman ölkələrində ABŞ hərbi bazalarının nə işi var? Müsəlman ölkəsinin ərazisindən başqa bir müsəlman ölkəsinin torpaqları bombalananda bu irad nəyə görə tutulmur? Tutulmur və tutulmayacaq da.

İran rəsmi olaraq bəyan etdi ki, o, neft satmayacağı təqdirdə Körfəzdə heç kim neft sata bilməyəcək. Bu dillemə o deməkdir ki, İran Körfəz ölkələrinin neft və qaz yataqlarını birbaşa hədəf ala bilər. Bu isə onsuz da kəskin böhran keçirən dəniz ticarətini və qlobal iqtisadiyyatı tamamilə iflic edər. İran Körfəz ölkələrinin elektrik stansiyalarına və su qaynaqlarına zərbə endirərsə, bərli-bəzəkli ərəb dövlətləri yenidən bədəvi dövrünə qayıdacaqlar. Nəzərə almaq lazımdır ki, BƏƏ və Səudiyyənin içməli suyunun 80%-dən çoxunu dəniz suyunu şirinləşdirən zavodlardan alır.

İranın bu müharibədə mövqeyini gücləndirən ikinci əsas faktor isə Husilərdir. Husilərin arsenalında gəmi əleyhinə "Al-Mandab 1", "Al-Mandab 2" (İranın "Qader" və "Noor" raketlərinin analoqu) və "Sayyad" qanadlı raketləri, həmçinin "Asef" (İranın "Khalij Fars" raketi əsasında) və "Aqlib" balistik raketləri mövcuddur. Bu raketlər 100-300 km məsafədəki dəniz hədəflərini vurmaq gücünə malikdir. Husilərin arsenalında, eyni zamanda, "Burkan-2H", "Burkan-3" və "Toufan" uzaq mənzilli balistik raketləri var ki, onların mənzili 1000-2000 km-ə çatır. Bu raketlər Səudiyyə Ərəbistanı, BƏƏ, hətta İsrail ərazisini vurmaq qabiliyyətindədir. Bundan əlavə, onların əlində "Samad-2", "Samad-3" və "Qasef-2K" dronları, Babəlməndəb boğazının dayaz sularında tətbiq oluna bilən dəniz minaları və insansız dəniz vasitələri var.

Növbəti müharibə ocağının məhz Babəlməndəb boğazı istiqamətində alovlanacağını proqnozlaşdırmaq çətin deyil. Bəs Husilər Babəlməndəb boğazını tam bağlaya bilərlər? Fiziki olaraq tam və daimi şəkildə bağlaya bilməzlər, ancaq dəniz ticarətini de-fakto iflic etmək qabiliyyətinə malikdirlər.

Babəlməndəb boğazı qlobal ticarət üçün kritik su yoludur. Bölgədə ABŞ, Böyük Britaniya və müttəfiqlərinin güclü hərbi dəniz qüvvələri mövcuddur. Ancaq Husilərin boğazı fiziki olaraq tam kilidləməsinə ehtiyac da yoxdur. Bir neçə gəmiyə raket və ya dron zərbəsi endirmək kifayətdir ki, beynəlxalq gəmiçilik şirkətləri riski nəzərə alaraq marşrutu dəyişsinlər. Hücum təhlükəsi səbəbindən Qırmızı dənizdən keçən gəmilər üçün sığorta xərcləri kəskin artır; bu da şirkətləri gəmiləri Afrika qitəsinin cənubundan (Ümid burnundan) dolandıraraq göndərməyə məcbur edir. Husilər klassik hərbi mənada boğazı tam bağlaya bilməsələr də, asimmetrik silahlar vasitəsilə yüksək risk zonası yaradaraq qlobal dəniz nəqliyyatını aksadarlar.

Babəlməndəb boğazındakı xaos Çinin "Bir Kəmər, Bir Yol" layihəsinə və Avropa ilə dəniz ticarətinə birbaşa zərbə vursa da, Pekin hələlik Cibuti hərbi bazasından prosesləri təmkinlə izləməyə üstünlük verir. Çünki ABŞ-nin Yaxın Şərq bataqlığına daha dərindən batması və resurslarını parçalaması uzunvədəli perspektivdə Pekinin geosiyasi maraqlarına tamamilə cavab verir.

Husilərin güclənməsi Səudiyyə Ərəbistanı üçün də ciddi başağrısına çevrilib. Söhbət təkcə quru sərhədindən və ya toqquşma ehtimalından getmir. Səudiyyə Ərəbistanı Körfəzdəki itkilərini Qırmızı dənizə çıxış imkanları ilə kompensasiya etmək istəyirdi. Faktiki olaraq, Körfəzdə baş verənlərin onunla əlaqəsi yoxmuş kimi davranırdı. Ancaq Husilərin vurduğu son gəmilərdən sonra Ər-Riyad da anlayır ki, bu prosesdən yaxa qurtara bilməyəcək. Pakistan da onu sığortalayacaq gücdə deyil; çünki Pakistanın narahatlığı və hərbi aktivliyi Çinin geoiqtisadi maraqlarının çərçivəsindən kənara çıxmır.

Husilərin aktivləşməsi Tramp administrasiyasını da ciddi şəkildə narahat edir. Strateji baxımdan bu vəziyyət ABŞ-ni qüvvələrini parçalamağa və eyni vaxtda iki cəbhədə döyüşməyə məcbur edir. Bu isə asan məsələ deyil. Digər tərəfdən, ABŞ geniş koalisiya qurmadan İrana qarşı hərəkət etməyin səhvini hər gün daha aydın başa düşür. İndiki mərhələdə vaxtında koalisiya formalaşdırmadan eyni anda iki istiqamətdə effektiv hərbi əməliyyat aparmaq inandırıcı görünmür.

**Açıq şəkildə görünür ki, dünya sürətlə böyük müharibəyə doğru gedir. Bu, təkcə Körfəz və Babəlməndab boğazı ilə yekunlaşmayacaq. Polşanın Almaniyanın da dəstəyi ilə Rusiya (Kalininqrad) və Belarus sərhədlərinə "Əjdaha dişi" istehkamları düzməsi və müdafiə qabiliyyətini artırması göstərir ki, hərbi münaqişə ocağı tezliklə Avropaya da sıçraya bilər.**

## MEDİA: ""Səhər" kanalı və "Mehr" agentliyinin Azərbaycanda fəaliyyəti qanunsuzdur"

**İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektləri, o cümlədən Azərbaycan Respublikasının dövlət televiziya kanalı olan AzTV-nin "düşmən media qurumları" siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi təəccüb doğurur. Adalet.az xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi (MEDİA) bəyanatında qeyd edilib.**

Qeyd olunub ki, Azərbaycan jurnalistlərin peşə fəaliyyətinin müdafiəsinə sadiq olmaqla yanaşı, qarşılıqlılıq prinsipinin tətbiqini də təmin edir:

"Belə ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən, Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətləri tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycan Respublikasında da eyni məhdudiyyətlər qoyula bilər".

MEDİA bəyan edib ki, müvafiq maddənin tələbləri və qarşılıqlılıq prinsipi nəzərə alınaraq, Azərbaycan Respublikasının milli maraqlarına zidd fəaliyyət göstərən, ölkəmizin suverenliyi, konstitusiya quruluşu, ərazi bütövlüyü və milli təhlükəsizliyi əleyhinə təbliğat aparan media subyektlərinin - "Səhər" telekanalı və "Mehr" xəbər agentliyinin, həmçinin bu subyektlərin nümayəndələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyəti qanunsuz hesab edilir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün media subyektlərini və jurnalistləri ölkəmizin milli maraqlarına qarşı fəaliyyət göstərən yuxarıda adları çəkilən media qurumları və onların əlaqəli nümayəndələri ilə əməkdaşlıqdan çəkinməyə çağırır, media sahəsində beynəlxalq əməkdaşlığın yalnız qarşılıqlı hörmət və jurnalistlərin peşə müstəqilliyi əsasında həyata keçirilməli olduğunu bir daha vurğulayırıq.

## "Onlardan ən çox müzakirə olunan nümunələrdən biri Adolf Eyxman işidir..."

**"Azərbaycan terrorçuluq və insanlıq əleyhinə cinayətlərə görə cəza siyasətini sərtləşdirərək ölüm cəzasına qayıtmalıdırmı? Ruben Vardanyanın vəkilinin Avropa İnsan Hüquqları Məhkəməsinə müraciəti bir hüquqi işdən daha artıq məna kəsb edir. Bu müraciətdən sonra istər-istəməz daha geniş bir sual ortaya çıxır: terrorçuluq, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və separatçılıq kimi xüsusilə ağır əməllərə görə dövlətlərin cəza siyasəti necə olmalıdır?".**

Adalet.az xəbər verir ki, bunu "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev deyib.

Onun sözlərinə görə, Beynəlxalq hüquq tarixində bununla bağlı fərqli yanaşmalar mövcuddur:

"Onlardan ən çox müzakirə olunan nümunələrdən biri Adolf Eyxman işidir. İsrail Holokost və insanlıq əleyhinə cinayətlərdə təqsirli bilinən Adolf Eyxmanı xüsusi qanun əsasında mühakimə etmiş və barəsində çıxarılmış ölüm hökmünü icra etmişdi. Bu iş bu gün də beynəlxalq cinayət hüququ və dövlətlərin cəza siyasəti ilə bağlı müzakirələrdə ən çox istinad olunan presedentlərdən biri hesab edilir. Eyni zamanda, Azərbaycan cəmiyyətində də Xocalı soyqırımına, Ermənistanın hərbi təcavüzü nəticəsində törədilmiş müharibə cinayətlərinə, 44 günlük Vətən müharibəsi zamanı Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələrinin raket və artilleriya atəşinə tutulmasına, dinc əhalinin və mülki obyektlərin qəsdən hədəfə alınmasına görə məsuliyyət daşıyan şəxslər barədə cəza siyasətinin daha sərt olması, o cümlədən ölüm cəzasının bərpasının hüquqi müstəvidə müzakirəyə çıxarılması ilə bağlı fikirlər də səsləndirilir. Bu baxımdan belə bir sual aktuallaşır: Azərbaycan terrorçuluq, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və separatçılıq kimi xüsusilə ağır əməllərə görə cəza siyasətini yenidən nəzərdən keçirməli, daha sərt hüquqi mexanizmləri, o cümlədən ölüm cəzasının bərpası məsələsini hüquqi müzakirəyə çıxarmalıdırmı? Bu suala emosiyalarla deyil, hüquq, milli təhlükəsizlik və dövlətin cinayət siyasəti prizmasından cavab axtarmaq lazımdır".

## "Dil bilmək insanın peşəkar səviyyəsini avtomatik müəyyən etmir"

**"Çox vaxt yeni komanda formalaşdıranlar elə təsəvvür yaradırlar ki, ingilis dilini bilmək avtomatik olaraq yüksək savad və peşəkarlıq deməkdir. Halbuki, əgər peşəkarlığın əsas meyarı yalnız ingilis dili olsaydı, o zaman ingilislər, amerikalılar və irlandlar dünyanın ən savadlı xalqları və ən peşəkar işgüzar komandaları hesab olunardı. Axı həmin ölkələrdə yaşayanların alimi də, fəhləsi də, hətta ölkələrində ən savadsız və bacarıqsız kimi tanınanları da ingilis dilini ana dili kimi bilir. Amma onların hamısı eyni səviyyədə bilik, analitik düşüncə və peşəkarlığa malik deyil".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

"Deməli, dil bilmək insanın peşəkar səviyyəsini avtomatik müəyyən etmir. Çünki dil bacarığı peşəkarlığın çoxsaylı elementlərindən sadəcə biridir. Əsl peşəkarlığı müəyyən edən parametrlər isə analitik düşüncə, peşə biliyi, təcrübə, məsuliyyət, qərarvermə qabiliyyəti, komanda idarə etmə və nəticə yaratmaq bacarığıdır. Xarici dil isə bu bacarıqları daha geniş mühitdə tətbiq etməyə imkan verən üstünlüklərdən sadəcə biridir. Söhbət dil öyrənib, öyrənməməkdən getmir. Şübhəsiz ki, ingilis dilini bilmək vacibdir və bu dil öyrənilməlidir. Ancaq kadrı yalnız bu meyar əsasında qiymətləndirmək düzgün yanaşma deyil", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

## *“İran Rusiyaya dronları dəniz vasitəsilə göndərib”*



**”Türkmənistan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda qeyd olunub ki, Xəzər dənizində gəmilərə qarşı hücumlar yolverilməzdir. ”Türkmənistan Xəzəryanı dövlət və BMT tərəfindən tanınmış daimi neytral statusa malik ölkə kimi vurğulayır ki, Xəzər sülh, razılıq və mehriban qonşuluq dənizidir”, - deyə XİN-in bəyanatında bildirilib”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, təəssüf ki, reallıq fərqlidir, Xəzərə sahil dövlətləri olan Azərbaycan, Qazaxıstan və Türkmənistanın istəyindən asılı olmayaraq Rusiya-Ukrayna və ABŞ-İran müharibələri davam etdikcə Xəzər dənizi hövzəsi də müharibə zonası sayılacaq:

”Çünki, sahil dövlətlərinin illər öncə Xəzərlə bağlı əldə etdikləri razılaşmanın ziddinə olaraq olaraq Rusiya dəniz hövzəsindən hərbi məqsədlər üçün istifadə edib, buradan raket zərbələri həyata keçirib, İrana hərbi yüklər daşıyıb, İran isə Rusiyaya Ukrayna müharibəsində istifadə etdiyi dronları dəniz vasitəsilə göndərib”.

## *“Ər-Riyad əmindir ki, bölgədəki əsas rəqibi İran gec və ya tez...”*

**”ABŞ və Səudiyyə Ərəbistanı arasında nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsini, təcrübə, bilik və texnologiya mübadiləsinin təşviqini nəzərdə tutan sazişdə İsraillə bağlı şərt yoxdur. Ancaq saziş iki ölkənin enerji nazirləri tərəfindən imzalandıqdan sonra ABŞ Prezidenti Donald sosial şəbəkəsindəki hesabında yazıb ki, Səudiyyə Ərəbistanı ”İbrahim razılaşmaları”na qoşulmasa, saziş tamamlanmış hesab edilməyəcək”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, İsrailin Qəzza və Livanın cənubunda hərbi əməliyyatları fonunda Səudiyyə Ərəbistanın bu ölkə ilə diplomatik münasibət qurmaq planı yoxdur:

”Bu o halda mümkün olacaq ki, İsrail hökuməti xarici və təhlükəsizlik siyasətində ciddi dəyişikliyə getsin. Ancaq nə qədər ki, Benyamin Netanyahi İsrailin baş naziridir, bu ölkənin siyasətində dəyişən heç nə olmayacaq. Belə olan halda Səudiyyə Ərəbistanının ”İbrahim razılaşmaları”na qoşulması problematikdir. Buna baxmayaraq, Səudiyyə Ərəbistanı uranın zənginləşdirilməsi məsələsində ABŞ-ilə imzalanan razılaşmanın həyata keçirilməsini istəyir. Əslində Tramp İsrailin və ABŞ-dəki yəhudi lobbisinin çağırışları fonunda Səudiyyə Ərəbistanının ”İbrahim razılaşmaları”na qoşulması şərtini xatırladıb.

Tramp Səudiyyə Ərəbistanının ABŞ-yə ödəyəcəyi milyardlar fonunda şifahi əlavəsini unuda da bilər. Bəs Səudiyyə Ərəbistanı nədən uranın zənginləşdirilməsinə və beləcə nüvə silahı əldə etməyə çalışır? Çünki, Ər-Riyad əmindir ki, bölgədəki əsas rəqibi İran gec və ya tez nüvə silahına malik olacaq. Səudiyyə Ərəbistanı həmin günü gözləmədən strateji tərəfdaşı olan ABŞ-dən əməli dəstək gözləyir. Səudiyyə Ərəbistanı uranı zənginləşdirməyə başlayarsa və nüvə silahını əldə etməyə yaxınlaşarsa, Türkiyə də bu prosesdən kənarda qalmayacaq”.

**Vasif**

## *Azərbaycanda epizootoloji vəziyyət sabitdir*

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Azərbaycanın təbiət ərazilərində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə epizootoloji monitorinqlər keçirilib.**

Bu barədə Adalet.az-a AQTA-dan məlumat verilib.

Bildirilib ki, monitorinqlər respublikanın 55 rayon və şəhərini (Naxçıvan Muxtar Respublikası daxil) əhatə edən 37 təbiət ərazisində, o cümlədən milli parklar, dövlət təbiət qoruqları, ovçuluq təsərrüfatlarında həyata keçirilib.

Tədbirlərdə AQTA-nın, KTN yanında Aqrar Xidmətlər Agentliyinin rayon (şəhər) Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri İdarələrinin, ETSN yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin, həmçinin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin müvafiq ərazi bölmələrinin əməkdaşları iştirak edib.

Monitorinqlər zamanı ümumilikdə 3 223 baş müxtəlif növ vəhşi heyvanın müşahidəsi aparılıb.

Nəticələrə əsasən, xırdabuynuzlu heyvanların taunu, atların və donuzların Afrika taunu, yüksək patogen quş qripi, dabaq və quduzluq xəstəliklərinin mövcudluğunu ehtimal etdirən hər hansı epizootoloji göstərici müəyyən edilməyib. Bu, hədəf xəstəliklər üzrə epizootoloji vəziyyətin sabit olduğunu göstərir.

# «Kinayə ilə ordumuza, dövlətimizə və onun gücünə rişxənd edənlər bilsinlər ki...»

**”Böyük siyasətdə həmişə uğur qazanandan sonra müxtəlif tərəflərdən təsir göstərməyə çalışan qüvvələr olur. Xarici təsirlərin əsirinə çevrilən daxili satqınların vasitəsilə indiki zamanda daha çox bu cür təsirlər baş verir. İçimizdə olan ”xəyanət göyərçinləri” təlimatlandırıb üstümüzə salırlar. İndiki şəraitdə siyasi reallıqda, ölkənin təhlükəsizliyinin dayağı milli maraqların qorunması, hüququn aliliyi və cəmiyyətin həmrəyliyidir. Milli maraqlarımızın qorunması ilə bağlı heç bir şübhəmiz yoxdur”.**

Bunu Adalet.az-a açıqlamasında ”Yeni Xətt” Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, həmrəyliyimizi, dövlət-vətəndaş birliyini möhkəmləndirmiş, qanunun aliliyini ildən-ilə təkmilləşdirərək inkişaf etdirmişik:

”Tarix göstərir ki, güclü dövlətlər və güclü liderlər qarşıya çıxan çağırışlara emosiyalarla deyil, strateji düşüncə, qanun və milli birlik əsasında cavab verirlər. Bu millət Ali Baş Komandanın göstərdiyi yüksək etimadla xainlərə öz cavabını verdi və biz dövlət olaraq indiyədək bizə qarşı yönəlmiş nadan xəyanətləri təmkinimiz, ağlımız və dərin təfəkkürümüzlə dərk edib, qılıncdan iti, kəsərli arqumentlərlə qarşısını almışıq. Cənab Prezidentin xarici səfərləri yalnız dövlətin milli maraqla-



rının qorunması və beynəlxalq mövqeyinin möhkəmləndirilməsi məqsədini daşıyır. Hakimiyyətə gəldiyi gündən ”ərazi bütövlüyümüzün bərpası qaçılmazdır” ifadəsini xalqına açıq bildirən və uzun illər öz müdrik düşüncəsi, strategiyası, qətiyyəti və prinsipiallığı ilə xalq-dövlət birliyi ilə Azərbaycanı Zəfər ölkəsinə çevirib.

Bundan sonra yaranan yeni reallıqlar fonunda, Zəfər ölkəsinə münasibətdə bizimlə səbəbsiz və əsassız düşmənçilik edən, müstəqil siyasətimizi həzm edə bilməyən naşı siyasi liderlərin rəhbərlik etdiyi dövlətləri nəzərə almasaq, bütün dünyanın ağıllı kəsiminin bizə qarşı münasibəti 180 dərəcə müsbətə dəyişib”.

R.Hüseyn deyib ki, hər xarici səfərdə ölkəmizin Prezidenti Azərbaycanın milli maraqlarını irəli aparan təşəbbüslərlə qayıdıb:

”Bu baxımdan, bəzi xəyanətkar satqınlar, xəyanətkarlığı və satqınlığı simvolizasiya edənlərin dediyi kimi, əliboş qayıdış yox, dövlətin milli maraqlarına xidmət edən dövlətin milli maraqlarına xidmət edən, diplomatik nəticələr və siyasi nailiyyətlərlə, qucaq dolusu xarici əlaqələrlə qayıdıb. Biz heç vaxt görməmişik ki, xarici səfərlər təkcə protokol xarakteri daşısın.

Cənab Prezident bütün xarici səfərlərini milli maraqların təmin olunmasına xidmət edən mühüm siyasi və diplomatik alətə çevirib. Ona görə də Prezidentin xarici siyasəti həmişə Azərbaycanın strateji mövqeyini gücləndirib, milli maraqlarını təmin edib.

Lakin xəyanət simvollarının dediyi kimi ”biz istəsək istəməsək də Artsax olacaq”, ”Ordumuzun potensialı yoxdur, torpaq alaq-qaytaraq”, ”Bir kəndi alsaq, qulağımı kəsərəm”, ” haqlı olaraq, haqsız duruma düşdük” , ”Bütün səfərlərdən əliboş qayıdır”, deyən xəyanətkarlar millət satqınları bəzi başıboş ölkələrin siyasi təsiri altına düşərək bu millətə düşmənçilik etdilər.Amma bu millət satqınları bilsinlər ki, ”Artsax” cəhənnəmə vasil oldu, sizin müdafiə etdiyiniz ideyalarınız kimi. Kinayə ilə ordumuza, dövlətimizə və onun gücünə rişxənd edənlər bilsinlər ki, Azərbaycan ərazi bütövlüyünü təmin edib, torpaqlarımız işğaldan azad olunub.

Böyük qürurla, Vətənə böyük sevgi ilə o torpağı işğal altında saxlamaq istəyənlərin qeyrət damarını əbədi olaraq kəsməklə siz, satqınlar və Vətən xainləri, bu dəyəri heç vaxt bilməzsiniz. Çünki siz o damarı kəsilmişlər tərəfdə duranlardan olmusunuz”.

**Vasif ƏLİHÜSEYN**

# "Mənzil bazarının əsas məqsədi ..."

**”Azərbaycanda daşınmaz əmlak bazarında qiymət artımının əvvəlki sürətlə davam etməyəcəyi və bazarın tədricən stabilləşəcəyi ilə bağlı ötən il publik çıxışlarımda fikirlərimi bölüşmüşdüm. Çünki 2025-ci ildə dövlət maliyyəsinin idarə olunmasında formalaşan yeni yanaşmalar məndə belə bir qənaət yaratmışdı ki, 2026-cı ildən etibarən büdcə vəsaitlərinin xərclənməsinə nəzarət daha da güclənəcək, qeyri-səmərəli xərclərin qarşısı daha ciddi şəkildə alınacaq”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, bunun nəticəsində müxtəlif yollarla bazara daxil olan böyük həcmli vəsaitin əvvəlki qədər daşınmaz əmlaka yönəlməyəcəyini düşünürdüm:

”Fikrimcə, son illərdə mənzil bazarında qiymətləri yüksəldən əsas amillərdən biri məhz bu vəsaitlərin istehsala və real investisiyalara deyil, daşınmaz əmlaka yönəlməsi idi.

Nəticədə bazarda real yaşayış tələbindən daha çox investisiya və kapitalın qorunması məqsədilə formalaşan əlavə tələb yaranır, qiymətlər isə iqtisadi əsaslardan daha sürətlə artırdı. Bu mənim proqnozumun əsaslandığı iqtisadi məntiq idi. Son günlər açıqlanan statistika həmin proqnozun



ilk siqnallarını göstərir”.

İqtisadçı mənzil qiymətlərinin artım tempinin ardıcıl şəkildə zəiflədiyini bildirib:

”Belə ki, rüblük artım 2025-ci ilin IV rübündə 3,1%, 2026-cı ilin I rübündə 2,2%, 2026-cı ilin II rübündə isə 1,6% təşkil edib.Şübhəsiz ki, bu prosesə ipoteka bazarında artım tempinin zəifləməsi, kredit faizlərinin yüksəlməsi, yeni tikililərin bazara çıxması, şəhərin mərkəzi hissələrində aparılan söküntü və yenidənqurma layihələri kimi amillər də təsir göstərir. Lakin hesab edirəm ki, əsas dəyişiklik təkcə bu amillərlə izah olunmur.

Qənaətimə görə, daşınmaz əmlaka yönələn investisiya xarakterli kapitalın, o cümlədən dövlət maliyyəsində səmərəliliyin artması fonunda əvvəlki illərdə bazara daxil olan qeyri-produktiv vəsaitlərin həcminin tədricən azalması da bu prosesə təsir göstərən mühüm amillərdən biridir. Çox güman ki, qarşıdakı dövrdə də mənzil bazarında qiymət artımının tempi tədricən aşağı düşəcək və müəyyən müddətdən sonra bazar stabilləşəcək. Bunun nə qədər vaxt aparacağı isə dövlət maliyyəsinə nəzarətin davamlılığından, ipoteka bazarındakı dinamikadan, faiz dərəcələrinin səviyyəsindən, əhalinin gəlirlərinin artım sürətindən və iqtisadiyyatın ayrı-ayrı sahələrində alternativ investisiya imkanlarının yaranmasından asılı olacaq.

Hesab edirəm ki, bu prosesin nəticəsində daşınmaz əmlak bazarı əvvəlki illərdə olduğu kimi sürətli gəlir əldə etmək və kapitalı qorumaq üçün ən cəlbedici investisiya aləti olmaq xüsusiyyətini tədricən itirəcək. Qiymətlərin formalaşmasında isə spekulyativ tələbdən daha çox real alıcılıq qabiliyyəti və fundamental iqtisadi amillər həlledici rol oynayacaq.

Uzunmüddətli perspektivdə isə bütün bunlar mənzil bazarının daha sağlam əsaslar üzərində formalaşmasına və mənzilin vətəndaşlar üçün tədricən daha əlçatan olmasına xidmət edə bilər.

Çünki mənzil bazarının əsas məqsədi investisiya aləti olmaqdan daha çox insanların yaşayış ehtiyacını ödəmək olmalıdır”.

**Sübhan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# O çinarı görmürdüm...

**Bu yaxınlarda dostlarla bağlı bir yazı qələm almışdım: "Dostları çevirdim astar üzünə..." Həmin yazı ilə bağlı yaxın qohumum, Bəhmənlinin ağsaqqallarından bir olmuş rəhmətlik Seyid Əli Ağanın oğlu Seyid Əbdürrəhim mənə zəng elədi. Onu da deyim ki, Seyid Əbdürrəhim çox ziyalı, dünyagörüşlü, savadlı və ədalətli bir adamdır. Və haqqı-ədaləti gözünün işığı, hətta övladı olsa belə danan deyil. Ona görə də onu çox istəyirəm.**

**Elə onun özü də bu gün el ağsaqqalıdı! O, davamlı olaraq sosial medianı, saytları, qəzetləri izləyir. Mənim də qələmə aldığım yazıları oxuyur və təkliflərini, iradlarını bildirir. Təbii ki, mən də bundan bir nəticə çıxarıram! Zəng edəndə dedi ki, dostlarla bağlı bir yazını oxudum, xoşuma gəldi. Mən də dostlarla bağlı bir əhvalat danışım, ürəyin istəsə, yazarsan! Seyid Əbdürrəhim dediyi əhvalatı danışdı və mən də onu qələmə aldım! Deməli, belə! İki dost olur. Bir yerdə böyüyür, bir yerdə oxuyur və bir yerdə də ali məktəbi bitirirlər! İmkanlı dost imkansıza arxa durur, tələbə olanda cibinə pul qoyur, əyin-baş alır, hətta toyunda sağdış olur. Hamı da onların dostluğuna heyran qalır. Və deyirlər ki, bax əsl dost belə olar! Halal olsun onlara. Günlərin bir günü kasıb dost nazir təyin edilir.**

**Ona arxa duran dost gözləyir ki, yəqin nazir olan uşaqlıq dostu zəng vurar və ona bir vəzifə verər. Bir ay gözləyir, altı ay gözləyir, nazir dostundan bir səs çıxmır. Axırda onun qəbuluna yazılır və yenə onunla görüşə bilmir. Bir gün gəlib düz nazirliyin qabağında durur ki, dost onu görsün. Amma polislər ona imkan vermir. Nazir çıxan kimi onu əhatəyə alır və o , xidməti avtomobilə əyləşib gedir! Bir ay gəlib-gedir, bir şey çıxmır. Axırda nazirliyin qabağında uca bir çinar ağacı varmış, gəlib durur bu ağacın yanında ki, bəlkə nazir bu ağaca baxanda onu görə!**

**Amma çinar ağacının altında dursa da, yenə nazir dost onu görmür. Axırda ruhdan düşür, tay nazirliyin qabağına getmir. Və oturur evdə! Bir də eşidir ki, uşaqlıq dostunu nazir vəzifəsindən azad ediblər. Az keçmir ki, keçmiş nazir ona zəng edir. Deyir ki, vəzifədən çıxmışam, heç kim məni axtarmır və düşündüm ki, sadiq dost kimə sənə zəng edim, bir stəkan çay içək. Mən nazir olanda yanıma gəlmədin ki, sənə bir vəzifə verim dolanasan və indi də çətin günümdə mənə kömək edəsən! Dost deyir ki, azı on dəfə qəbuluna gəldim, səni qapının ağzında gözlədim, mühafizəçilər səninlə görüşməyə imkan vermədilər. Axırda əlacım kəsilib, o uca çinarın altında dayandım ki, bəlkə məni görəsən! Amma yenə görmədin! Sabiq nazir dostuna deyir ki, ay rəhmətliyin oğlu, onda vəzifə gözümü elə tutmuşdu ki, nəinki səni, heç o uca çinarı görmürdüm! Ona görə də demişəm və yenə deyirəm bütün dostları və qohumları vəzifədə sınamaq lazımdı. Əgər vəzifədə olanda həmin adam dəyişmədisə, olduğu kimi səmimi qaldısa, o adamlara arxa çevirmək, güvənmək olar. Yox, dəyişdisə, onda apar onu qaytar! Ancaq mənim dostlarımın çoxu saf, dürüst və etibarlı çıxıb! Allaha min şükür!!!**

## "İdrak" liseyində müəllimə atəş açan şagirdin atasına hökm oxundu

**"İdrak" liseyində müəllimin güllələnməsində ittiham olunaraq həbs edilən yeniyetmənin atası barədə qərar verilib.**

Adalet.az Apa-ya istinadən xəbər verir ki, bununla bağlı Binəqədi rayon Məhkəməsində hakim Aytəkin İbrahimovanın sədrliyi ilə keçirilən prosesdə qərar qəbul olunub.

Qərara əsasən, təqsirləndirilən Samir Şirinov Cinayət Məcəlləsinin 230-cu maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinib və ona aylıq qazancından dövlət nəfinə 20%-i məbləğində pul tutulmaqla, 2 il müddətə islah işləri cəzası təyin edilib.

Qeyd edək ki, Bakıda "İdrak" liseyində müəllimi güllələməkdə təqsirləndirilən yeniyetmənin cinayət işi üzrə hazırda məhkəmə araşdırması davam edir. Hadisə fevralın 6-da paytaxtın Binəqədi rayonunda yerləşən özəl "İdrak" liseyində baş verib. Baş Prokurorluğun Mətbuat xidmətinin yaydığı məlumata görə, məktəbdə şagird tərəfindən odlu silahdan atəş açılmaqla müəllimə xəsarət yetirilməsi faktı ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.

Hadisəni törətməkdə şübhəli bilinən şagird saxlanılıb. Fevralın 7-si Binəqədi Rayon Məhkəməsinin qərarı ilə barəsində 4 ay müddətə həbs qətimkan tədbiri seçilib.

Faktla bağlı Binəqədi rayon prokurorluğunda cinayət işi başlanılıb. Ə.Ş-yə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 29, 120.2.2-ci (Xuliqanlıq niyyəti ilə adam öldürməyə cəhd) maddəsi ilə yekun ittiham elan olunub.

## Bostan-tərəvəz məhsulları ucuzlaşır...



**Bu il ötən illərə nisbətən dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də hava şəraiti qeyri- sabit keçib. Şübhəsiz ki, belə hava şəraiti məhsuldarlığa da öz mənfi təsirini göstərib.**

Elə əksər meyvələrin və giləmeyvələrin də bahalaşmasına qeyri- sabit hava şəraiti səbəb olub. Heç kimə sirr deyil ki, bu mövsüm gilas, ərik, albalı və digər meyvələr daha baha qiymətə satılıb. Üstəlik də əhalinin böyük bir təbəqəsi çox baha olduğuna görə, adını çəkdiyimiz meyvələrdən doyunca yeyə bilməyib.

Amma son vaxtlar bir çox meyvələrin qiymətində ucuzlaşma hiss olunur . Xüsusilə də bostan-tərəvəz məhsullarında . İndi qarpız, yemiş və eləcə də şaftalı, gavalı, alma, armud bir o qədər də baha qiymətə satılmır! Bununla yanaşı, hələ avqust ayında adını çəkdiyimiz məhsulların daha da ucuzlaşması gözlənilir! Deməli, həmin meyvə və giləmeyvələrdən doyunca yeyə biləcəyik!!!

## Su öz-özünə axıb gedirsə...



**Son illər digər yanacaqlar kimi, suyun da qiyməti xeyli artıb! Gözləmək olardı ki, suyun sonra əhali suya qənaət edəcək! Amma bu heç də həmişə belə olmur!**

Çünki bir çox istelakçılar ağına- bozuna baxmayaraq , sudan gen- bol istifadə edirlər. Sonra da ayın axırında borc qəbzi gələndə bir çoxları deyir ki, mən o qədər su istifadə etməmişəm! Yəqin ki, su sayğacı dəqiq işləmir, ya da nəzarətçi artıq pul yazıb. Amma araşdırma aparılarkən məlum olur ki, heç də sayğac nasaz deyil və nəzarətçi də əlavə pul yazmayıb. Sadəcə olaraq abonent israfçılıq edib və nəticədə belə bir vəziyyət yaranıb!

Bir çox hallarda isə bir də görürsən ki, su xəttində yaranmış qəzadan içməli su küçəyə axır. Yeni Günəşlidə dəfələrlə belə hadisələrin şahidi olmuşuq.Bir sözlə, həm abonentlər, həm də müxtəlif obyektlərdə içməli suya qənaət etmək lazımdır. Belə olarsa, onlar ayın sonunda nəzərdən tutulandan artıq pul ödəməzlər!

## Qeyri-ixtisas sahibi vəzifədə olanda...



**Hər bir iş yerində o işi bacaran öz yerində olanda onda həmin kollektivdə heç kim əziyyət çəkmir. Bax onda hər şey çox yaxşı olur. Amma vay o günə ki, vəzifəyə qeyri-peşəkarı qoyalar. Bax onda hər şey tərsinə olur.**

Və bu, səriştəsiz adam da ətrafına özü kimi insanlar toplayır. Bax onda görün həmin yerdə vəziyyət necə olacaq. Bu gün ölkəmizdə yeri səhv düşən vəzifə sahibləri var ki. Onlar da işə başlayanda camaata qan uddurur.

Başqa cür də ola bilməz. İndi çörəyi çörəkçiyə vermirlər.Çörəyi çörəkçilikdən xəbəri olmayanlara verirlər. Su təsərrüfatından xəbəri olmayan suya rəhbər, kənd təsərrüfatından xəbəri olmayanı o təsərrüfata müdir. müəllimlikdən xəbəri olmayını isə idarə rəisi təyin edirlər. Onlar da öz bildiklərini edir, dəvəni aparıb bağlayırlar eşşəyin quyruğuna . Onda nə olur! Onda da xiyar əyri bitir!!!

## Dəhşətli istilər olacaq...



**Bu barədə hidrometeoroloqlar məlumat verirlər. Əgər onların dediklər düz çıxsa, iyul ayının 25-26- da Bakıda və ölkə ərazisində havanın temperaturu müsbət 39- 40 dərəcəyə , bəzi yerlərdə isə 41 dərəcəyə çatacaq.**

Bəs belə isti hava şəraitində insanlar nə etməlidir ki, çətin vəziyyətlə üzləşməsinlər! Həkim- kardioloq Natiq Şükürov deyir ki, belə kəskin istilərdə hər bir insan diqqətli olmalıdır. Yəni günün altında çox dayanmamalı, günəş şüasından qorunmalı, kölgə yerlərdə olmaq lazımdır. Havalar çox isti keçəndə heç şübhəsiz ki, insanlar həddindən artıq tərləyirlər. Əlbəttə, belə durumda çoxlu maye qəbul eləmək lazımdır. Ürəyi xəstə olanlar, şəkərli diabetdən əziyyət çəkənlər səhhətlərinə qarşı daha diqqətli olmalıdırlar.Çünki bir balaca günəş altında olmaq təzyiqin və şəkərin qalxmasına gətirib çıxara bilər! Bununsa axırı heç də həmin xəstələr üçün yaxşı sonluqla bitmir. Bununla yanaşı, günvurma zamanı həmin insanı kölgəyə çəkmək, həkim briqadası gələnə qədər ilkin yardım göstərilməlidir! Bir sözlə, dəhşətli istilərdən özünüzü qoruyun!!!

## Sərxoş sürücülər böyük təhlükə mənbəyidir!



**Bütün hallarda yol hərəkəti qaydalarının pozulması digər hərəkət iştirakçıları üçün təhlükə törədir. Ona görə də yol polisi, o cümlədən Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsi paytaxtımızda hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün qabaqlayıcı tədbirlər həyata keçirir. Heç kimə sirr deyil ki, hələ də bəzi sürücülər sükan arxasında məsuliyyətsizlik edərək tez-tez qəza şəraiti yaradır**

Bu isə bir çox halda ölüm və xəsarəalma halları ilə nəticələnir! Paytaxtın bütün küçə və prospektlərində belə hallara qarşı mütəmadi olaraq profilaktik işlər görülür. Bu mənada Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin 5-ci tağımının gördüyü işlər diqqətəlayiqdir. Belə ki, tağım əməkdaşları dövlət tədbirlərində hərəkətin təhlükəsizliyini təmin etməklə yanaşı, sürücülərin maarifləndirilməsini də heç vaxt unutmur. Başqa sözlə demiş olsaq, hava şəraitinin isti və soyuq keçməsindən asılı olmayaraq onlar xidmət apardıqları küçə və prospektlərdə sürücülərə lazımi köm köməklik edir, hərəkətin təhlükəsizliyini tənzimləyir və hərəkət iştirakçıları ilə səmimi münasibətlər qurur.

Dayanma və durma qaydalarını pozanlar , avtobus dayanacaqlarında avtomobili saxlayanlar, nəqliyyat vasitəsinin konstruksiyasında dəyişiklik edənlər, əks istiqamətdə hərəkət edənlər məsuliyyət cəlb olunurlar. 5- ci tağımın komandiri polis mayoru Nurlan Əliyev çox bacarıqlı, peşəkar, tələbkar və ciddi bir zabitdir. O deyirki, bizim əsas xidmət etdiyimiz küçə və prospektlərdə hərəkətin təhlükəsizliyini təmin etməkdir. Heç şübhəsiz ki, hərəkətin təhlükəsizliyi yüksək səviyyədə təmin ediləndə yol- nəqliyyat hadisələrinin də baş vermə ehtimalı azalır. İlk növbədə kobud qayda pozuntularına qarşı sərt mübarizə tədbirlərimiz var.

Sükan arxasında spirtli içki qəbul edib, nəqliyyat vasitələrini idarə edən sürücülər aşkar edilərək əməkdaşlarımız tərəfindən saxlanılır! Növbə ərzində belə sürücülərə qarşı sərt tədbirlər görülür! Hər bir sürücü sükan arxasında əyləşəndə düşünməlidir ki, o, digər nəqliyyat vasitələri üçün təhlükə yaratmamalıdır. Təəssüf ki, biz çox vaxt bunun əksini görürük. Yaxud da yolda qəza olanda ona kömək etmək əvəzinə , bir çox sürücülər avtomobili saxlayıb qəza yerinə baxır, bu isə tıxacın yaranmasına səbəb olur. Ona görə də birmənalı olaraq bir daha bütün sürücülərə tövsiyə edirik ki, sükan arxasında diqqətli olsun və digər hərəkət iştirakçıları üçün qəza şəraiti yaratmasınlar!

## Gözləri doymayan insanlar...



**Görəsən, biz insanların gözləri niyə doymur! Onların hər şeyləri var ey! Sayı- hesabı bilinməyən ev- eşikləri, maşınları, pulları, biznes şəbəkləri...**

Tay nə bilim, nələri! Amma yenə gözləri onun- bunan əlindədir! Və onların tamahları Murtuzəli qılıncından da itidir. Zalımlara dünyanı verəsən yenə doymayacaq. Bir tanışım vardı; hər cür imkanı, varı, dövləti və villası... Amma onunkundan uca və geniş villa görəndə köks ötürüb deyərdi ki, kaş mənim də belə imarətim olaydı. Deyirdim ki, müəllim, axı sənin də üç mərtəbəli imarətin var, bəs eləmir?

Dillənirdi ki, nolsun var. Bu , mənimkindən daha yaxşıdır. Axır ki, elə bir ev də tikdirdi! Ancaq gözləri doymadı.Diyaliz xəstəsi idi. Çanına baxmadı, rəhmətə getdi! Axırda da oğlu ilə qızı mal- mülk üstündə bir- birin qırdılar. Hələ də məhkəmədə mülk davası gedir. Əsəbləri dözməyən qız qardaşın bıcaqladı. Qardaşı xəstəxanaya düşdü, özü isə türməyə! Çünki o mülklər haram pulla tikilmişdi, qarğışla inşa olunmuşdu və haram pulla görülən işin axırı həmişə belə olur.

Bunlar hamısı tamahının qurbanı olan insanlardır. İnsan var, tamahının qurbanı olur, insan da var , tamahı onun qurbanı. Ən güclü və Allaha yaxın , ədalətli, vicdanlı insanlar heç vaxt tamahının qurbanı ola bilməz!!!

Emil FAİQOĞLU



# Süni intellekt və beynəlxalq hüquq: yeni hüquqi dövrün başlanğıcı

**Bəşəriyyət tarixində hüquq həmişə texnoloji inkişafın arxasınca gedib. Çap maşınının ixtirası müəllif hüququnu, sənaye inqilabı əmək hüququnu, internet isə kiberhüququ formalaşdırdı. Bu gün isə dünya hüquq sistemləri tamamilə yeni sınaqla üz-üzədir. Süni intellektin sürətli inkişafı göstərir ki, mövcud beynəlxalq hüquq normaları artıq texnologiyanın yaratdığı mürəkkəb münasibətləri tam şəkildə tənzimləmək iqtidarında deyil. Dünya yeni hüquqi dövrün başlanğıcında dayanır.**

Süni intellekt artıq laboratoriyaların və texnologiya şirkətlərinin layihəsi olmaqdan çıxıb. O, dövlət idarəçiliyinə, məhkəmə sisteminə, səhiyyəyə, maliyyə bazarlarına, hərbi planlaşdırmaya və gündəlik həyatın demək olar ki, bütün sahələrinə daxil olub. Milyonlarla insan hər gün fərqinə varmadan alqoritmlərin qəbul etdiyi qərarlarla qarşılaşır. Kreditlərin verilməsi, işə qəbul, tibbi diaqnoz, sərhəd nəzarəti, elektron xidmətlər və hətta məhkəmə risklərinin qiymətləndirilməsi kimi proseslərdə süni intellektdən istifadə sürətlə genişlənir. Lakin bu proses hüquqi məsuliyyət, şəffaflıq və insan hüquqlarının müdafiəsi ilə bağlı yeni suallar meydana çıxarır. Ən mürəkkəb problemlərdən biri hüquqi məsuliyyət institutudur. Əgər süni intellekt sisteminin qəbul etdiyi qərar insanın hüquqlarını pozursa, bunun hüquqi cavabdehi kim olacaq? Proqram təminatını hazırlayan şirkət, həmin sistemi tətbiq edən dövlət qurumu, istifadəçi, yoxsa alqoritmin özü? Mövcud beynəlxalq hüquq belə vəziyyətlər üçün aydın cavab vermir. Çünki bütün hüquq sistemi insanın iradəsi və hüquq subyekti olması prinsipi üzərində qurulub. Süni intellekt isə nə fiziki şəxsdir, nə hüquqi şəxs, nə də klassik mənada qərar qəbul edən subyektdir. Digər mühüm məsələ dövlətlərlə qlobal texnologiya şirkətləri arasında yaranan yeni hüquqi münasibətlərdir. Son illərdə Microsoft, Google, OpenAI, Meta, Anthropic, Alibaba, Tencent və digər iri texnologiya şirkətləri bəzi dövlətlərin malik olduğu maliyyə və texnoloji imkanlara yaxın potensial formalaşdırıblar. Onların hazırladığı alqoritmlər milyardlarla insanın məlumatlarını emal edir, informasiya axınlarını istiqamətləndirir və rəqəmsal iqtisadiyyatın inkişafına birbaşa təsir göstərir. Bu vəziyyət klassik beynəlxalq hüquqda mövcud olmayan yeni hüquqi reallıq yaradır. Əgər əvvəllər beynəlxalq hüququn əsas iştirakçıları dövlətlər idisə, indi transmilli texnologiya şirkətləri də qlobal qərarların qəbuluna təsir edən mühüm aktorlara çevriliblər.

Britaniyalı hüquqşünas və Oksford Universitetinin professoru Luçiano Floridi qeyd edir ki, süni intellektin inkişafı hüququn qarşısında tamamilə yeni fəlsəfi və praktiki problemlər yaradır. Onun fikrincə, gələcəyin hüquq sistemi yalnız insan davranışını deyil, alqoritmlərin qərarvermə mexanizmlərini də tənzimləməli olacaq. Əks halda texnologiyanın inkişaf sürəti hüquqi tənzimləməni geridə qoyacaq və hüquqi boşluqlar qlobal miqyasda ciddi risklər yaradacaq.

Avropa İttifaqının qəbul etdiyi AI Act göstərir ki, dövlətlər artıq bu təhlükəni açıq şəkildə qəbul edirlər. Qanun süni intellekt sistemlərini risk səviyyəsinə görə təsnif edir, yüksək riskli tətbiqlər üçün ciddi hüquqi tələblər müəyyən edir və insan hüquqlarının qorunmasını əsas prinsip kimi təsbit edir. Bununla belə, bu cür milli və ya regional hüquqi mexanizmlər qlobal problem üçün kifayət etmir. Süni intellekt sərhəd tanımır, lakin hüquq hələ də əsasən milli sərhədlər daxilində fəaliyyət göstərir. Məhz burada beynəlxalq hüququn ən böyük çağırışı ortaya çıxır. Əgər müxtəlif dövlətlər süni intellekti fərqli hüquqi prinsiplərlə tənzimləyəcəksə, gələcəkdə beynəlxalq ticarət, kibertəhlükəsizlik, insan hüquqları, məlumatların qorunması və rəqəmsal suverenlik sahəsində ciddi hüquqi ziddiyyətlər yaranacaq. Bu ziddiyyətlər isə yalnız texnoloji deyil, siyasi və geosiyasi qarşıdurmaların da yeni mənbəyinə çevrilə bilər. Bu gün əsas məsələ süni intellektin inkişafını dayandırmaq deyil. Əsas məsələ bu inkişafı hüququn aliliyi, insan ləyaqəti və beynəlxalq təhlükəsizlik prinsipləri ilə uzlaşdırmaqdır. Əks halda, bəşəriyyət ilk dəfə olaraq öz yaratdığı texnologiyanın hüquqi nəticələrini idarə etməkdə çətinlik çəkən bir dövrə daxil ola bilər.



Süni intellektin sürətli inkişafı beynəlxalq hüququn ən fundamental prinsiplərini yenidən nəzərdən keçirməyə məcbur edir. Uzun illər beynəlxalq hüquq dövlətlərin suverenliyi, ərazi bütövlüyü, insan hüquqlarının müdafiəsi və beynəlxalq məsuliyyət kimi prinsiplər üzərində qurulub. Lakin rəqəmsal texnologiyalar sərhədləri faktiki olaraq aradan qaldırdıqca, klassik hüquqi yanaşmalar da öz effektivliyini itirməyə başlayır. Bu gün bir ölkədə yaradılmış süni intellekt sistemi saniyələr ərzində dünyanın onlarla dövlətində milyonlarla insanın həyatına təsir göstərə bilir. Hüquq isə hələ də bu qlobal prosesləri vahid mexanizmlə tənzimləyə bilmir.

Ən mürəkkəb problemlərdən biri məlumatların hüquqi statusu ilə bağlıdır. Süni intellekt sistemləri fəaliyyət göstərmək üçün milyardlarla məlumat vahidini emal edir. Bu məlumatların əhəmiyyətli hissəsi isə insanların şəxsi həyatına, sağlamlığına, maliyyə vəziyyətinə və davranış modelinə dair həssas informasiyalardır. Belə şəraitdə şəxsi məlumatların qorunması artıq təkcə milli qanunvericiliyin deyil, beynəlxalq hüququn da əsas problemlərindən birinə çevrilib. Çünki rəqəmsal məlumatlar fiziki sərhəd tanımır və onların emalı eyni vaxtda bir neçə dövlətin yurisdiksiyasına aid ola bilər.

Digər ciddi hüquqi problem alqoritmik diskriminasiya ilə bağlıdır. Süni intellekt qərar qəbul edərkən istifadə etdiyi məlumat bazasında mövcud olan qərəzləri də təkrarlaya bilir. Nəticədə işə qəbul, kreditlərin verilməsi, sosial təminat proqramları və hətta hüquq-mühafizə fəaliyyətində ayrı-seçkilik riski yaranır. Ən təhlükəli məqam isə ondan ibarətdir ki, belə qərarların necə qəbul edildiyini bəzən onları hazırlayan mütəxəssislər belə tam izah edə bilmirlər. Hüquqi dövlət prinsipi isə hər bir qərarın əsaslandırılmasını və məhkəmə qaydasında mübahisələndirilməsini tələb edir. BMT-nin insan hüquqları sahəsində xüsusi məruzəçiləri son illərdə dəfələrlə bildiriblər ki, süni intellekt sistemlərinin tətbiqi insan hüquqlarının həyata keçirilməsi üçün həm böyük imkanlar, həm də ciddi təhlükələr yaradır. Xüsusilə kütləvi müşahidə texnologiyalarının genişlənməsi, biometrik identifikasiya sistemlərinin tətbiqi və üz tanıma proqramlarının dövlət idarəçiliyində istifadəsi şəxsi həyatın toxunulmazlığı hüququ ilə milli təhlükəsizlik maraqları arasında yeni hüquqi mübahisələr formalaşdırır.

Bu baxımdan dövlətlərlə texnologiya şirkətləri arasında səlahiyyət bölgüsü də getdikcə mürəkkəbləşir. Bir çox hallarda süni intellekt sahəsində texnoloji imkanlar dövlətlərdən daha çox özəl şirkətlərin əlində cəmləşir. Bu isə mühüm hüquqi sual doğurur: qlobal miqyasda milyardlarla istifadəçiyə təsir göstərən alqoritmlərin fəaliyyətinə kim nəzarət etməlidir? Dövlətlər, beynəlxalq təşkilatlar, yoxsa həmin texnologiyanı hazırlayan şirkətlərin özləri? Hazırda bu suala beynəlxalq hüquqda vahid cavab mövcud deyil. Məhz buna görə son illərdə BMT, Avropa Şurası, Avropa İttifaqı, OECD və UNESCO süni intellektlə bağlı yeni hüquqi çərçivələrin hazırlanmasını sürətləndiriblər. Məqsəd yalnız texnologiyanın inkişafını dəstəkləmək deyil, onun insan hüquqlarına, demokratik idarəetməyə və hüququn aliliyinə mənfi təsirlərinin qarşısını almaqdır. Bununla belə, qəbul edilən sənədlərin əksəriyyəti tövsiyə xarakteri daşıyır və onların icrası dövlətlərin siyasi iradəsindən asılıdır. Beləliklə, beynəlxalq hüquq tamamilə yeni mərhələyə daxil olur.

Artıq hüquqşünaslar yalnız dövlətlər arasında münasibətləri deyil, insan-alqoritm, dövlət-alqoritm və hətta alqoritm-alqoritm münasibətlərinin hüquqi nəticələrini də qiymətləndirməli olacaqlar. Bu isə beynəlxalq hüququn tarixində indiyədək rast gəlinməyən yeni hüquqi reallığın formalaşdığını göstərir.

Süni intellektin inkişafı ilə bağlı müzakirələrdə ən təhlükəli məqam onun nə qədər sürətlə inkişaf etməsi deyil. Ən ciddi təhlükə ondan ibarətdir ki, beynəlxalq hüquq bu inkişafın yaratdığı risklərə lazımi sürətlə cavab verə bilmir. Tarix göstərir ki, hüquq hər zaman texnoloji yeniliklərdən geri qalıb. Lakin əvvəlki texnoloji inqilablardan fərqli olaraq, süni intellekt bu boşluğu illərlə deyil, aylarla dərinləşdirir. Hüquqi tənzimləmənin gecikməsi isə artıq təkcə nəzəri problem deyil, qlobal təhlükəsizlik məsələsinə çevrilir.

Bu gün dünyanın müxtəlif ölkələrində süni intellekt məhkəmə qərarlarının hazırlanmasında, sərhəd nəzarətində, vergi yoxlamalarında, bank sektorunda, tibbi diaqnostikada və hüquq-mühafizə orqanlarının fəaliyyətində tətbiq olunur. Bu sistemlərin qəbul etdiyi qərarlar minlərlə, bəzən isə milyonlarla insanın taleyinə birbaşa təsir göstərir. Lakin həmin qərarların necə formalaşdığı əksər hallarda cəmiyyət üçün qapalı qalır. Hüququn əsas prinsiplərindən biri olan şəffaflıq və hesabatlılıq alqoritmik idarəetmə şəraitində ciddi sınaq qarşısında qalır.

Daha təhlükəli tendensiya isə süni intellektin dövlət hakimiyyətinin həyata keçirilməsində getdikcə daha geniş rol almasıdır. Əgər gələcəkdə sosial təminatın göstərilməsi, miqrasiya qərarları, cinayət riskinin qiymətləndirilməsi və ya digər inzibati prosedurlar tam şəkildə alqoritmlərin ixtiyarına verilərsə, hüququn mərkəzində dayanan insan amili tədricən ikinci plana keçə bilər. Belə vəziyyətdə hüquqi məsuliyyət anlayışının özü də dəyişməyə başlayacaq. Vətəndaş qərardan narazı qaldıqda onun qarşısında cavab verəcək şəxs kim olacaq? Dövlət qurumu, proqram təminatçısı, yoxsa qərarı formalaşdıran, lakin hüquq subyekti hesab edilməyən alqoritm?

Beynəlxalq hüquq üçün daha bir mürəkkəb çağırış rəqəmsal suverenlik məsələsidir. Əgər süni intellekt sistemləri bir neçə transmilli şirkətin nəzarətində qalarsa, gələcəkdə dövlətlərin informasiya təhlükəsizliyi, milli qərarvermə müstəqilliyi və iqtisadi inkişafı xarici texnoloji platformalardan asılı vəziyyətə düşə bilər. Bu isə dövlət suverenliyi anlayışına yeni məzmun qazandırır. XXI əsrdə artıq sərhədləri yalnız ordu ilə deyil, məlumatlarla, alqoritmlərlə və hesablama infrastrukturu ilə də qorumaq zərurəti yaranır. Məhz buna görə beynəlxalq hüquq yeni nəsil konvensiyalara ehtiyac duyur. Bu sənədlər yalnız süni intellektin istifadəsini deyil, onun məsuliyyət mexanizmlərini, insan hüquqlarına təsirini, alqoritmik şəffaflığı, dövlətlərin öhdəliklərini və transmilli texnologiya şirkətlərinin hüquqi statusunu da dəqiq müəyyən etməlidir. Əks halda, gələcəkdə hüquq texnologiyanı deyil, texnologiya hüququ idarə etməyə başlayacaq.

Azərbaycan üçün də bu proseslər xüsusi əhəmiyyət daşıyır. Rəqəmsal dövlət quruculuğu, elektron hökumət, kibertəhlükəsizlik və süni intellektin dövlət idarəçiliyində tətbiqi yeni hüquqi yanaşmaların hazırlanmasını zəruri edir. Milli qanunvericiliyin beynəlxalq tendensiyalarla uzlaşdırılması, şəxsi məlumatların qorunması, rəqəmsal hüquqların təmin olunması və etik prinsiplərin hüquqi normalara çevrilməsi gələcək hüquq siyasətinin mühüm istiqamətlərindən biri olmalıdır.

Ancaq ən böyük təhlükə hələ qarşıdadır. Bu gün dünya süni intellektin imkanlarını müzakirə edir. Sabah isə onun nəticələri ilə üzləşə bilər. Əgər beynəlxalq hüquq indidən yeni hüquqi çərçivə yaratmasa, yaxın gələcəkdə bəşəriyyət ilk dəfə elə bir vəziyyətlə qarşılaşacaq ki, qərarları insanlar deyil, alqoritmlər qəbul edəcək, lakin həmin qərarlara görə heç kim hüquqi məsuliyyət daşımayacaq.

**Bəşəriyyət tarixində ilk dəfə olaraq hüquq özündən daha sürətli inkişaf edən "intellekt"lə üz-üzə qalıb. Ən narahatedici məqam isə odur ki, bu intellekt nə vicdan hiss edir, nə mərhəmət tanıyır, nə də hüquqi məsuliyyət daşıyır. Əgər dövlətlər bugünkü texnoloji yarışın arxasınca qaçarkən hüququ ikinci plana keçirsələr, sabah insan hüquqları alqoritmlərin sətirləri arasında itib gedə bilər. O zaman təhlükə təkcə texnologiyanın güclənməsi olmayacaq. Təhlükə ondan ibarət olacaq ki, insan öz yaratdığı sistem üzərində hüquqi nəzarəti itirəcək. Tarix sübut edib ki, nəzarətsiz güc həmişə böhran yaradır. Süni intellekt də bu qaydanın istisnası deyil. İstisna yalnız onun yaratdığı böhranın miqyası ola bilər.**

**Kəramət QƏNBƏROV,**
**Beynəlxalq hüquq üzrə ekspert**

## *Olimp dağı üçün tarixi qərar*

**Yunanıstanın ən məşhur təbii və mədəni simvollarından biri olan Olimp dağı UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.**

Adalet.az xəbər verir ki, qərar Cənubi Koreyanın Pusan şəhərində keçirilən UNESCO-nun Dünya İrs Komitəsinin 48-ci sessiyasında yekdilliklə qəbul olunub. Olimp dağı həm təbii, həm də mədəni irs baxımından "görkəmli universal dəyərə" malik obyekt kimi tanınıb. Yunanıstanın Mədəniyyət Nazirliyi ilə Ətraf Mühit və Energetika Nazirliyinin birgə bəyanatında qərar ölkənin mədəni və təbii irsinin qorunması istiqamətində mühüm beynəlxalq nailiyyət kimi qiymətləndirilib.

Bildirilib ki, UNESCO-nun qərarı Olimp dağının geniş coğrafiyasının fövqəladə universal əhəmiyyətini təsdiqləyir və onu dünyanın ən tanınmış irs məkanları sırasına daxil edir. Olimp dağının Dünya İrs Siyahısına daxil edilməsi Yunanıstanın 12 illik təşəbbüs və səylərinin nəticəsi olub.

Ölkənin ən yüksək zirvəsi olan Olimp dağı 2918 metr yüksəklikdə yerləşir. Qədim yunan mifologiyasına görə, bu dağ Zevsin və digər Olimpiya tanrılarının əfsanəvi məskəni hesab edilir. Buna görə də Olimp əsrlər boyu Yunanıstanın mədəniyyət və mifologiyasının əsas simvollarından biri olub.

Dağ yalnız mifoloji əhəmiyyəti ilə deyil, zəngin biomüxtəlifliyi ilə də seçilir. Burada çoxsaylı endemik bitki və heyvan növlərinə, eləcə də, bölgənin tarixini və mədəni irsini əks etdirən arxeoloji və tarixi məkanlara rast gəlinir.

UNESCO-nun builki sessiyasında digər mühüm məkanlar da Dünya İrs Siyahısına daxil edilib.

İkinci Dünya müharibəsi zamanı Qərbi Avropanın nasist işğalından azad edilməsində mühüm rol oynayan Normandiya desantının beş çimərliyi də siyahıya əlavə olunub. Bu ərazilərdə Almaniyanın müdafiə xətləri, bombardman izləri və batmış gəmilər tarixi hadisələrin maddi şahidləri kimi qorunur.

Bundan başqa, Yaponiyanın keçmiş paytaxtları Asuka və Fucivara, Cənubi Sudandakı Boma-Badinqilo Miqrasiya Landşaftı da UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

Siyahıya bu il həmçinin İtaliyanın Marke bölgəsindəki tarixi teatrlar, Fransanın Lanqedok bölgəsindəki Kral Kapet istehkam kompleksi, Finlandiyada Alvar Aalto tərəfindən layihələndirilmiş 13 memarlıq əsəri, Berlindəki "Berlin Modernizm Yaşayış Məskənləri" ərazisinin genişləndirilmiş Valdzyedlunq Zehlendorf hissəsi, İrandakı Ələmut qalası, San-Tome və Prinsipidə 19-cu əsrə aid tarixi kənd təsərrüfatı yaşayış məskənləri və Daşkəndin müasir memarlıq irsi də əlavə olunub.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# ÖMÜR KARVAN YOLU

## Deyənlər belə deyib...

**Bilmirəm nağıllardanmı, dastanlardanmı yadımda qalıb. Amma indiki məqamda harda, necə yadımda qalmağı önəmli deyil. Önəmli olan odur ki, bu ifadə yadımda qalmaqla həm də həyatımda öz təsdiqini tapıb. İndi yüzə-yüz əminəm ki, həqiqətən ömür karvan yoludur. Başlanğıcdan üzü sona doğru yol gedir. Bu yolda hər şey var. Özü də istəkdən, arzudan asılı olmayaraq həm də tövbə yeri də var, ziyarətgah da var. Sadəcə ağlınla ürəyin, ruhunla cismin bir olanda nəyin harda olduğunu dərhal görürsən, qiymətləndirirsən. Əks təqdirdə bu yolu elə görməzdən keçirsən. Onda ayılırsan ki, başın üstündə fırlanan xəlbir səni çox şeylərdən uzaq tutub. Dözülməzdi uzaqlıq... Təbii ki, yaxınlıq olan yerdə!**

**Mən bəzən özüm-özümlə danışanda yoruluram. Çünki cavabını təxmini bildiyim sualları özümə verirəm. Bu da mənim üçün maraqsız olur. Amma neyləyim ki, bir şeirdə yazdığım kimi:**

***Şəhər dolu adamdır,***
***Danışmağa kimsə yox!..***

**Bəli, mən ona görə yoruluram ki, bu ömür mənasızlaşır. Dəyərdən düşən pul kimi bazar-dükanda da, yolda-izdə də, evdə-işdə də, qısacası olduğum hər yerdə sıradandır - ola da bilər, olmaya da bilər! Ən dəhşətlisi odur ki, olanda xatırlanmadığı kimi, olmayanda da xəyala, yuxuya da gəlməyəcək. Ola bilsin ki, arxivlərdə də ona yer tapılmayacaq. Çünki özündə heç nəyi ehtiva etmir. Bilirsiniz niyə? Ona görə ki, bu, ümidsiz boş, bozbulanıq, güvənsiz bir ömürdür. Hansı səviyyədə adam olur-olsun, özlüyündə heç nədir. Bu heçliyin yaşatdığı ümidsizlik göydən gəlmir, yerdə cücərmək üçün torpaq tapmır, şərait qazana bilmir. Həm arzuedilməzdir, yəni əl-ayağa dolaşandır, həm də bu ömrün aid olduğu Allah bəndəsi öz var olması ilə digərlərinə sıxıntı yaşadır. Sıxıntı sevməyənlər də, problem görmək istəməyənlər də ellikcə tapdalayıb keçir bu ömrü, bu adamı. Doğrudur, hərdən "insaf" deyibən kirpiklərini çırpır. Əsnəyə-əsnəyə baxır bu ömrə tərəf. Və yenə gedir mürgüyə.**

**İş qalır yenə bu ömrün öz gücünə, öz dizlərinə, öz əl-qoluna. Nəysə...**

**Bəlkə də bir az filosofluq etdim. Amma əsl həqiqətdə bu ömrün yozumu, mənası özü bunu diqtə edir. Elə bilməyin ki, mən nostalji hisslərin burulğanından çıxa bilmirəm. Xeyr, bu belə deyil. Dünənin öz yeri, öz sözü, öz tələbi olub. Bu günün də öz yeri, öz sözü, öz tələbi var. Bunları birləşdirən isə ömrə, insana verilən qiymətdir. Təəssüf ki, dünən az-çox hörməti olan insan bu gün elə- belə... Yəqin ki anladınız. Ən vacibi:**

***Cibimdə durumum üşüyür-***
***Utanır əlimdən...***
***Cismimdə qürurum üşüyür-***
***Utanır ölümdən...***
***Üzümdə təbəssüm ərimir,***
***Gözümdə kədərim kirimir,***
***Ümid də yanaşı yerimir -***
***Utanır gülümdən.***

***Səssiz üyünür dözümüm,***
***Tapa da bilmirəm çözümün.***
***Ta duzu da qaçıb sözümün-***
***Utanır dilimdən!..***

**Bu gerçəkliyin içində əriyən ömrün, tapdalanan torpağın bir-birinə nə verib, nə aldığını, bir-birinin gözünün içinə necə baxdığını təsəvvür edirsinizmi?!. Əgər bilirsinizsə, nə xoş sizə. Əgər bilmirsinizsə, onda nə xoş mənasız ömrün özünə, tapdalanan torpağa...**

**Çox vaxt dostlarım məni pessimistlikdə, kədərə qucaq açıb, gəlməyəndə də gedib onu axtarmaqda qınayırlar. Anlayıram onları... insan bir varlıq olaraq şuxluğu, ovqatı xoş edən məqamları qabartmağı bacarmalıdır. Ən azından çevrəsinin xatirinə, ətrafdakıların durumunu nəzərə almaqla. Lakin... Amma... Ancaq özünü nəyəsə məcbur etmək olmur. İçdən gəlməyəni ürəyin parçası kimi təqdim etmək alınmır. Vallah-billah alınmır!!! Ha deyirlər ki, "özün üçün ovqat yarat, xəyal qur, bəhanə uydur. Özünü xoşbəxtlər sırasında görməsən də, məhəlləsində, şəhərində, ölkəsində təsəvvür elə. Qur da, bu zəhrimar xəyalı qur".**

**Və yaz ki:**

*Çəkisi artıbdır kirpiklərimin,*
*Çırpıb tökməliyəm nəmi üstündən...*
*Duasın edərək sevdiklərimin,*
*Silib ötməliyəm qəmin üstündən.*

*Yolu doğramadan, kəsələmədən*
*Ayaq da qoymadan izin üstündən.*
*Ruhu oyatmadan, səs eləmədən,*
*Öpüb qaldıracam dizin üstündən.*

*Adı söyləmədən, pıçıldamadan,*
*Gözlə götürəcəm sözün üstündən.*
*Həmişəyaşıl tək puçurlamadan -*
*Kölgətək keçəcəm közün üstündən.*

*Görüş sevincinin iki damlasın,*
*Dodaqla siləcəm üzün üstündən.*
*Süz, fikrin çəkdiyim qəmdə qalmasın,*
*Bundan şirin nə var, yüzün üstündən?!*

**Hə, mənə elə gəlir ki, bu sağlıq yerində deyildi. Ən azından bu "100 qram" bir az başımı dumanlandırar, bir az altdan-üstdən məni sixan yerlə göyün məngənəsində nəfəs almaq imkanım olar. Görürsünüzmü özümə nə ilə təsəlli verdim. Bir hovur nəfəslə!!!**

**Deməli, bir karvan yolu olan ömür elə bir hovur nəfəslik yoldur. Mən də sarvanının QƏDƏR, yolunun eni-boyu bilinməyən karvanda müsafirəm, yolçuyam. Hər bir halda bu karvandayam. İstəsəniz arxamca su atın, istəsəniz daş...**

**Amma çox istərdim ki, bu yolda bir çimdik torpaq olaydım kaş... O yolun çala-çuxuruna səpilmək üçün...**

# BİR KƏND MƏKTƏBİNDƏ

***Görkəmli Azərbaycan pedaqoqu, maarif və ictimai xadim Heybət Məzi oğlu Şikarovun (1921-1998) indiki və gələcək nəsillərə örnək ola biləcək zəngin həyat və fəaliyyəti olmuşdur. O, 1921-ci il aprelin 18-də Şamaxının Təklə kəndində anadan olmuş, Quba Kənd Təsərrüfatı Texnikumunu və Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir.***



***Gənc yaşlarında könüllü olaraq Sovet Ordusu sıralarına qoşulan Heybət müəllim Böyük Vətən Müharibəsində iştirak etmişdir. Alman faşistlərinə qarşı döyüşlərdə yaralanaraq əsir düşmüş; Maqdenburq, Düseldorf və Rudolfştadt həbs düşərgələrinin dəhşətlərini yaşamışdır. O, həbs düşərgələrində belə Vətətinə sədaqət nümunəsi göstərərək gizli antifaşist hərəkatının fəal üzvü olmuşdur. Rur daş kömür hövzəsi şaxtalarında məcburi əməyə cəlb olunan mətin insan oradan qaçmağı bacarmış və böyük çətinliklərdən sonra Vətənə qayıda bilmişdir.***

***Heybət müəllim bütün ömrünü gənc nəslin təhsilinə və cəmiyyətin maariflənməsinə həsr etmişdi. 1957-ci ildə Şamaxının Təklə (Leninabad) kənd məktəbinə direktor təyin edilən zaman qısa müddətdə təhsil ocağına orta məktəb statusu qazandırmışdır. Məktəbə elektrik stansiyası və televizor kimi o dövr üçün möcüzə sayılan yeniliklər gətirərək onu regionun mədəniyyət mərkəzinə çevirmişdi.***

***1958-ci ildə rayonun ən geridə qalmış kolxozuna sədr təyin olunan Heybət müəllim dürüstlüyü və qətiyyəti sayəsində təsərrüfatı respublikanın qabaqcıl müəssisələrindən birinə yüksəltmişdi. Lakin ikiüzlülüyə və əliəyriliyə qarşı barışmaz mövqeyi, ədalətsiz şərləmələr onun 1962-ci ildə həbs olunmasına səbəb olmuşdur. Sonradan ona bəraət verilmiş və o, yenidən pedaqoji fəaliyyətə qayıtmışdır.***

***1968-ci ildən yenidən Təklə məktəbinə rəhbərlik edən pedaqoqun yaratdığı nümunəvi təhsil ocağı keçmiş SSRİ miqyasında tanınmışdı. Bəxtiyar Vahabzadə, Məmməd Araz, Anar, Əzizə Cəfərzadə və Xudu Məmmədov kimi görkəmli ziyalılar bu məktəbin qonağı olmuşdur. Əfsanəvi sərkərdə, 4 dəfə Sovet İttifaqı Qəhrəmanı, Sovet İttifaqı Marşalı Georgi Jukov məktəbə öz kitabını göndərmişdi.***

***"Bütün ömrünü insanların maariflənməsinə, halal zəhmətlə qayğısız yaşamasına həsr etmiş görkəmli pedaqoq və məğrur insan olan Heybət müəllim Şikarov 1998-ci il fevralın 28-də dünyasını dəyişmişdir."***

***Mən 2020-ci ildə bu nadir insan barədə "Ədalət" qəzetində "Görkəmli pedaqoq, məğrur insan" adlı məqalə çap etdirmişdim. Bu yaxınlarda Heybət müəllimin nəticəsi Hüseynin mənə təqdim etdiyi, böyük şairimiz Bəxtiyar Vahabzadənin 1970-ci ildə o zaman Azərbaycan mətbuatının ən tanınmış orqanı olan "Kommunist" qəzetində dərc olunmuş "Bir kənd məktəbində" adlı yazısı məncə, bu gün də çox aktualdır.***

**Ağamahmud Səmədov**
**"Yer və İnsan jurnalının redaktoru**

***

Alim dostum Xudu Məmmədovla Göyçaydan gəlirdik. Şamaxıdan ötdük, Leninabad kəndinin yanından keçdiyimiz zaman bu kənddə yaşayan Əlibala Zərbəliyev yadıma düşdü. Onun haqqında şirin-şirin danışmağa başladıq. Əlibala kənddəki "Günəşli" sovxozunun zootexnikidir. Cavandır. Şeirin, sənətin divanəsidir.

Ədəbiyyatımızda yeni yaranan əsərlər haqqında, yazılarım haqqında öz mülahizələrini mənə tez-tez yazır. Suallar verir. Müasir dünyamızın hadisələri ilə yaşayır. Bu hadisələrin ədəbiyyatdakı əksini izləyir. Bir sözlə, tam mənada müasir adamdır. Bütün bunlara görə də onu görmədən kəndin yanından ötə bilmədim. Kəndə buruldu. Kəndin girəcəyində məktəbi görüb dayandıq. Məktəbə girdik.

Dəhlizdə məktəbin direktoru Heybət Şikarovla qarşılaşdıq. Məktəblə tanış olmaq istəyimizi bildirdik. Sevindi.

Kimya laboratoriyasına, emalatxanaya, sinif otaqlarına, məktəbin səliqə-sahmanına baxdıq, fərəhdən ürəyimiz dağa döndü. Məktəbdə gördüyümüz hər şey gözəl idi. Ancaq kənd və rayon məktəblərimizin heç birində görmədiyimiz üç məsələ bizi daha artıq fərəhləndirdi. Bunlardan birincisi, məktəbin yanında təşkil olunan ölkəşünaslıq muzeyidir.

Məktəb o qədər də geniş deyil. Sinif otaqları çatışmır. Buna baxmayaraq, məktəbin direktoru bu muzeyin təşkilini vacib saymış, sinif otaqlarından birini bu iş üçün ayırmışdır. Bu balaca muzeydə eksponatlar dövrlərə və məzmuna görə təsnifləşdirilmişdir.

- Bəs bu eksponatlar haradan toplanmışdır?
- Kəndin özündən.
- Kim toplamışdır?
- Tarix müəlliminin rəhbərliyi ilə şagirdlər.

Həftənin müəyyən günləri tarix müəllimi yuxarı sinif şagirdləri ilə bərabər kəndin ətrafında qazıntı işləri aparır və buradan tapılanlar - tariximizin müxtəlif dövrlərinə aid müxtəlif ölçülü küplər, pullar, bəzək, zinət şeyləri, döyüş və məişət ləvazimatı (qara çıraq, oraq, qılınc, qalxan, zindan, xış) muzeyə gətirilir.

Bu tapıntıların hansı dövrə aid olduğu hələ dəqiq müəyyənləşdirilməmişdir. Eksponatlar hələlik təxmini olaraq təsnifləşdirilmişdir. Təəssüf ki, bu vaxta qədər bizim dövlət tarix muzeyinin bunlardan xəbəri yoxdur. Dövlət tarix muzeyində gördüyümüz qədim və maraqlı tapıntılar bizi o qədər də heyrətləndirmir. Çünki bu, muzeyin bilavasitə öz vəzifəsidir. Bizi heyrətləndirən məktəbin təşəbbüsüdür. Əsl tapıntı budur! Eksponatlara baxdıqca fərəhdən nə edəcəyimizi bilmirdik.

Xudu Məmmədov qulağıma pıçıldadı:

- Bax, budur əsl vətəndaşlıq! Bu barədə yazmalısan!

Mən fikirləşirdim. Həmin muzeyi təşkil etməyə bu adamları məcbur edən nədir? Bu fikir ürəyimdən keçən kimi "məcburiyyət" sözünə gülməyim tutdu, axı, "məcburiyyət" sözü borc və vətəndaşlıq sözlərinin qarşısında nə qədər gülməli görünür. Vətənini, xalqını sevən adam üçün nə məcburiyyət? Bu gözəl təşəbbüsü məktəbin müəllim heyətinə pıçıldayan onların vətəndaşlıq hissi deyilmi? Bu hiss varsa, hər şey var.

Bu hiss yoxsa, hansı sənətin sahibi olursa-olsun, o adam quru icraçıdan başqa bir şey deyildir.

Bu məktəbin müəllimləri də icraçı kimi proqram əsasında dərs deməklə vəzifələrini bitmiş hesab edə bilərdilər və heç kəs də onları təşəbbüssüzlükdə təqsirləndirə bilməzdi.

Yeri gəlmişkən, onu da deyim ki, müəllimlərin bir qismi dərs proqramının və metodikanın əsiri olur. Belələri proqramdan bir addım da kənara çıxmağı nöqsan sayır.

**(ardı 12-ci səhifədə)**

# Sənlə danışmağın yolun tapmışam

**Elə insan var ki, özü-özüylə danışmağı, tənhalığı, sükutu sevir. Yəni bu adam üçün hardasa tərki-dünyalıq daha önəmlidi, nəinki səs-küylü, çal-çağırlı, hətta adamın halına hansısa bir təsir edən məkanı... Demək istədiyim odur ki, ikinci qrupa aid olan adamlar adətən daha şən, daha qayğısız və hətta bir az hər şeyi boş verənlərdi. Bir az da çılpaq desəm, onların arasında "Araz aşığından, Kür topuğundan" düşüncəsi ilə yaşayanlar da bir ayrıca zümrə təşkil edir. Deməli, kim həyatı necə tutursa, zamanın axarına necə qoşulursa, ömrü də, günü də o cürə davam edir. Lakin...**

Yazımın əvvəlində vurğuladığım sükut, tənhalıq adamları ilk baxışdan nə qədər qara-qabaq, kədər, qəm auralı təsir bağışlasalar da, onların da içərisində daxili işıqla, nurla, sevgiylə, sevinclə dolu olan yetərincə Allah bəndələri var. Bax, həmin Allah bəndələrindən biri sayıram özümü. Hara çəkilməyimdən, hansı dalğada, hansı kordinatda olmağımdan asılı olmayaraq, həmişə bir səsi eşitmək istəmişəm, bir gözə baxmaq istəmişəm, bir Allah bəndəsi ilə, daha doğrusu, Allahın qarşıma çıxartdığı mələyi ilə nəfəs-nəfəsə dayanıb, diz-dizə oturub bu dünyanı unutmaq istəmişəm.

Siz də bilirsiz ki, istəyə qadağa yoxdu. Onu heç bir qanun cəza müstəvisinə çıxara bilməz. Çünki o istək ürəkdədi, ruhdadı. Onu bir Allah görür, bir də sahibi. Ona görə də bu istəyə şahid də tutmaq, vəkillik də etmək mümkün deyil. Elə bu üzdəndir ki, həmin istəklər insanı danışdırır, havalandırır, hətta dəli edir. Sözün böyük mənasında Məcnuna çevirir. Bax, onda da kimin hansı qiyməti verməyindən, hansı nəzərlərlə baxmağından, arxanca hansı küfürləri etməyindən asılı olmayaraq, sən öz auranda qalırsan. Yəni öz Məcnunluğunla öz dünyanın sahibi olursan. O dünyanın da Leylisi - Allahın yer üzünə göndərib səninlə qarşılaşdığı mələyidi...

Deməli, mən də özümü saydığım zümrənin arasında hər gün, hər saat, hər an içimdə özümlə və Allahımla danışıram. Özümün özümə dediklərimi Allahımın sənə çatdırmasını istəyirəm. Həm yalvarışla, həm göz yaşı ilə. Və bu yaşamın dəyərini də, mənasını da səndə və sənin varlığında görürəm. Elə ona görə də təkliyimdə, tənhalığımda özözümə pıçıldadıqlarımı misralara çevirirəm. Sonra da o misraları üzümü sənə gah da şəklinə tutub oxuyuram:

*Mən qapını döyəcəyəm hər zaman,*
*Açmasan da, küsmüyəcəm, bunu bil!*
*Yormayacaq məni nə ah, nə aman -*
*Ümidimi kəsməyəcəm, bunu bil!*

*Dan yerinə boylanacam, görməsəm -*
*Gün işığın, doymayacam, hörməsəm!*
*Dodağının - solmayacam, dərməsəm -*
*Təbəssümün, bəsləyəcəm, bunu bil!*

*Əlim Allah ətəyində, ünümsə*
*Sənə çatır, bəs eləyir - gülümsə!*
*Bu sevgidən mənə düşən ölümsə -*
*Sevə-sevə səsləyəcəm, bunu bil!*

Heç kim deyə bilməz ki, insanın düşüncəsi, məntiqi mütləq bütün bəşər övladının kökləndiyi, dayaq nöqtəsi hesab etdiyi mərkəzə hesablanmalıdı, ordan pərvəriş tapmalıdı. Mənim birmənalı olaraq özüm üçün qəbul etdiyim və gerçəkliyinə heç bir şübhəm olmayan yaşam məntiqim Sevgidən ibarətdir. Özü də bu sevgi həm həyatadı, həm təbiətədi, həm insanlaradı, həm doğmalara, həm çevrəyə, həm də sevdiyimə.



Təbii ki, burda başlanğıcda Allah dayanır. Allaha olan sevgim mənə imkan verir ki, bəndələri də sevim. Onların içərisindən seçdiyim mələyi də Allah qədər sevə bilim. Bu cür yanaşmanın, bu məntiqə söykənişin nəyi və harası yanlışdır, onu deyə bilmərəm. Ən azından ona görə ki, mən burda yanlışlıq görə bilmirəm. Gördüyüm, tanıdığım, bildiyim Allahdı, bir də Sən! Özümü də bu təqdimatda Allahın verdiyi sevgini yaşayan bəndə kimi görürəm. Ona görə də zamanın nəbzini tutmağa, həyatın axarına qoşulmağa heç də can atmıram. Qədərimi yaşamağa, qədərimi mənzil başına aparmağa üstünlük verirəm. O qədər isə alın yazım, yəni Allahın mənə lütf etdiyi ömür payıdı. Onun yol xəritəsidi.

Gedirəm, həmin ömrün yolu ilə. O yolun nələrdən bugünə qədər keçdiyi artıq dünəndi, tarixdi, sabaha qədərki məsafədə isə nələr var, nələr olacaq, onu deyə bilmirəm. Onu demək üçün tanımaq, bilmək, görmək lazımdı. Bu isə Allahın ixtiyarında olan hüququdu. Yəni, sabahların necə, nə cür olacağını yalnız o bilir. Qaldı ki, mənim bildiklərimə, onlar barəsində artıq şeirə çevrilən duyğularımın səsi hər şeyi deyir:

*Mənə bol çəkirsən, Tanrım, payımı -*
*Dərddən yavaş-yavaş doyuram artıq...*
*Əlimin arxasın şir kürəyitək -*
*Sakitcə torpağa qoyuram artıq...*

*Külək əlindədi həsrətin donu,*
*Bəlkə gözləmirdin heç belə sonu!?*
*Mən qurban demişdim, axır ki, onu -*
*Kəsmişəm, ürəyi soyuram artıq!*

*Üstümə tökülən kin, ya da nifrət*
*İçimi öldürən xiflətdi, xiflət...*
*Qəflətən yıxılsın deyə Əbülfət -*
*Qayadı, dibini oyuram artıq!.*

Deyirlər ki, "Yeriyən yıxılmağa baxmaz". Yəni, qaçırsansa, yeriyirsənsə, ayağın büdrəyə bilər və yaxud nəyəsə ilişib yıxıla bilərsən. Bundan nə incimək lazımdı, nə də bundan kimsə sığortalanmayıb. O adam yıxılmır ki, o yerimir, yüyürmür, çabalamır, hərəkət etmir. Əgər həm fiziki, həm də mənəvi aləmdə, yəni, ruh baxımdan insan hərəkət edirsə, onun nəyəsə tuş gəlməsi, nəyəsə uğraması normal sayılmalıdı. Fikir yanlışlığının özü də yıxılmaqdı. Odur ki, mənim də digər adamlar kimi büdrəməyim, yıxılmağım olub və onun ağrılarını bu gün də yaşayıram, bu gün də çəkirəm. Amma bir şeyi bilirəm ki, o yıxılmaq da, o büdrəmək də bilərəkdən, düşünülmüş olmayıb. O yumşaq desəm, bir qəza olubdur. Qəzalar isə ömrümüzün naxışlarıdı...

İndi son baharın göz yaşlarını çilədiyi bugünlərdə mən tökülən yarpaqlara, ayaq altındakı xəzələ baxa-baxa arxada qalanları gözümün önünə gətirməyə çalışıram. İstəyirəm ki, hisslərimin, duyğularımın, ürəyimin hakimi olan BİR QADININ nə qədər yaxın, nə qədər uzaq olduğunu təxmin edə bilim.

Elə bilməyin ki, mən riyaziyyatdan xəbərsizəm. Burda söhbət hansısa məsafəni ölçməkdən getmir. Burda söhbət yaxında və ya uzaqda olduğunu, onun və mənim ürəyimin döyüntüləri ilə ölçməkdən, hesablamaqdan gedir. Və bu ürəklər bir-birini özünün güvəni, özünün ifadəsi kimi qəbul edirmi?

Sual bəlkə də mücərrəddi, bəlkə də absurddu. Bəlkə də heç nəyi ifadə etməyən söz yığınıdı. Bu, o sualı dinləyənin, düşünənin ruhun, ürəyin sahibinin kimliyindən çox asılıdır.

Varlığında azacıq sevgi olan hər kəs bu sualı özünə verib və verəcək. Elə mən də məhz həmin sevginin diktəsi ilə bu sualı içimdə təkrarlayıram. Bir istək olaraq həmin sualın sənin də ürəyində təkrarlanmasını Allahdan diləyirəm. Özü də son baharın yağışlı günündə, yağışlı gecəsində, yarpaqların xəzəl, xəzəlin isə xəşəm olduğu anda.

Sığındığım tənhalıq, məni bürüyən sükut bu yazı boyu öz-özümlə etdiyim söhbətin sonunu bir işığa gətirib calayır.

O işıq sənin durduğun yerdən görünür. Mən görürəm o işığı. Və ona doğru , yıxılmaqdan qorxmadan yüyürmək istəyirəm. Çünki:

***Səhəri açmağın yolun tapmışam -***
***Bu payız gecəsi xəzəl sayıram...***
***Yüz fikir qovmuşam, fikir çarpmışam -***
***Mən öz tapıntımı özüm yayıram...***

***Xışıltı ovcumda son sözə dönür***
***Vida pıçıldayır hər xəzəl mənə...***
***Gözümdə bir ömür şam kimi sönür -***
***Belə gəlməmişdi bu, əzəl mənə!***

***İtirir budaqlar yarpaq əllərin,***
***Görür öz işini vədə caynağı...***
***Hələ ümidlidi odur ki, bunu -***
***Ağlıma gətirmir hədə saymağı.***

***...Saydığın xəzəllər dan yerinədək,***
***Məni haldan-hala daşıyacaqlar...***
***Payız gecəsinə yağan yarpaqlar -***
***Torpağa qarışıb yaşayacaqdır!..***

**Bəli, tənhalığı sevənlər də var, çal-çağıra can atanlar da. Sükutla həmsöhbət olanlar da var, hay-küydə öz səslərini eşitməyənlər də. Mən harda oluramsa səninlə danışıram... Səndən danışıram... Allahın şahidliyi ilə!**

**Əbülfət MƏDƏTOĞLU**

# GoTürkiye layihələri beynəlxalq uğur qazandı

**Turizm istiqamətlərinin tanıtımına kino dili və orijinal rəqəmsal layihələrlə yeni yanaşma gətirən Türkiyə Turizm Tanıtım və İnkişaf Agentliyi (TGA) GoTürkiye brendi vasitəsilə ölkəni ənənəvi turizm kampaniyalarından fərqli formatda dünyaya təqdim etməyə davam edir. Agentliyin hazırladığı layihələr Türkiyənin zəngin turizm imkanlarını, mədəni irsini və dinamik həyat tərzini təsirli hekayələr vasitəsilə qlobal auditoriyaya çatdırır. Bu yaradıcı yanaşma beynəlxalq səviyyədə də yüksək qiymətləndirilib. Belə ki, So Turkish, Go Turkish kampaniya filmi, eləcə də Antalya Gambit və İstanbul My Love mini-serialları yaradıcılıq və kommunikasiya sahəsində dünyanın nüfuzlu müsabiqələrindən biri olan US International Awards 2026 mükafatında ən yüksək mükafatlara layiq görülüb.**

Türk seriallarının dünya miqyasında qazandığı uğurdan ilhamlanan GoTürkiye layihələri kino üslubunda qurulan hekayələri turizm tanıtımı ilə birləşdirərək Türkiyənin mədəniyyətini, turizm təcrübələrini və həyat tərzini cəlbedici süjetlər vasitəsilə təqdim edir. Məhz bu innovativ yanaşma US International Awards 2026-da böyük uğur qazanıb. GoTürkiye layihələri korporativ videolar, onlayn media, sənədli və müstəqil filmlər üzrə keçirilən müsabiqədə 25 ölkədən 100-dən çox finalçı arasında seçilərək ən yüksək mükafatlara layiq görülüb.

"So Turkish, Go Turkish" - ən yüksək mükafata layiq görülən kampaniya filmi

GoTürkiye-nin ən böyük uğurlarından biri olan "So Turkish, Go Turkish" filmi müsabiqənin "Korporativ Videolar - Ölkə Tanıtımı" kateqoriyasında Gümüş mükafata layiq görülüb. 2026-cı ildə bu kateqoriya üzrə Qızıl mükafat təqdim edilmədiyi üçün film öz kateqoriyasında ən yüksək mükafatı qazanmış hesab olunur.

TGA və Türk Hava Yollarının birgə ərsəyə gətirdiyi "So Turkish, Go Turkish" filmi Türkiyənin zəngin mədəni irsini, möhtəşəm təbiətini və dinamik atmosferini təsirli hekayəçilik vasitəsilə təqdim edir. "So Turkish" şüarı üzərində qurulan film Ayasofyanın möhtəşəmliyi, Kapadokyanın valehedici hava şarları, Egey sahillərində uzun süfrələr ətrafında keçirilən səmimi məclislər və Bosforun özünəməxsus cazibəsi kimi Türkiyəyə xas təcrübələri ön plana çıxarır.

Türkiyə gələcəkdə də bu cür qlobal kampaniya filmlərinin sayını artıraraq, ölkənin sonsuz turizm imkanlarını əsas hədəf bazarlardakı auditoriyaya ən təsirli şəkildə çatdırmağı hədəfləyir.

GoTürkiye mini-serialları: Hekayələrin turizm istiqamətləri ilə qovuşduğu layihələr

Kino keyfiyyətində istehsal olunan və təsirli süjet xətti ilə seçilən GoTürkiye mini-serialları platformanın turizm istiqamətlərinin tanıdılması sahəsində tətbiq etdiyi innovativ strategiyanın yeni mərhələsini təşkil edir. Əyləncə məzmunlu hekayəçilik yanaşması ilə qlobal auditoriyanı cəlb edən layihə bu günədək təqdim olunan beş mini-serialı ilə beynəlxalq rəqəmsal platformalarda 7,69 milyard reklam nümayişi və 4,4 milyard baxış əldə edib. Bu uğurun davamı olaraq platforma bu yaxınlarda altıncı mini-serialı - Turquoise Summer layihəsini təqdim edib.

GoTürkiye mini-serialları US International Awards 2026 müsabiqəsində də beynəlxalq uğur qazanıb. Seriyanın ilk layihəsi olan Antalya Gambit "Onlayn və Sosial Media - Şəhər Tanıtımı" kateqoriyasında Gümüş mükafata layiq görülüb. İstanbulun dinamik ruhunu və romantik atmosferini əks etdirən İstanbul My Love isə eyni kateqoriyada Finalçı mükafatı ilə təltif olunub.

"Antalya Gambit" detektiv elementləri, dramatik süjet xətti və güclü vizual həlləri bir araya gətirən iddialı kino layihəsidir. Sənət kuratoru Lara və sirli memar Deniz ətrafında inkişaf edən hekayə izləyiciləri Türkiyə Rivyerasının ürəyi sayılan Antalyaya aparır. Türkiyənin cənub sahillərinin ən məşhur istirahət məkanlarından biri olan Antalya möhtəşəm təbiəti, firuzəyi sahilləri, mülayim iqlimi, Türk mətbəxinin Aralıq dənizi ləzzətləri və zəngin tarixi-mədəni irsi ilə diqqət çəkir. Hər biri iki dəqiqə davam edən on kino üslublu bölümdə firuzəyi körfəzlərdən dəbdəbəli kurortlara, qədim abidələrdən şəhərin canlı həyatına qədər Antalyanın fərqli simaları nümayiş etdirilir və şəhərə beynəlxalq maraq daha da artırılır.

**"İstanbul My Love" isə Türkiyənin dinamik metropolisi olan İstanbulu sadəcə fon deyil, hekayənin əsas qəhrəmanlarından birinə çevirir. Şəhərin enerjisini romantik süjetlə birləşdirən serial gənc və istedadlı İstanbul adlı qadınla uğurlu iş adamı Tanın əsl sevgini tapmaq yolunda yaşadıqları hadisələrdən bəhs edir. Hər bölümdə Çırağan Sarayından Galataporta, Bosfordan Beyoğluna qədər İstanbulun ən məşhur məkanlarını ekrana gətirən layihə turizm tanıtımını tamaşaçının özünü hadisələrin içində hiss etdiyi fərqli bir təcrübəyə çevirir.**

# Allahın "OL" dediyi Midhət Abbasov

## Nəhəng Midhət Abbasov

**Pərvanə Eyvazqızı - Akademik Midhət Teymur oğlu Abbasovu biz Texniki elmlər doktoru, neftçi alim, professor, akademik kimi tanıyırıq. Bəs Seyran Səxavət üçün Midhət Abbasov kimdir?**

**Seyran Səxavət-** Bilirsən, bu suala cavab vermək, dorudan da həm asandır, həm də çətin.Midhət Teymur oğlu Abbasov haqqında günlərlə danışmaq olar. Nəhəng bir şəxsiyyət idi. Qaldı ki, onun elmi tərəfləri, akademikliyi və.s. bunu onsuz da dünya elm ictimaiyyəti yaxşı tanıyır. Dünyanın elə bir neft təşkilatı yox idi ki, Midhət müəllim oranın ya işlək, ya da fəxri üzvü olmasın. Demək olar ki, dünyanın nefti öz marşurutu ilə axmaq üçün, marşurutunu davam eləmək üçün (neft mayedir də axıcılıq qabiliyyətinə malikdir) mütləq Midhət Teymurboğlunun razılığı lazım idi.

Bizim tanışlığımızın uzun illər bir tarixi var. Midhət müəllimlə məni uşaqlıq dostum, Dünya elmi ictimaiyyətində 5-10 alimindən biri hesab olunan Hətəm Quliyev tanış edib. Sizə deyim ki, mən təkcə Midhət müəllimi tanımamışam. Midhət müəllimAzərbaycan Milli Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunun direktoru idi. Orada Midhət müəllimdən başqa Uzun illər Azərbaycanda BP neft şirkətinin prezidenti olan, Qarabağın Cavanşir xanının nəslindən olan, indi Londonda yaşayan Rəşid Cavanşirlə, "QAZPROM SSRİ"-də böyük vəzifələr tutmuş İsgəndər Cəfərovilə də tanış oldum. Başqa alimlər, işıqlı adamlar, ziyalılar da vardı orda. Mən də ünsiyyətcil adam olduğumdan zəncirvari əlaqəli olan tanışlıq prossesi uzana - uzana gedirdi. Midhət müəllim də onların rəhbəri, həmin institutun direktoru idi. Sonra onu bir üzdəniraq ixtiyar sahibi həmin institutu Midhət müəllimə görə bağlatdırdı. Daha sonra Midhət Teymur oğlu, dostum Hətəm Quliyev və bayaq adını saydığım alimlər hamısı keçdi Geologiya İnstitutuna, Akademik Akif Əlizadənin rəhbərliyi altında işləməyə. Akademiyanın həqiqi üzvü, dünya şöhrətli alim, uşaqlıq dostum Hətəm Quliyevin hesabına bir dəstə işıqlı adamlarla tanış olmuşdum ki, onların başında da Midhət Abbasov dayanırdı.

**- Bilirik ki, Midhət Abbasov elmi fəaliyyətində Kiçik Elmi işçidən, Elmi işlər Üzrə direktor vəzifəsinə qədər yüksəlibdir. Bəs dostluqda necə, tanış oldunuz və o pillələri hansı əməlləri ilə keçdi?**

- Baxmayaraq ki, çox ciddi bir sahənin alimi idi Midhət müəllim, bir dost bir yoldaş, bir insan kimi də bir o qədər səmimi adam idi. Özü də hündür (Qarabağda deyirlər: şaqqalı), heykəlli biriydi. Kişi gözəlliyi olan bir şəxs idi. Son dərəcə də ürəyiyumşaq, uşaq kimi bir adamıydı. Mənə elə gəlir ki, o nəhəng Midhət Abbasovun içində balaca bir Midhət vardı və o, böyük Midhət müəllimi idarə eləyirdi. Hər halda dostluqda, çöldə, yolda, istirahətdə mən o cür görmüşəm. Bəlkə də elm sahəsində o balaca Midhət yekə Midhətə heç nə öyrədə bilməzdi, bəlkə də əksinə böyük Midhət balaca Midhətə nəsə pıçıldaya bilərdi, deyə bilərdi.

Şəhərdə onunla gəzəndə addım başı hamı ona salm verirdi, rəğbətini, məhəbbətini bildirirdi. Olduğu kimi deyəcəm, Pərvanə xanım, o xırda bir şeyə görə də and içməyi xoşlayırdı. Düşünürəm ki, bu da insanların inamsızlığından şübhələndiyi üçün belə idi. İnsanlardan şübhəli olmağında da mən bilən haqlıdır. Onun İlahi, məsələyə görə and içəndə, əliylə üzünə vururdu, deyirdi:"Midhətin canı üçün."

Qəribə bir adam idi.

Elmi tərəfdən deyə bilmərəm o, tabeliyində olan alimlərlə falan necə işləyib, hansı münasibətdə olub. Hər halda insanlıqda, dostluqda, tanışlıqda dünyanın ən rahat adamlarından biri idi. Mən ən uzağı bakalavr diplomu almış biri, Midhət müəllim isə akademik, AzMeA-nın həqiqi üzvü, SSSR-i Elmlər Akademiyasının müxbir üzvü və.s. Sadaladıqlarım elə belə titullar və ya mövqelər deyil ha. Bax, bu zirvələrə 50-60 il piyada yol gəlib ey bunlar. Özdə piyada gəliblər. İndikilər kimi elmin yollarına avtomobillə və ya vertolyotla göydəndüşmə gəlməyiblər. Bütün bunlara rəğmən, baxırdın deyirdin:"İlahi, adam nə qədər sadə olar, adam nə qədər rahat olar?!" Xüsusilə məclisdə Midhət müəllimin qiyməti yox idi. Əvəzsiz idi . Həm də gözəllik aşiqi idi bu adam. "Gözəllik aşiqi" deyəndə, aləhəzrət Azərbaycan xalqı ancaq qadın nəzərdə tutur. Amma qadından başqa da o qədər gözəl obyektlər var ki. Bahar fəsli var, dağlar, bulaqlar, dərələr, yaşıllıqlar var - Dünya var. Dünya çox gözəldir axı. Midhət müəllimdə sözün bütün mənalarında gözəllik aşiqi idi. Bilirsiniz, gözəlliyi duymayan, qiymətləndirməyən, onu təbliğ eləməyən adamdan heç vaxt böyük şəxsiyyət çıxa bilməz. Mənim aləmimdə insanı formalaşdıran nəsə varsa, onunbiri gözəllikdir.

**- Seyran müəllim, bayaq qeyd elədik ki, Midhət Abbasov dəqiq elmlər üzrə alim olub və vurğuladınız ki, bəlkə də insanların ona inamından şübhələndiyi üçün and içirdi. Dəqiq elmlər üzrə alim insanların inamsızlığından niyə şübhələnsin ki?**

- Bilirsiniz, məncə bütün insanların xislətində var, elə mən də, sən özün də qarşımızdakına, həmsöhbətimizə nəsə deyəndə istəyirik ki, yüz faiz inansın. Bizə etibar eləsin. Midhət müəllim özü çox inanan adam olduğundan, istəyirdi ki, ona inansınlar. Özü çox etibarlı adam idi, istəyirdi ki, ona da etibar etsinlər. Məncə səbəbi budur.

**- Bir də dediniz ki: "gözəllik aşiqi idi." Onun gözəllikaşiqi olmağını hansı hərəkətində, hansı sözündə duymusunuz?**

- Məsələn: küçədə də gəzmişik, Azərbaycanda və xaricdə səfərlərdə də olmuşuq birgə. Ətraf mühit var, o baxışlar var və bunu hiss eləmək o qədər də çətin bir şey deyil. Düzdür, Midhət müəllim o qədər də biruzə verən deyildi. Ya da təbiəti elə idi. Bunu ayırd edib, konkret nəsə demək də mümkün deyil. Ola bilər yanılarıq. Həddindən artıq həssas adam idi.Həssaslıq da mən bilən hər şeyi həll eləməsə də, hər şeyi duyur, hər şeyə içində qiymət verir, lazım olanda içində bir tufan, qasırğa olur. Lazım olanda dalğavari, ləpə vari bir sakitlik olur. Yəni bu adam çox diri adam idi. Bəzi adamlar haqqında deyirlər "ölüvaydı". Tutaq ki, nəysə böyük bir şey kəşf edib, amma kəşvi ilə, savadı ilə hərəkəti, davranışı uyğunlaşmayan adamlar var. Amma Midhət müəllimdə bunlar üstüstə düşürdü, bir birini mükəmməl şə-




kildə tamamlayırdı. Hamısı bizim gözümüzün qabağında olub. O, tabeliyində olan alimlərlə: Hətəm Quliyev, Rəşid Cavanşirlə də fəxr edirdi. Onlarla məsafə saxlaya-saxlaya o qədər yaxın idi ki,adam həsəd aparırdı. Bilirsiniz, bu çox çətin bir şeydir. Adam ya yaxın olar, ya da məsafə saxlayar. Midhət müəllimdə ağıllı və müdrik adam olduğuna görə, elə alınırdı ki, həm məsafə saxlayırdı, həm də son dərəcə yaxın idi. Bayaq adını sadaladığım alimlər Midhət müəllimdən yaşca kiçik olsalar da ona çox güvənirdilər. Elə bilirdilər ki, bu elmi institun direktoru adi bir insan deyi. Elə bil ki, bir dağdır. Söykənmək yeri, güvənmək yeri. Bu da havayı başa gəlmir. Gərəkdir ki, elə yaşayasan ki, bütün ətrafın, özdə ağıllı ətrafın, hamısı alimlər - həm də indiki alimlərdən deyil ha, o vaxtın alimləri elm zirvəsinə çıxmaq üçün kilometrlərlə ayaqyalın, başıaçıq yol gəliblər. Daha indiki kimi yox. O barədə heç danışmaq da istəmirəm. Hamı hər şeyi yaxşı bilir. Yəni Midhət müəllim bu sahədə də böyük bir ölçü idi. Müxtəlif ölçü vahidləri var: metr, kilometr, qram, litr və.s. Midhət müəllim də öz çəkisində, öz boy-buxununda saydığım bütün sahələr üzrə bir ölçü vahidi idi, onunla ölçürdülər. Azərbaycanda barmaqla sayılacaq qədər belə adam var, onun da biri Midhət Abbasov idi.

**- 560-dan çox elmi məqalənin, 16 monoqrafiyanın, 43 ixtiranın və 5 potentin müəllifi olan Midhət Teymuroğlu Abbasov Seyran Səxavətin yaddaşında bir dost kimi hansı xatirələrin müəllifi olub?**

- Bilirsiniz, əgər mən onunla biraz lap tez tanış olsaydım, biz daha tez rastlaşsaydıq bəlkə də mən onun haqqında mükəmməl bir bədii əsər yazardım, bir sənədli roman yazardım. Bu isə mənim istəyimdən asılı olmadı. "Qismət" deyilən ilahi bir şey var, o da yuxarıdan tənzimlənən marşrutdur. Amma tanışlığımızdan sonra da başım qarışdı onun qeyriadiliyinə, maraqlı adam olmağına. Mənim və ümumiyyətlə onun ətrafında olan heç kimin ağlına da gəlməzdi ki, Midhət Abasov bizdən belə tez ayrılar. Deyirdim ki, bu nəsə başqa bir varlıqdır, yəqin həmişə bizimlə olacaq. Adamda belə bir arxayınlıq olur, belə bir psixoloji durum var müasir insanın xislətində.

Bu saatda bir çətinliyə düşəndə Midhət müəllimi yadıma salıram. Onun təmkinini, necə hövsələ ilə vəziyyətə yanaşmasını, ona qiymət verməsini və düzgün dəyərləndirmədən sonra da super real nəticə çıxartmağı indi də nümunə olur bizə. Midhət müəllimböyük bir məktəb idi. İnanın ki, Pərvanə xanım, mənə elə gəlirdi ki, elə mən də onun əlinin altında işləyirəm. Onun dövrəsində olanların içində ən ərköyünü mən idim. Midhət müəllimin həyat yoldaşı Qarabağlı olduğundan, hərdən ona "yeznə" də deyə bilirdim. Heç kəs bunu deyə bilməzdi, amma mən deyirdim. Bu adamın təsir dairəsi, maqnit sahəsi o qədər güclü idi ki, onunla biryerdə olmayanda da elə bilirdin ki, elə Midhət müəllimləyəm. Həyatımda ikiüç nəfər şəxsiyyət olub, biri başımın üstə şəkli olan Yusif Səmədoğlu, biri də Midhət Teymuroğlu. Adama elə gəlir ki, bir addım atanda, nəsə bir iş görmək istəyəndə də düşünürdün ki, görəsən Midhət müəllim buna nə deyər, hansı tövsiyəni verərdi. Mənim üçün və öz ətrafında olan hamı üçün Midhət müəllim qeyri rəsmi tənzimləyici rolunu götürmüşdü, heç bəlkə özünün də bundan xəbəri yox idi. Sadəcə varlığı belə idi. Bundan da gözəl heç nə yoxdur. Biri var rəsmi beş-on adamı tapşıralar ki, bunlarla sən məşğul ol. Biri də var ki, ilah güc, bir kosmik xətlə Midhət müəllim bütün ətrafını varlığı ilə tənzimləyirdi. Bu çox qeyri adi bir bacarıq , bir istedad idi. Hər insana, hər kişiyə qismət olan keyfiyyətmi deyim, Allahın hədiyyəsimi deyim bir xüsusiyyət deyil.

**- Seyran müəllim, məlumdur ki, Midhət Abbasov uzun sürən ağır xəstəlikdən sonra dünyasını dəyişdi. Xəstə olan illərində görüşürdünüzmü?**

- Midhət müəllimin belə bir xasiyyəti var idi ki, o, ətrafına əziyyət verməyi xoşlamırdı. Amma Midhət müəllim bir şeyi yüz faiz bilirdi ki, mən də ona yüz faiz əminəm ki, ətrafı onu çox istəyir və yüz faiz istəmirdi ki, onu sevən adamlar əziyyət çəksin. Bu da onun ətrafındakılara olan böyük sevgisindən, ağayanallığından irəli gəlirdi. Bir iki dəfə telefonla əlaqə saxlamışdıq. Bunu da mən belə izah edirəm ki, ətrafındakılara olan sevgisi onu belə davranmağa qoymurdu. Qeyri adi bir varlıqidi. Əjdaha bir başçı idi. Böyük bir instituta başçılıq edirdi. Amma ondan da böyük olan ailə institutunun nəhəng bir başçısı idi. İdarə elədiyi institut, ya bir rayon, ya bir ölkə, ailə daha böyük bir anlamdır. Hər iki institutda paralel işləyirdi, hər ikisini paralel idarə edirdi. İkisində də eyni səviyyədə, eyni motivdə, eyni nəticələrdə mövqeyini qoruyurdu. Məkandan, şəraitdən, psixoloji dönəmdən asılı olmayaraq, ümumiyyətlə ən müxtəlif məkanlar və situasiyalarda bu adam dəyişmirdi.

**- Elə ailəsindən söz düşmüşkən, Midhət müəllimdən sonra onunailə üzvləri ilə əlaqəniz davam edirmi, ünsiyyətiniz varmı?**

- Belədir ki, onun oğlu Fəxri Abbasov DTX-nin istefada olan polkovnikidir. Biz tez-tez zəngləşirik, görüşürük, dərdləşirik. Hər görüşəndə də Midhət Teymur oğlunu yada salırıq, onun sözlərindən, xatirələrindən danışırıq.

Bir dəfə Rəşid Cavanşirin 50 illik yubileyi idi. Otellərin birində qeyd edilirdi. Səslənən musiqi o an üçün xoşuna gəlmədi və dedi :"Seyran, bu nədi belə cırıldayır? Ürəyim nəsə yaxşı musiqi istəyir". Əslində Midhət müəllim çox müasir adam idi. Amma o anda milli musiqi düşmüşdü könlünə nəsə. Rəşid Cavanşirin bir qohumu vardı orda, DİN-nin Tibb idarəsinin rəisi Səfər Əliyev də orda idi. Ona dedim ki, bəlkə bir milli musiqi təşkil edək. O da Qarabağlı idi, dedi ki, elə mənimdə ürəyimdəndir.Dedi:"Bir nəfəri çağırsam, nəsə desələr , sən boynuna götürərsən?" Dedim:"Lap canını da alaram, əlbəttə." Zəng elədi harasa və yarım saatdan sonra bizim çox gözəl (heyf ondan, mən çox sevirdim onu) müğənnimiz Aygün Bəylər gəldi və Midhət müəllim dedi:"həə, bax, bu başqa məsələ."

Midhət Teymur oğlu həm çox milli adam olmaqla yanaşı, həm də çox beynəlmiləl tərəfləri olan bir nəhəng idi. Uşaqla uşaq, böyüklə-böyük ola bilən, istənilən adamla dil tapa biləcək bir adam idi. Yalana nifrət eləyirdi, məhz buna görə də bütün varlığı ilə həqiqəti sevən bir adam idi.

Hamının dediyi o şablon ifadələr ki var: "mən xoşbəxtəm ki....." falan-filan deməyəcəm. Mən özümü Allahın şanslı bəndələrindən hesab edirəm ki, Midhət Teymur oğlu ilə yolumuz kəsişib, görüşmüşük, yaxın olmuşuq. Mən də çox istəyirdi. Mən də bununla fəxr edirdim, mənim üçün bir stimul idi. Mənim tamaşalarıma da gəlib baxırdı, kitablarımı oxuyurdu. Bir dəfə mənim haqqımda böyük bir çıxış da eləmişdi. Hamıya - Hətəm Quliyevin öz qiymətini verirdi, Rəşid Cavanşirin öz qiymətini verirdi, İsgəndər Cəfərovun öz qiymətini verirdi, Seyran Səxavətin öz qiymətini verirdi, nə artıq nə əskik. O adam o qədər nəhəng biri idi. Allah ona qəni-qəni rəhmət eləsin.

**(ardı 12-ci səhifədə)**



*Əntiqə KƏRİMZADƏ*

## Arzularıyla birgə geri dönməyən Şəfa

**Ömrünün bahar çağında taleyinə yellər əsən gənc ifaçılardan biri də Şəfa Hüseynovadır. O, 1975-ci il martın 29-da Qərbi Azərbaycanın Göyçə mahalının Qaraqoyunlu dərəsində müəllim ailəsində anadan olub.**

**Məlum hadisələr nəticəsində 1988-ci ildə Sumqayıtda məskunlaşırlar. 13 yaşlı balaca Şəfa həmin şəhərdə təhsil almağa başlayıb. O, ilk dəfə ekranlarda "Sübh şəfəqləri" verlişində görünür. Türkiyənin Ege Universitetinin filologiya fakültəsinə oxumağa başlayır. İki ildən sonra isə vətənə qayıdaraq Bakı dövlət universitetində təhsilini davam etdirir. Aldığı təhsil ona ədəbiyyatla, incəsənətə bağlı çox şeyi öyrədir.**

**Onun ailə həyatı da ömrü kimi yarım olur. Müğənni bir dəfə ailəli olub. Ailəsi onun evlənəcəyi adamla ailə qurmasına qarşı olur. Lakin, o, həmin şəxsi sevdiyini deyərək onunla nigaha girir. Həyat yoldaşı Anar "N-brothers" qrupunun ilk solistlərindən biri olub. Onların evliliyi cəmi 3 ay çəkib. Şəfanın qardaşının dediyinə görə ayrılığa səbəb Anarın Şəfaya qarşı başqa qadınlarla xəyanət etməsi və ondan maddi tələblərinin çox olması olur. Şəfa həyat yoldaşından ayrılsa da onu çox sevir. Yaradıcılığındakı bütün ayrılıq və sevgi mahnılarını ona həsr edir.**



**Xüsusilə "Geri dön" mahnısını məhz Anar üçün yazır. Bir dəfə qardaşı onu mətbəxdə keçmiş əri üçün yazılan mahnıya qulaq asıb ağladığı yerdə görüb. Şəfa keçmiş ərini hələ də sevdiyini və mahnını onun üçün yazdığını ağlaya-ağlaya etiraf edir.**

**Həyat yoldaşından ayrılmağı onun həyatında sarsılmaz izlər buraxır. Şəfa ətrafda bir çox insanlardan uzaqlaşıb, yaradıcılıqla məşğul olur. Onun yaradıcılığında da daha çox sevgi mövzusu yer alır. Ən çox da nakam məhəbbəti tərənnüm edən mahnıları dillər əzbəri olur.**

**Əlbəttə yaradıcılıqla yanaşı hər bir qadın kimi onun da ana olmaq arzusu olur. Lakin tale bu xoşbəxtliyi ona bəxş etmir. Onun övladı olmur.**

**Müğənni son zamanlar efirlərə çıxmaqdan imtina edirmiş. Daha çox el şənliklərində oxuyurmuş. Bunun əsas səbəbi isə siması ilə bağlı kompleksli olması olur. Burnunu estetik əməliyyat elətdirəndən sonra efirlərə yenidən çıxmağa başlayır.**

**2005-ci ilin mart ayında 30 yaşı tamam olan müğənniyə ailəsi təmtəraqlı ad günü keçirtmək istəsə də o, qəti şəkildə etiraz edir. Sanki başına gələcəkləri indidən hiss edir. Bacısına deyir ki, mən bilirəm ki, bu yaş mənə düşməyəcək. Elə 30 yaşımda da dünyadan köçəcəm. Gənc yaşında həyatdan köçəcəyi fikri onun ağlından çıxmır.**

**Atası "Sarıtel" aşıq havasını çox sevdiyindən Şəfa demək olar ki, bütün el şənliklərində bu havanı ifa edirmiş. O, 2005-ci il dekabrın 3-də Saatlı rayonuna qohumlarının toyuna ailəsi ilə birgə gedir. Toyda anası ilə də son dəfə şəkil çəkdirir. Geri qayıdanda maşını Şəfanın qardaşı idarə edir və qəza törədir. Həmin vaxtı isə Şəfa başını anasının dizinə qoyub yatıbmış. Onları xəstəxanaya çatdırsalar da Şəfanın anası dərhal dünyasını dəyişir. Şəfa isə 3 gün komada qalır və dünyasını dəyişir.**

**Ailəsi onun haqqında danışanda ən çox sənət dostlarından gileylənir. Ən yaxın dostunun onun dəfninə gəlməməsi, hətta ailəsinə başsağlı verməməsi onları ən az Şəfanın ölümü qədər sarsıdır...**

## *Maşında ürəkbulanma: Pediatrdan valideynlərə məsləhət*

**Yay mövsümündə uzun avtomobil səfərləri zamanı uşaqlarda ürəkbulanma və qusma halları tez-tez müşahidə olunur.**

Adalet.az xəbər verir ki, pediatr Jül Fujer bunun beynin gözlərdən və bədənin hərəkətindən gələn siqnallar arasındakı uyğunsuzluqdan qaynaqlandığını bildirib. Həkimin sözlərinə görə, səfərdən əvvəl uşağın ac olmaması, lakin ağır yemək də yeməməsi vacibdir. Avtomobildə isə uşağın hərəkət istiqamətinə baxaraq oturması tövsiyə olunur. Pediatr həmçinin yol boyu planşet və telefon kimi ekranlardan istifadə etməməyi məsləhət görür. Çünki bu, ürəkbulanmanı daha da gücləndirə bilər. Bundan əlavə, uşağın kifayət qədər su içməsi, avtomobil salonunun mütəmadi havalandırılması və uzun yollarda tez-tez fasilə verilməsi tövsiyə edilir



*Qəşəm İSABƏYLİ*

# NAZİR, KÖMƏKÇİSİ, ARXAİK SÖZLƏR VƏ TƏBƏSSÜM

(hekayə)

Nazir, katibənin gətirdiyi məktubu oxuyub, gözlərini dikdi qarşıdakı kitab dolabına: "Mən niyə buradakı bəzi sözlərin mənasını anlaya bilmirəm, görəsən?!" Birdən "Ah!" eləyib, əlini alnına vurdu. - Yəqin ki, köməkçim bilməmiş olmaz. Şairdi, nahaq yerəmi dostumun xahişi ilə işə götürmüşəm onu?!"

Zəngi basdı. Bəstəboy bir cavan içəri girdi:

-Eşidirəm, mənim Nazirim?

-Yaxına gəl, şair! - məktubu uzatdı ona. - Gör burda yazılanlardan ağlına bir şey batır?

Köməkçi kağıza göz gəzdirib, sonra da başını qaldırıb Nazirə baxdı.

-Hamısını başa düşdün?

-Başa düşdüm, mənim Nazirim.

-Altından xət çəkdiyim sözlərin də mənasını anladın, hə?! Azərbaycan türkcəsindədi bunlar? Məsələn "mərhəmət"...

-Mənim Nazirim, "mərhəmət" ərəblərdən gəlmə sözdü. Nə az, nə çox, düz min dördyüz ildi dilimizdə özünə doğmalıq qazanıb. "Rəhm, acıma və insaf" deməkdi. Qısası, mərhəmət insanın ağır günlərində ona kömək eləmək anlamını verir.

-Yaşını hardan bilirsən, ay şair?!

-Mənim Nazirim, oxumuşam. İslam diniylə gəlib bu söz bizə.

-Bəs "ədalət"?

-"Ədalət" də ərəbcədi, o da arxaik sözdü...

-Arxaik nədi?

-Köhnəlmiş, dəbdən düşmüş, bir növ arxivə atılmış deməkdi.

Nazir gülümsədi:

-Deyirəm axı, niyə bu sözlər mənə tanış gəlməyir. Mənası nə oldu "ədalət"in?

-"Ədalət" haqq, düzlük, bərabərlik, hər şeyi öz yerinə qoymaq və insanlara eyni gözlə baxmaq deməkdi.

-Orda bir söz də var ey, ləy...

-"Ləyaqət"...

-Bəli, bəli.

- "Ləyaqət" də ərəbcədi. İnsanın özünə hörmət hiss?ini, bacarıq və qabiliyyətini ifadə eləyir.

-Şair, çox ağır oldu, bir az xırdala.

-Mənim Nazirim, insanın özünə verdiyi qiymət və başqasından gördüyü hörmət "ləyaqət"in mənasıdı.




-Həəə... "mərhəmət", "ədalət", "ləyaqət". Necə də bir-birinə yaraşır.

-Mənim Nazirim, burda bir sözün də altından xətt çəkmisiniz.

-O, nədi?

-"Təbəssüm".

-Həəə... lap yadımdan çıxmışdı. O nə deməkdi, ay şair?

-Mənim Nazirim, bir var gülüş, bir də var təbəssüm. İcazə verin əyani şəkildə göztərim sizə.

-Buyur, buyur.

-Baxın, dodaqlarımı azca yana çəkirəm, üzümə işıq düşür. Deməli, təbəssüm edirəm.

-Şair, bunu nənəm də eləyər! Bir mənə bax - dişlərimi qabağa verirəm, dodaqlarım sağa-sola dartılır. Üzümə işıq düşür?

-Mənim Nazirim...

-Yox, düzünü deməyəcəksən mənə. Yaxşısı budur durum güzgüyə baxım. Belə... dodaqlarım dartılır. Bu da sifətim... Qəribədi. Niyə kölgə düşür üzümə, görəsən?!

-Mənim Nazirim, gərək siz daxilən təbəssüm edəsiniz ki, işığı da sifətinizə çıxsın. Bunu da vərdiş əsasında eləyə bilərsiniz.

-Əşi, nəyimə lazımdı təbəssüm?! Vəzifəmi əlimdən alacaqlar, nədi?!

-Düz sözə nə zaval, mənim Nazirim!

-Qəribədi, o boyda ali təhsil almışam, özüm də bu boyda vəzifə adamıyam, gəl ki, bu sözlərin mənasını dərk eləmirəm. Amma sən bülbül kimi ötürsən!

-Mənim Nazirim, bunlar ədəbiyyat sözüdü, şeir sözüdü. Siz isə şair deyilsiniz axı. Böyük bir nazirliyin başında dayanan... şəxsiyyətsiniz!

Nazir məmnun halda gülümsədi:

-Necə dolanırsan, ay şair?

-Mənim Nazirim, atalar deyən kimi - palaza bürün, elnən sürün!

-Mənə bir xahiş məktubu yaz, bir aylıq məvacibin qədər yardım eləyim sənə.

Köməkçinin üzünə işıq düşdü:

-Allah sizdən razı olsun, mənim Nazirim!

-Şair, bu gündən Nazirliyə gələn məktublara baxmağı sənə tapşırıram. Hansında bu arxaik sözlərdən birini görsən, təpəsi üstdə geri qaytarırsan! Süni zəka dövrüdü indi. Arxaik sözlər nəyimizə lazımdı bizim?! Qoy adamlar mərhəmət, ədalət, ləyaqət sözləriylə başağrısı verməsinlər bizə!

# ELİMİZİN-OBAMIZIN FƏXRİ VASİF HƏKİM

**Əsli-kökü Qazax rayonunun Şıxlı kəndindən olan Vasif həkim 1991-ci ildə Bakı şəhərində anadan olmuşdur.Orada böyüyüb boya-başa çatmışdır. Amma öz doğma ata, baba yurdunu yaddan çıxmamışdır.**

Həyatda yaxşı, peşəkar həkimlərlə rastlaşmaq özü də bir xoşbəxtlikdir. Bir atalar sözündə deyildiyi kimi: "Qismətdə olanda təbib özü qarşına çıxır". Biz özümüzü çox xoşbəxt hesab edirik ki, qarşımıza məhz Vasif həkim kimi bir təbib çıxdı. Onun peşəkarlığı sayəsində atam bu gün həyatdadır.

2026-ilin mart ayının 25-də Atam bağırsaq keçməməzliyindən ağır əməliyyat keçirdi. Həmin günlərdə bayram təltili idi. Lakin bayram olsada Vasif həkim əməliyyata girdi və işini layiqincə yerinə yetirdi.Əlbəttə, insana ömrü verən uca Allahdır,amma gözəl həkimlərin işini dəyərləndirmək lazımdır. Çünki, onların da Allah çıxarır bizim qarşımıza.

2024-cü ildən isə Qazax Rayon Mərkəzi Xəstəxanasında həkim-cərrah kimi fəaliyyət götərib.Hal-hazırda direktorun cərrahı işlər üzrə müavini vəzifəsində çalışır.

Ailəlidir, bir oğul evladı var.

2010-cu ildə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. Daha sonra "Azərbaycan gənclərinin xaricdə təhsili" dövlət proqramı çərçivəsində baza tibb təhsilinin




davamını İstanbul Universitetinin tibb fakültəsində alıb.

2015-2021-ci illərdə İstanbul Universiteti Cərrahpaşa Tibb fakültəsində Ümumi Cərrahiyyə Kafedrasında və daha sonra Türkiyə Cümhuriyyəti Sağlıq Bilimləri Universiteti Prof.Dr Cemil Taşcıoğlu Şehir Eğitim və Araşdırma Xəstəxanasında uzmanlıq təhsili alıb. 2021-ci ildən Ümumi Cərrahiyyə uzmanı adını alıb.

2021-2023 -cü illərdə Bezmialalem Vakıf Universiteti Tibb Fakültəsində həkim-cərrah olaraq işləyib.

2023-cü idən etibarən Vətən qayıtmış və altı ay Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Cərrahiyyə şöbəsində həkim - cərrah olaraq fəaliyyətə başlayıb. Daha sonra Sabunçu Tibb Mərkəzində Əməliyyatxana bölməsinin müdiri vəzifəsində çalışıb.

Əlbəttə, biz burada sadəcə, faktları sadalamaqla kifayətlənmək istəmirik. Əsas demək istədiyimiz odur ki, Vasif həkim sözün əsl mənasında həkimdir.O, çalışdığı illər ərzində yüzlərlə xəstəyə Şəfa vermişdir.İşini layiqincə yerinə yetirmişdir.Bu isə yüzlərlə ailəni xoşbəxt eləmək deməkdir.

Belə bir deyim var.Əgər xəstə həkimlə söhbət etdikdən sonra özündə bir yüngüllük hiss edirsə, deməli, o, əsl həkimlə rastlaşıb. Vasif həkim də məhz belə həkimlərdəndir. Atamın da hər müayinəyə gələndə Vasif həkimi görməmiş evə getməsi mümkün deyildir. Vasif həkinin öz ata, baba yurdunda belə peşəkar feəliyyəti bizi çox qürurlandırır. Bütün xəstlərlə canla-başla maraqlanmağı qayğı göstərməyi bir sübutdur.Öz ata yurdunda belə peşəkar fəaliyyət göstərməyi bizi bir Qazaxlı olaraq çox qürurlandırır.

**Bu gün biz ona şəfa verdiyi yüzlərlə insanın adından və atamın adından Vasif həkimə öz dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Çətin və şərəfli işlərində uğurlar cansağlığı arzu edirik.**

**Hörmətlə: Leyla Əliyeva**
**Qazax şəhəri**



*Mina Mikayılova*

## Qorxunun ümidlə yanaşı addımladığı sükut...

**Uzun müddətdir onkoloqla görüşmək, xərçəngin insan həyatına toxunan tərəfi haqqında yazmaq istəyirdim. Çünki bu xəstəlik mənim üçün heç vaxt sadəcə tibbi terminlərdən, statistik rəqəmlərdən və müalicə üsullarından ibarət bir mövzu olmayıb. Bu sözün arxasındakı yarımçıq qalan arzular, dəyişən həyat hekayələri, ailələrin keçirdiyi çətin günlər, qorxu, göz yaşları və bütün bunlara baxmayaraq sönməyən ümid hər zaman məndə maraq doğurub. Bir diaqnozun insanın düşüncələrini, gündəlik həyatını, gələcəyə baxışını necə dəyişdirdiyini, xəstənin və onun yaxınlarının hansı hissləri yaşadığını, həkimlərin isə hər gün bu emosional yükün içində necə çalışdıqlarını daha yaxından görmək istəyirdim. Buna görə də yolumu xəstəxanaya saldım.**

**Xəstəxanaların özünəməxsus bir sükutu olur. Sözlərin yerini baxışların aldığı, qorxunun ümidlə yanaşı addımladığı bir sükut... Burada yüksək səslə danışan olmur, amma hər kəsin ürəyində min cür fikir dolaşır. Kimisi analiz cavabını gözləyir, kimisi həkim otağının qarşısında sakitcə növbəsini. Gözlərdə narahatlıq da var, ümid də. Dəhlizdə oturarkən gözüm bir-bir insanların üzündə gəzirdi. Bəziləri həkimin qapısına baxırdı, bəziləri əlindəki analiz cavabını dəfələrlə açıb oxuyurdu. Elələri də var idi ki, heç nə demədən sadəcə gözləyirdi. Orada insanların üzünə baxmaq kifayətdir ki, hər kəsin öz içində necə böyük bir mübarizə apardığını anlayasan. Kimsə dua edir, kimsə ümidini itirməməyə çalışır, kimsə isə hələ eşitmədiyi cavabın həyatını dəyişəcəyini düşünərək susur. Həmin dəhlizdə insan anlayır ki, xərçəng təkcə tibbi diaqnoz deyil. O, hər ailənin, hər insanın fərqli yaşadığı bir sınaqdır. Bəzən bir söz, bir cavab, bir müayinə nəticəsi insanın bütün həyatını dəyişə bilir. O, eyni zamanda gözləməyin, mübarizə aparmağın, bəzən də həyata yenidən sarılmağın adıdır.**

**İnsan başa düşür ki, bəzən həyatın dəyərini ən çox xəstəxana divarları arasında hiss edirsən. Çünki burada insanlar böyük arzular qurmurlar. Kimsə sadəcə sağalmağı, kimsə övladının toyunu görməyi, kimsə nəvəsini qucaqlamağı, kimsə isə ağrısız bir gün keçirməyi arzulayır. Sağlam insanın adi hesab etdiyi bir gün burada ən böyük nemətə çevrilir.**

**Bəlkə də xərçənglə mübarizənin ən çətin tərəfi xəstəliyin özü qədər onun yaratdığı qorxudur. Çünki bəzən insanlar xəstəlikdən yox, onun haqqında eşitdikləri yanlış məlumatlardan qorxurlar. "Xərçəng sağalmır", "müalicənin faydası yoxdur" kimi düşüncələr insanları vaxtında həkimə müraciət etməkdən uzaqlaşdıra bilir. Onkoloqla söhbətim zamanı da bu məsələyə xüsusi toxunduq. Həkim bildirdi ki, müraciət edən xəstələrin əhəmiyyətli hissəsi xəstəliyin erkən mərhələsində yox, artıq gecikmiş dövrdə gəlir. Bunun səbəbi isə əksər hallarda simptomları ciddi qəbul etməmək və ya yanlış məlumatlara inanmaq olur. Halbuki müasir tibb son illərdə xərçəngin diaqnostikası və müalicəsində böyük inkişaf yolu keçib. Bu gün bir çox xərçəng növü erkən aşkarlandıqda uğurla müalicə olunur və insanlar normal həyatlarına qayıda bilirlər. Xərçənglə mübarizədə ən böyük silahlardan biri vaxtdır. Şikayətlərin yaranmasını gözləmədən müayinələrdən keçmək, bədəni tanıyaraq baş verən dəyişikliklərə diqqət etmək və şübhəli əlamətləri görən kimi həkimə müraciət etmək bir çox hallarda həyat qurtarır.**

**Xəstəxanadan çıxarkən dəhlizdə gördüyüm insanlar yadımdan çıxmırdı. Hər biri fərqli yaşda, fərqli taleda.. Amma hamısını birləşdirən ortaq hissin adı ümid idi. Bəzilərində zəif, bəzilərində güclü olsa da, o ümid hər kəsin baxışında hiss olunurdu. Xərçəng həmişə son demək deyil. Bəzən o, həyata daha möhkəm sarılmağın, hər günün qiymətini bilməyin və ümidini itirməməyin başlanğıcı olur.**

## *"Kondisioner xəstəlikləri"ndən qorunun!*



**Yay aylarında sərinləmək üçün istifadə edilən kondisionerlər düzgün istifadə olunmadıqda müxtəlif sağlamlıq problemlərinə səbəb ola bilər.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Ani temperatur dəyişiklikləri, quru hava və baxımsız kondisionerlərdə toplanan mikroorqanizmlər tənəffüs yolu infeksiyaları, allergiya, sinusit və əzələ ağrılarına yol aça bilər. Çirkli kondisioner filtrləri virus, bakteriya və tozları havaya yayaraq boğaz ağrısı, öskürək və burun axıntısına səbəb ola bilər. Həmçinin uzun müddət soyuq hava axınına məruz qalmaq boyun, bel və çiyin ağrılarını artırır.

# Allahın "OL" dediyi Midhət Abbasov

## Nəhəng Midhət Abbasov

**(əvvəli 10-cu səhifədə)**

Bilirsiniz də dünyada sevgi azalıb, həm sözün öz mənasında, həm də böyük mənasında. Amma inanırsınız bu həm də bir soyuqluq yaradır. Mən dediyim soyuqluğun fəsillərə bir dəxli yoxdur. Belə olanda məni sevənləri (indi çoxu yoxdur dünyada) xatırlayıram. Deyirəm qoy indən belə lap heç kim istəməsin məni, qoy lap soyuq olsun, üşüyüb eləmirəm, sevənlərin istisi bəsdi mənə. Məni Midhət Teymur oğlu çox istəyib, Yusif Səmədoğlu, Adil Hacıyev, Zeynal Zeynalov, Fuad Poladov çox istəyib. Lap Şimal Buzlu Okeanda da olsam mən üşümərəm. Bax, bu da Midhət Teymur oğlu məktəbidir. Bilirsiniz, alim ol, yazıçı ol, jurnalist ol, aparıcı ol, kim olursan ol, Dünya da "Ol" sözündən yaranıb. Sən də ol. "Ol" deyən Allah xeyrini versin. Amma "ol" demirlər, balam, adam ol! Midhət müəllimə elə bil Allah demişdi "Ol" və "Nəhəng ol.", "Midhət Teymur oğlu ol". O da oldu.

**P.Eyvazqızı -** Qəlbinizi, ruhunuzu biraz da isitsin deyə, Midhət Abasovun Sizin barənizdə dediyi fikirləri də müsahibəmizin bu məqamına əlavə etmək istədim.

**Midhət Abbasov (akademik):** Seyran Səxavət mənim üçün görkəmli yazıçı, Azərbaycan ictimai fikrinin formalaşmasında rolu olan bir ziyalıdır.

Seyranın əsərləri Azərbaycan reallığının bir çox sahələrini əhatə etdiyi üçün oxucular tərəfindən həmişə rəğbətlə qarşılanır. Azərbaycanın ədəbiyyat sahəsindəki görkəmli sənətkarları da Seyranın ədəbi yaradıcılığını yüksək qiymətləndirirlər. Seyran həm də fəal ictimai xadimdir. Gündəlik mətbuatda, televiziyada müxtəlif mövzularda onun çıxışları, müsahibələri həmişə öz aktuallığı, ciddiliyi və orijinallığı ilə fərqlənir. Onun dili sadə olsa da, çox güclüdür, səmimidir. Yalandan, pafosdan uzaqdır. Bütün bunlar xalq arasında Seyrana böyük inam qazandırmışdır.

**P.Eyvazqızı -** Midhət Abasovun ad günü, anım günü ərəfəsində bizim söhbətimiz ona da əyan oldu, ruhu şad oldu.

**S.Səxavət -** Yəqin ki, hə...

**P.Eyvazqızı -** Bu müsahibə üçün sizə də təşəkkür edirəm, çox maraqlı həmsöhbətsiniz.

Midhət müəllim haqqında səmimi fikirlər dediniz. Əminəm ki, müsahibəmizi oxuyanlar, Midhət Abasovu sevənlər onu bir başqa istiqamətdən də tanıyacaqlar.

**S.Səxavət -** Çox sağ ol, sən də əziyyət çəkdin, məni danışdırdın. Adamı hər adam danışdıra bilmir ha. Gərək etibar edəsən, sözümüzü çöldən tapmamışıq.

Bizim kimi adamların sözdən başqa heç nəyi yoxdur. Sözdən başqa heç nəyi olmayan adamlar da elə dünyanın ən zəngin adamlarıymış, sən demə. Təşəkkür edirəm.

**Pərvanə Eyvazqızı**

# *BİR KƏND MƏKTƏBİNDƏ*

**(əvvəli 8-ci səhifədə)**

Əlbəttə, metodikanı bilmək və proqramı əsas tutmaq lazımdır. Lakin, mən deyərdim ki, hər dərsin öz ab-havası, öz xüsusiyyəti olur. Müəllim dərhal o ab-havanı tutmalı və dərsini o kök üstə kökləməyi bacarmalıdır. Hər dərs, dərsin özündə yaranmalıdır. Burada əvvəlcədən müəyyən olunmuş rels üstündə getmək olmaz. Müəllim dərsin yaradıcısıdır, hakimidir. Əks təqdirdə, dərs standart və cansıxıcı olar? Müəllimin yaradıcı təşəbbüsü özünü göstərməz.

Təşəbbüs sözünün kökü ürəyə bağlıdır. Ürəyində böyük duyğular olmayan adamdan heç bir böyük əməl də gözləmək olmaz.

Müəllim heyətinin ikinci təşəbbüsü məktəb çərçivəsindən kənara çıxır, daha böyük ictimai məzmun alır. İki il bundan əvvəl kollektiv bu qərara gəlir ki, şagirdlərin qüvvəsi ilə məktəbin nəbatat bağında bir abidə ucaltsın: naməlum əsgərin abidəsini! Bunu həyata keçirmək üçün istirahət günləri şagirdlər "Günəşli" sovxozunda işləyirlər. Onların qazancı toplanır, Bakı memarlıq emalatxanasının hesabına keçirilir. Heykəltəraşlar ömrünü Vətənə qurban verən azərbaycanlı əsgərin gözəl bir abidəsini yaradırlar. Abidənin əsasına həmin kənddən Vətən müharibəsində həlak olan döyüşçülərin şəkilləri həkk edilir. Onun düz ortasında isə seyfə bənzər bir dolab düzəltmişlər. Həmin dolabda şəkilləri divara həkk edilən şəhidlərin məktubları və qısa tərcümeyi-halları saxlanılır. Şəkillərin birinin altında iki sətir şeir yazılmışdır:

Ey Vətən, şirinsən baldan, şəkərdən
Əyilib öpəydim o doğma yerdən.

Mən şeirin müəllifini xəbər aldım.

- 20 yaşında şəhid olmuş leytenant Balabəy Məmmədovun "Xəyal" adlı şeirindədir, - deyə cavab verdilər. Bundan sonra Heybət müəllim şeiri bütünlüklə əzbərdən dedi. Şeir, həqiqətən, o zaman üçün xəyal idi. Bu gün isə həmin döyüşçünün xəyalı həqiqət olmuşdur.

Əsgər o zaman arzulamışdır ki, kəndlərinin ətrafında üzüm bağları salınsın, bu gün həmin yerdə "Günəşli" sovxozunun üzüm tənəkləri sıralanmışdır.

Söhbətin şirin yerində birdən abidənin başından asılmış zəng cingilti ilə səsləndi. Məktəbin həyətində oynayan uşaqlar siniflərə doluşdular.

Təəccüb etdik. Məlum oldu ki, məktəbin zəngi abidənin başından asılmış zənglə calaşdırılmışdır. Belə ki, məktəbin zəngi çalınanda, abidənin zəngi də səslənir. Zəng səsləri ilə, elə bil, məktəb, 26-27 il bundan əvvəl onun yolunda həlak olmuş keçmiş şagirdlərini də dərsə çağırır. Axı, o cavanların ömürləri kimi, təhsilləri də yarımçıq qalmışdır. Yox, bəlkə də, indi məktəb bu zəng səsləri ilə keçmiş şagirdlərinin ruhuna xatirə nəğməsi oxuyur.

Gözlərimizin yaşını silib, iftixarla məktəbə baxdıq. Bir anlığa bizə elə gəldi ki, Vətəndən çox-çox uzaqlarda həlak olmuş bu igidlər yenə bizimlədirlər. Bax, indicə o şəhidlər, siniflərə doluşan uşaqlarla bərabər müəllimlərin dərsinə qulaq asmağa getdilər...

Ey Vətən yolunda haraysız, səssiz
Ölən ərənlər!
Siz ey təmənnasız, qəsdsiz, qərəzsiz
Canını bizlərə qurban verənlər,
Eşq olsun sizə!
Eşq olsun o polad iradənizə!

Məktəbin üçüncü təşəbbüsü. Keçən il həmin bu məktəbi bitirənlər şagirdlər üçün emalatxana tikiblər, builki müdavimlər isə məktəbdə idman salonu tikməyi qərara almışlar. Beləliklə, hər buraxılışın məktəb üçün bir yadigar qoyub getməsi artıq bir ənənəyə çevrilmişdir. Bütün bunlardan sonra Heybət müəllim üzünü bizə tutub dedi:

- Sonra elə bilərsiniz ki, başımız belə işlərə qarışıb, təhsil işləri...

Bu yerdə Xudu Məmmədov onun sözünü kəsdi:

- Yox, elə fikirləşmirik. Bu işlərin özü də təhsil üçündür...

Həqiqətdə də, belədir. Ölkəşünaslıq muzeyi təhsil üçündür, - desək, çox az olar. Əgər tarix müəllimi Vətənimizin başına gətirilən müsibətlərdən, bu müsibətlərə qarşı xalqın üsyanından soyuq rəqəmlər əsasında danışırsa, muzey balalarımıza, Vətənimizi candan əziz tutan babalarımızın ayaq izlərini göstərir.

Muzey özümüzü özümüzə tanıdır.

Şəhidlər üçün tikilən abidə isə balalarımıza nə üçün yaşayıb, nəyin uğrunda ölmək dərsini öyrədir. Cəsarətlə deyə bilərik ki, abidənin verdiyi dərs sinifdəki dərsdən daha tutarlı və daha mənalıdır. Abidə bir də balalarımıza onu öyrədir ki, qəhrəmanlar fövqəladə məxluq olmurlar. Onlar bizim öz içimizdən çıxırlar. Uşaq inanır ki, kənddə hər gün gördüyü qoca Məmməd kişinin oğlu, indi isə qəhrəman kimi tanınan Balabəy neçə il bundan əvvəl onun kimi adi bir uşaq olmuş, onun oxuduğu məktəbdə oxumuş, bəlkə də, bu gün onun əyləşdiyi partada əyləşmişdir. Uşaq inanır ki, qəhrəmanlığa gedən yol onun əyləşdiyi partadan başlayır. Təhsil və tərbiyə üçün bundan böyük əyanilik ola bilərmi?!

Nəhayət, məktəb üçün emalatxana və idman salonu tikmək balalarımızı ictimai əməyə həvəsləndirir. Soruşulur, həmin emalatxanadan onu tikənlər istifadə edəcəklərmi? Yox! Bəs nəyə görə tikmişlər? Özlərindən sonra gələnlər üçün. Məşhur atalar sözü yada düşür: "Əkiblər, yemişik, əkirik yesinlər". Eşq olsun, xalqımızın təbiətindəki bu yüksəkliyə, bu böyük hissə! Eşq olsun, bu ənənəni qoyanlara və davam etdirənlərə! Nəhayət, eşq olsun, bu ictimai duyğuya!

Elə buna görədir ki, bu məktəbdə təhsil işləri də yaxşı qurulmuşdur. IX sinifdə ədəbiyyat dərsinə qulaq asdıq. Ata-baba müəllimin dərsindən razı qaldıq. Məktəbdə təhsil işlərinin yaxşı qurulduğunu göstərmək üçün təkcə bunu demək kifayətdir ki, keçən il həmin məktəbi qurtaranlardan 16 nəfəri ali məktəblərə, 6 nəfəri isə texnikumlara daxil ola bilmişdir.

**Gördüklərimdən belə bir nəticəyə gəldim: istəsək, hər şey edə bilərik! Buna görə də üzümü respublikanın bütün kənd məktəblərinin rəhbərlərinə tutub deyirəm: haqqında danışdığım məktəbdən örnək götürün!**

**Bəxtiyar VAHABZADƏ,**
**Xalq şairi**
**1970**

Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

# CƏLAL BƏRGÜŞAD DÜNYASI



**Cəlal Bərgüşad (1924-1996) Azərbaycanın tanınmış yazıçısı, publisisti və ssenaristi idi. Onun həyat və yaradıcılığı indiyə kimi yaxşıca öyrənilməmişdi. Özü həm bir insan, həm də yazıçı kimi çox maraqlı şəxsiyyət idi. Ədəbi mühitdə, həm də uzun illər çalışdığı Dövlət Televiziya və Radio Verilişləri Şirkətində hamı onu yaxşı tanıyırdı. Onun əsərlərini həm tərifləyirdilər, həm də bu əsərlər tənqid hədəfinə çevrilirdi. Amma bütün bunlara baxmayaraq Cəlal Bərgüşad hər iki tərəfdən etiraf olunmuş yazıçı idi və onun XX əsr Azərbaycan nəsrində heç şübhəsiz, öz yeri var. Filologiya elmləri doktoru, tanınmış ədəbiyyatşünas Lütviyyə Əsgərzadə yazıçının həyat və yaradıcılıq yolu barədə "Cəlal Bərgüşad" adlı monoqrafiya çap etdirib ("Elm və təhsil" nəşriyyatı, 2026)**

Lütviyyə xanımı yaxşı tanıyıram. Bir yerdə - Ədəbiyyat İnstitutunda çalışırıq. Onun böyük mütəfəkkir Hüseyn Cavidin yaradıcılığı ilə bağlı ("Hüseyn Cavid və Şərq", "Hüseyn Cavid: mühiti və müasirləri" "Hüseyn Cavild və Azərbaycvn ədəbiyyatşünaslığı") kimi sanbalı tədqiqat əsərləri var. Hər bir tədqiqatında Lütviyyə xanım ilk olaraq Şəxsiyyətin tarixdə - yaşadığı mühitdə rolunu, mövqeyini ön plana keçirir, onun həyatı, keçdiyi ömür yolu ilə yaradıcılığı arasında vəhdəti müəyyənləşdirir, daha sonra isə F.Köçərli. S.Mümtaz, M.Cəfər kimi ustadların yolunu davam etdirərək yazıçının əsərlərini təhlil edir (təhlil prosesində kiminləsə elmi mübahisəyə girişir),həttə deyərdim ki, haqqında söz açdığı əsərlər barədə son nöqtəni qoymağa çalışır. "Cəlal Bərgüşad" monoqrafiyasında da eyni prinsipi reallaşdırır.

Mən Lütviyyə xanımın monoqrafiyasını - onun ayrı-ayrı fəsillərini təhlil etmək, onun bu tədqiqatda nəyə nail olduğunu isbatlamaq fikrindən imtina edirəm. Bu əsərdə həyatı və yaradıcılığı canlandırılan Cəlal Bərgüşadı onu yaxşı tanımayan yeni nəsil oxuculara tanıtmaq istəyirəm. Təbii ki, Lütviyyə xanımın monoqrafiyasından çıxış edərək...

Cəlal Novruz oğlu Cavadov-Cəlal Bərgüşad yoxsul bir ailədə dünyaya gəlmişdi. Əksər sovet gənci kimi o da fəhlə-gənclər məktəbində təhsil almışdı. Doğum tarixi: 1924-cü ildə deyil, 1926-cı ildə dünyaya gəldiyi ehtimal edilir. Onun gəncliyi Böyük Vətən müharibəsi illərinə düşüb, 1942-ci ilin sentyabr ayında Sovet ordusu sıralarına səfərbər olunur. Ağır müharibə illərində cəbhəyə göndərmək üçün əsgər lazım idi, hərbi komissarlıq belə qərara gəlmişdi ki, məktəbin son sinfində oxuyan boyu hündür oğlanları da cəbhəyə göndərsinlər. Cəlal Bərgüşad da maşallah, hündür boylu idi. Beləliklə, o, müharibədə döyüşçü kimi iştirak edir,,xatirələrində o ağır illərdən söz açır. Döyüşlərin birində ağır kontuziya alır və müalicə olunur, sonra da tərxis olunur,rayona qayıdır Əlbəttə, o, işsiz qalmır, amma ən böyük arzusu Bakıya getmək, ali təhsil aliaq idi.

Hər bir insanın, ələlxüsus, taleyini ədəbiyyata bağlayan söz adamının lap gənclik illərindən bir havadarı, xeyirxahı olur.1946-cı ilin bir yaz günü o xeyirxah insanla - böyük yazıçı Əli Vəliyevlə görüşü Cəlal Bərgüşadın həyatının səmtini müəyyənləşdirir. Məhz Əli Vəliyevin qayğısı, ona "ikinci ata" olması sayəsində Cəlal Bərgüşad özü də bu etimadı doğruldur, BDU-nun filologiya fakültəsində təhsil alır, universiteti bitirdikdən sonra (1951-ci ildə) işlə də təmin olunur -Ədəbiyyat və incəsənət" qəzetində - O illərdə qəzetin redaktoru Süleyman Rüstəm idi. Tale elə gətirir ki, Cəlal Bərgüşad bir neçə ildən sonra Süleyman Rüstəmin kiçik bacısı Nəsibə xanımla evlənir.Əlbəttə, bu yazıda mən Cəlal Bərgüşadın tərcümeyi-halını nəql etmək istəmirəm (monoqrafiyada doğru-düzgün əks olunub). Daha sonrakı illərdə onun taleyi Radio və Televiziya ilə bağlı olur.



Cəlal Bərgüşad ədəbiyyat tariximizdə daha çox "Bozatın belində" və "Sıyrılmış qılınc" tarixi romanları ilə məşhurdur. Dünya ədəbiyyatında tarixi romanın ilk nümunələrinin Valter Skott tərəfindən yaradıldığı məlumdur, Azərbaycan ədəbiyyatında isə tarixi romanın barisi Məmməd Səid Ordubadidir. "Dumanlı Təbriz" romanı ilə başlayan bu ənənə bir əsrdir ki, davam edir. Və bu bir əsr müddətində tarixi roman janrı da öz inkişafında bir neçə mərhələni adlamışdır. Bütün bu inkişaf prosesindən mərhum professor Yavuz Axundlu "Azərbaycann tarixi romrhələlə, problemlər" monoqrafiyasında öz elmi həllini tapıb. "Ənənə" kəlməsini işlətdim, doğrudan da M.S.Ordubadidən başlanan bu yol həm tarixi şəxsiyyətlərin həyatını,, həm də onların yaşadıqları dövrün ictimai-siyasi mənzərəsini əks etdirməklə müəyyənləşirdi. Burada xeyli tarixi romanın adını çəkmək olar ki,həmin prinsip heç də dəyişmədi, amma təbii ki, ənənəyə yeni çalarlar artırılır, bu, ədəbiyyatın öz inkişaf ritmi ilə bağlıdır, çünki 60-80-ci illərin ədəbiyyatı ilə otuzuncu illərin ədəbiyyatını eyni müstəvidə halandırmaq olmadığı kimi, otuzuncu illərdə yaranan "Dumanlı Təbriz"lə yetmiş-səksəninci illərdə yazılan "Məhşər", "Qətl günü", "Fətəli fəth", "Qarlı aşırım" romanları arasında ciddi fərqlər nəzərə çarpır.

Mətləbdən uzaqlaşmaq istəmirəm. Cəlal Bərgüşad "Bozatın belində" tarixi romanını XIX əsrin ikinci yarısında Azərbaycanda çox məhşur olan el qəhrəmanı-Qaçaq Nəbiyə, onun mübarizəsinə həsr etmişdir. Onun Qaçaq Nəbi haqqında məlumatları ilk növbədə, yaşadığı bölgədə eşitdiklərindən, bildiklərindən, xüsusilə, qocaların xatirələrindən əxz etmişdir. Amma bununla kifayətlənməyib, arxivləri də araşdırmış.ö tarixi həqiqətləri öyrənmişdir. Hər hansı tarixi roman müəllifinin öz qəhrəmanına necə deyərlər, istiqanlı münasibəti də burada əsas rol oynayır. "Dünyada mənə elə bir igid göstərin ki, iyirmi beş il el-obasından didərgin düşüb, öz ömür-gün yoldaşı ilə qaranlıq mağaralarda, qalın meşələrdə, qarlı dağlarda məskən salmış olsun. Dünyada mənə elə bir cəngavər göstərin ki, at belində yaşa dolub, at belində vuruşsun, at belində həlak olsun". Elə bu girişdən məlum olur ki, Cəlal Bərgüşad həm özünün, həm də xalqın (təbii ki, onu görənlərin, qəhrəmanlığının şahidi olanların) Qaçaq Nəbiyə ehtiramının, fəxr və qürur duyğusunu romanda ifadə etmişdir. Nəbi bu romanda əsl xalq qəhrəmanı kimi təqdim olunur və onun həyat yolu, göstərdiyi igidliklər, ən başlıcası isə xalqla, onun mənafeyi ilə yaşaması öz əksini tapır. Əlbəttə, Cəlal Bərgüşadın bu ilk tarixi romanı bəzi tənqidçilər tərəfindən tərəfindən heç də birmənalı qarşılanmadı.Tənqidçi Seyfulla Əsədullayev Cəlal Bərgüşadın bu mövzuya müraciət etməfsini qanunauyğun hesab etsə də, amma onu yeni b nailiyyət və kəşf hesab eləmirdi. Əsərdç sözçülüyə və naturalist təsvirlərə yer verildiyini qeyd edirdi. Amma unutmayaq ki, "Bozatın belində" romanı Cəlal Bərgüşadın ilk roman təcrübəsi idi. Müəyyən sözçülüyün, təfərrüat artıqlığının olması da təbii idi. Lütviyyə xanım romanda Qaçaq Nədinin mübarizə yolunun düzgün və realist planda işıqlandırıldığını nəzərə çarpdırır. Xüsusi olaraq onu da qeyd edir ki: ""Qaçaq Nəbinin apardığı mübarizəni uzun illər rus çarizminə qarşı silahdı mübarizə aparan Şeyx Şamil hərəkatı ilə müqayisə etmək olar. Onların arasında bir tale bənzərliyi də vardı. Şeyx Şamilin də, Qaçaq Nəbinin də mübarizəsi 25 il davam etmişdir".

Cəlal Bərgüşadın "Sıyrılmış qılınc" romanı Azərbaycan ədəbiyyatında Babək hərəkatına həsr olunmuş əsərlərdən biridir. Cəfər Cabbarlı "Od gəlini", Osman Sarıvəlli "Babək" mənzum pyesi, Bəxtiyar Vahabzadə "Dar ağacı", Ənvər Məmmədxanlı" "Babək", Akif Əli "Azman" əsərlərinin adlarıünı çəkə bilərik.

Bundan başqa Babəkə və onun qəhrəmanlığına həsr olunan onlarla şeirləri də unutmaq olmaz. Lütviyyə xanım yazır: "Cəlal Bərgüşad "Sıyrılmış qılınc" tarixi romanında Babəki əsl xalq qəhrəmanı, hökmdar, ağıllı sərkərdə və tədbirli rəhbər kimi təsvir edə bilmişdir".Roman kitab halında çap olundu, akademik Ziya Bünyadovun ön sözündə əsər yüksək qiymətləndiridi. Teymur Bünyadov, Qulu Xəlilov və digər söz adamları da roman haqqında müsbət fikirlər söylədilər. Dilçi alim Elməddin Əlibəyzadə, Xalq yazıçısı Elçin isə "Sıyrılmış qılınc"ı tənqid hədəfinə çevirdilər. (Yeri gəlmişkən qeyd edim ki, bu sətirlərin müəllifi də Azərbaycan romanları ilə bağlı bir məqaləsində tənqid mövqey1ində dayanmışdı, onun tənqidi əsərin tarixi məzmunu ilə yox, bəzi sənətkarlıq qüsurları ilə bağlı idi). Beləliklə, "Sıyrılmış qılınc" romanı ilə bağlı necə deyərlər, "iki cəbhə" arasında mübarizə getdi.

Bunu o dövr üçün bəlkə də ədəbi mübarizə adlandırmaq olar. Amma üstündən 45 il keçib. Nə Cəlal Bərgüşad var, nə Ziya Bünyadov, nə də Elməddin Əlibəyzadə (hamısının ruhu şad olsun!). O illərin ədəbi tənqid atmosferinə diqqət yetirəndə bir roman ətrafında həm müsbət, həım də mənfi fikirlərin olduğunu sensasiya hesab eləmək doğru olmazdı. Amma o zaman - 45 il əvvəl söylənilən fiuirlərdə (həm müsbət, həm də mənfi) müəyyən həqiqətlərə də göz yummamalıyıq. Akademik Ziya Bünyadov-elə bir alim ki, onun Azərbaycan tarixinin həmin dövrü haqqında araşdırmaları fonunda romandakı tarixi mənzərəni və Babəki obyektiv şəkildə qiymətləndirməsinə necə inanmamaq olar? Elməddin Əlibəyzadənin məqaləsində isə birbaşa "hücum" müdaxiləsi çox güclü idi və bir-iki haqlı tənqidi də vardı. Amma əsəri bu dərəcədə alt-üst eləmək də doğru deyildi. Özü də ən çox İran alimi Səid Nəfisiyə istinad edirdi.Təbii ki, romanda həm tarixi, həm də sənətkarlıq baxımından qüsurlar var idi.

Mən də öz məqaləmdə sənətkarlıq qüsurlarına işarə etmişdim. Lütviyyə Əsgərzadənin "Sıyrılmış qılınc"la bağlı geniş və hərtərəfli təhlilləri ilə tam razıyakm.

Yazılan hər bir əsərə illər keçəndən sonra da əsl qiymət meyarı ilə yanaşmaq lazımdır. Bu mənada Cəlal Bərgüşadın "Sıyrılmış qılınc" romanına yazılan tənqidlərin heç birini kənara qoymaq olmaz. Bu, ədəbi bir mübarizə idi. Yaxud, roman haqqında yazılan təriflərin və təhlili məqalələrin də öz yeri var.

Lütviyyə Əsgərzadənin monoqrafiyasında Cəlal Bərgüşadın publisistikası, yol qeydləri ilə bağlı qələmə aldığı iki fəsil də göstərir ki, o, haqqında söz açdığı müəllifin yaradıcılığına mükəmməl şəkildə bələd olub. C.Bərgüşad bir çox Avropa, Afrika və Asiya ölkələrində və Hindistanda olmuş, bu səyahətlərini publisistik məqalələrə çevirib. "Dünyada nələr gördüm" "səyahət kitabı"nda biz bir Azərbaycan yazıçısının dünyada baş verən hadisələrə, hər bir ölkədə yaşayan insanlara bir azərbaycanlı və şərq adamı kimi necə yanaşdığının şahidi oluruq.

Cəlal Bərgüşadın yol qeydləri zənnimcə, ayrıca bir tədqiqatın obyekti ola bilər. Onun publisistikası bizə bir də bunu anladır ki, Cəlal Bərgüşad çox geniş mütaliəyə malik idi, o, gəzdiyi, səyahət etdiyi ölkələrə təkcə gəzmək üçün getmirdi, öyrənmək, çox sirlərə bələd olmaq üçün yol alırdı.

**Lütviyyə xanımın monoqrafiyasında belə bir fəsil də var - "İkinci ömürvə ya XX əsrin məhəbbət dastanı"... Bu fəsildə o, incə bbir mətləbə toxunur. Cəlal Bərgüşadın birinci həyat yoldaşı ağır xəstəlikdən sonra vəfat edir və təbii ki, onun həyatında mənəvi bir boşluq yaranır. Amma sən demə, dünyada bir Sayad Məmmədova da varmış. Cəlalın əsərlərini oxuyub ona heyran olan Sayad xanım özündən 36 yaş böyük olan bir insanla qovuşur. Eşq osvun bu ölməyən məhəbbətə...**

## *Qəhvənin möcüzəvi təsiri*



**Alimlər qəhvənin xərçəng, diabet və neyrodegenerativ xəstəliklərdən qoruyucu təsirinin arxasında duran mexanizmi müəyyən ediblər. Araşdırmaya görə, bu təsir orqanizmdə NR4A1 adlı xüsusi reseptorun aktivləşməsi ilə bağlıdır.**

Adalet.az xəbər verir ki, Professor Stiven Seyfin rəhbərlik etdiyi tədqiqat qrupu müəyyən edib ki, qəhvənin tərkibində olan bəzi maddələr nüvə reseptoru NR4A1-i aktivləşdirir. Mütəxəssislərin sözlərinə görə, bu zülal orqanizmdə stress və toxuma zədələnmələrinə cavab verir. O, iltihabı azaltmağa, hüceyrələrin bərpasını sürətləndirməyə və qoruyucu mexanizmləri işə salmağa kömək edir. Tədqiqat zamanı reseptor bloklandıqda isə hüceyrə zədələnmələrinin artdığı və sağalma prosesinin ləngidiyi müşahidə olunub.

Araşdırma göstərib ki, qəhvənin ən faydalı komponenti kofein deyil. Əsas təsir polihidroksilli və polifenol birləşmələri, xüsusilə də qəhvə turşusu hesabına yaranır. Bu maddə yalnız qəhvədə deyil, bir çox meyvə və tərəvəzdə də mövcuddur. Alimlər bildirirlər ki, kofein də reseptora bağlana bilir, lakin hüceyrə modellərində onun reseptorun fəaliyyətinə təsiri çox zəif olub. Bu nəticə adi və kofeinsiz qəhvə arasında sağlamlığa fayda baxımından niyə ciddi fərq aşkarlanmadığını da izah edir. Məlum olub ki, qoruyucu təsir əsasən kofeindən deyil, qəhvənin digər bioaktiv maddələrindən qaynaqlanır.

**Laboratoriya təcrübələri zamanı alimlər qəhvədəki birləşmələrin hüceyrələrin zədələnməsini azaltdığını və şiş hüceyrələrinin böyüməsini ləngitdiyini müəyyən ediblər. Lakin NR4A1 reseptoru bloklandıqdan sonra bütün bu müsbət təsirlər tamamilə yoxa çıxıb. Tədqiqat müəllifləri vurğulayırlar ki, NR4A1 qəhvənin təsir mexanizmlərindən yalnız biridir. Hazırda alimlər bu reseptoru daha dəqiq aktivləşdirən sintetik maddələrin hazırlanması üzərində çalışırlar. Gələcəkdə həmin preparatlar xərçəng və neyrodegenerativ xəstəliklərin müalicəsində istifadə oluna bilər.**



# BAYAT



№ 90 (950)



*Ramiz MƏMMƏDZADƏ*

## AT KİMİ DÖRDNALA

Bu qadasını aldığım
yay günü
Camaat - dənizdə, bulvarda,
Kimlərsə dağda, meşədə...
Heç bilən də yoxdu
Filankəs harda...
O, isə qələmin, vərəqin
önündə müntəzirdi.
Oturub şeir yazırdı...
...Çayxanaya gedə bilərdi
nərd vurardı...
qiybət qırardı...
Yamanca çayxordu,
çaya həmişə hazırdı.
Amma oturub şeir yazırdı...
Hanı şeirə salam verən?
Kimə deyəydi bu dərdi...
Xanımı da
Gözucu baxaraq yazı-pozuya
Hərdən ağız büzərdi.
Deyərdi ki, ay kişi
Vallah, bu şeir də
bir azardı.
Dəxli yox,
Yenə də şeir yazardı.
Hərdən onu özündən
çıxarardı
"şair" ştatını
tutmuş adamlar...
Bu quşquşlar,
Dimdikli, qanadlı
bu quş adamlar...
Söz onu əsir almışdı.
İstəyiydi-təkcə sözü
Ağa bilsin, yiyə bilsin.
Ha əlləşir, ha vuruşur
Tapa bilmir o sözü ki,
Ağrısını, acısını deyə bilsin...
Heç vaxtı da
yoxdu, yox
Arvadına, uşağına...
Söz onu
qatıb qabağına
At kimi dördnala çapır...

## QARATELİN ÖLÜMÜ

Qaraşirin bir qızıydı
Saçları burma-burmaydı.
Qaşı-qaranquş qanadı,
Baxışı, gülüşü-aydın.
Tanıyanlar deyərdilər:
-Bu gözəl Yaradanın
Bəxtəvər balasıdı.
Görəsən hansı igidin
İstəklisi olasıdı...
...Yetərincə vəzifəsi, işi,
İnqilabçı nəvəsi,
öyünəsi keçmişi...
Amma ürəyindən keçənləri
Təkcə Allah bilərdi
Eşidəndə ki, elçi gələcək
Zarafata salıb
gülərdi...
Birinin boy-buxunu
xoşuna gəlməzdi,
O birinin vəzifəsi, işi,
Başqa birisinin
Doğulduğu kənd yeri.
Beləliklə yola saldı
Neçə-neçə illəri...
Kimsə ondan incidi,
Xətrinə dəydi...
Dünyanın nə vecinə,
Dünya öz işindəydi...
O zəncir hörüklər
Açılıb qaçdı harasa,
O qaranquş qaşlar
uçdu harasa...
Baxışının, gülüşünün
rəngi dəyişdi.
Heç özü də bilmədi
Bu nə olan işdi...
Və bir yay səhərində
Ən vəfalı elçisi
Əzrail
Bir qırpım kipriklə
qaş arasında
Onu oturduğu
əlil arabasından
Qopardı getdi...
Qaçırdı Qarateli,
apardı getdi...
Sən demə
Cənab Əzrailin
Eşqiylə vurulmuş ürəyi...
Getd i
Bir əlində pendir
qırığı,
Bir əlində
Qaxaca dönmüş
"Zavod çörəyi"...

## QƏZƏNFƏRİN İSTƏYİ

Qəzənfərin gözünün
ağı-qarası,
ciyərparası
Bir qızı vardı.
Xanımı da, qızı da
bəxtiyardı.
Sübh tezdən işə gedərdi,
Qaş qaralanda
dönərdi evinə.
Maaşı alan kimi
Cumardı dükanlara
sevinə-sevinə...
Ev tikməyi, hasar
çəkməyi
öyrənmişdi.
Deyərdi ki, daşı daş üstə qoymaq
savab işdi.
Daşlarla dil tapmışdı,
Sevib könül vermişdi.
And içəndə "daş haqqı"-deyərdi.
Heç kəs də şübhə etməzdi
Daşa inandığına.
Yox, diplomu da var
Atmışdı
Qaynanasının sandığına...
Həftənin bir günü
Beş-on manatından
keçməyi vardı.
Dostları yığıb başına
Noxudla
Çəllək pivəsi
içməyi vardı.
Birgözlü mənzil
qalmışdı ona
Zavoddakı işdən.
Sovetlər dövründən,
O qəribə keçmişdən...
İndi ikigözlü mənzilin
Xiffətini çəkirdi.
Tərəziyə daş qoyub
qiymətini çəkirdi...
Yox, paxıllıq etməzdi
Kiminsə sarayına,
imarətinə.
Amma üç nəfər-
bir otaqda...
Qəzənfər düşmüşdü
çətinə...
Hərdən gözlərini
Zilləyib göylərə,
İstəyirdi üç alma
yerinə
Göydən ikigözlü mənzilin
açarları düşəydi.
Ovqatı dəyişəydi...
Ay Allah, nolaydı
İstəyinə çata biləydi.
Gecələr Qəzənfər
Rahatca yata biləydi...
Göylərin gözü var-
görür,
Qulağı var-
eşidir
Qəzənfəri...

## VARLI ADAMA

Səni tanıyanlardan
biri - mən.
Sən tamam başqalaşdın,
mən - həmən.
Başını aşağı salıb
İşlərinlə məşğulsan.
Amma varına görə
Bir balaca məşhursan...
Bilirəm çox uzaqsan
İşverəndən, işkəsəndən...
Allaha min şükür
Aşbazın İstanbuldan,
Qulluqçun Rastov tərəfdən,
Yağın, balın - Daşkəsəndən.
Həftədə bir dəfə
Gəncə bazarlığı...
Adına calayan yox
pisliyi,
mərdimazarlığı.
Cənnətlik Hacı Zeynalabdindən
Maşallah, bəlkə də çox olar
malın-pulun.
Amma elə yaşa ki,
Görünsün məramın, yolun.
Bəlkə bir su kəməri
çəkdirəsən
Yağış suyuna möhtac
O yanan kəndimizə.
Bir səhər bahar gəlsin
Bozarmış dağa, düzə.
Çıxasan camaatın
Üzünə gülə-gülə
Ad-sanın düşə dilə.
Pulu xərcləmək-çətin,
Bəlkə qazanmaq-asan...
Tələbəyə, xəstəyə
Bəlkə dayaq olasan.
...Olsun!
Qoy Santa-Kruz adasında
villan olsun!
İstəməyən
lap filan-filan olsun!
İndi söz sənindir.
Nə dəxli var
Hansı varlı yaxşıdı,
Ya pisdi, yaramazdı...
Sən-cənab, a bəy,
ay ağa,
Kişi kimi
Sinəni ver qabağa
Adını tarixə yazdır!..

## OĞLAN UŞAĞI

Qapıbir qonşumuz
Sultanəhməd kişiylə
Dünən bir süfrədə
Xeyli sağlıq demişdik,
Bala-bala vurmuşduq...
El-oba arasında
Hörmətlə çəkilərdi
Sultanəhməd kişinin adı.
Amma ki, həmən yay gecəsindən
Günəş "salamat çıxdı".
Sultanəhməd çıxmadı...
Cənazəsini çiynimizə
qaldırdıq
Apardıq babasının,
dədəsinin yanına -
Doğmaca evinə, ünvanına...
...Məhəlləmizin qadınlarını
Qaynaşan gördüm
Həmən gün axşamçağı...
Qonşu Əzizağanın
Nəvəsi olub-dedilər,
Özü də
oğlan uşağı...

## MƏN GƏLİRƏM ÇOX UZAQDAN...

Mən gəlirəm çox uzaqdan
Xəbərim var güllü bağdan.
Əl uzatsam, o budaqdan.
Sən quş olub uçarmısan?..
İstəyimi nolar bil sən.
Sən hardasan,
Yersən, Göysən?
Mən - yolçu,
qapını döysəm
Sən yüyürüb açarmısan?
Ömrü-günü vermə yelə.
Sən eləsən,
Mən də belə...
Məni görsən gülə-gülə
Qucağıma qaçarmısan?..

## CƏNNƏT SORAĞINDA

Dağ çayı boyunca-orda, uzaqda
Küləkli, yağışlı bir yaz gecəsi,
Səninlə qalsaydıq biz bir otaqda
Biryolluq batardı fələyin səsi.
Axı bu kölgələr nə istər bizdən
Bəlkə günahkarıq hardasa, nəsə...
Güllər asılardı pəncərəmizdən
Olsaydıq baş-başa, nəfəs-nəfəsə...
Niyyət var xisləti, havası bəlli
Üzünə bağlanıb yolu Cənnətin.
Yalan söz-kiməsə bir boş təsəlli
Fəqət Yaradanı aldatmaq-çətin!
Günəşə boylanan ruhumuz-təmiz.
Ülvi sevdaların büllur səsiyik.
Adəmin, Həvvanın arxasınca biz
Güman var,
Cənnətə yol gedəsiyik...

## BƏXTƏVƏR BAŞINA, AY ÇİÇƏK DƏRƏN

Yazın yaşıl burnu
Qanıyan vaxtı
Yamacdan gül-çiçək
toplayan gözəl,
Kiminçün dərirsən-
o kəs xoşbəxtdi!
Yox, onun adını
hələ çəkmə gəl...
Sehri möcüzədi
könül varının.
Mən sənə baxıram
bayaqdan bəri.
Sənin gül nəfəsli
barmaqlarının
Ətrinə bürünüb
dağ çiçəkləri.
Bəxtəvər başına,
ay çiçək dərən.
O xoşbəxt kim ola,
çıxıb qarşına?
Sən bu çiçəkləri
kimə dərirsən-
O kəsin sağ əli
mənim başıma,
Bəxtəvər başına,
ay çiçək dərən...

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

№ 28 (2500) 31 iyul 2026-cı il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Onlar bu sevinci düz 35 ildən sonra yaşayıblar. Əlbəttə, Azərbaycanın ərazisinin 20 faizi işğal olunanda bu insanlar Laçının Sus kəndindən didərgin düşüblər. Ağır və çətin anları da elə həmin günlərdən başlayıb. 1992-ci ilin mayın 17-də Laçın rayonu işğal olunanda demək olar ki, orda bir sakin belə qala bilmədi. Ermənilər Laçının bütün kəndlərini işğal altında saxladılar, evləri-eşikləri, var-dövləti daşıyıb apardılar və qalan əşyalara da od vurub yandırdılar. Yəni hər hansı evin bir-iki pəncərəsi, bir-iki qapısı yararsız vəziyyətə** müəyyən olunmuş tarixdi Laçını boşaldacaqlar. Laçını boşaltdılar, ancaq yenə öz vəhşiliklərindən əl çəkmədilər. Qaldıqları evə və meşələrə od vurub yandırdılar. Bax, beləcə yenə erməni xisləti özünü göstərdi.

Qısa zaman kəsiyində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Laçında böyük abadlıq və quruculuq işləri görüldü. Şəhərin mərkəzində, eləcə də Zabux və Sus kəndlərində ən müasir tələblərə cavab verən mənzillər tikilərək hazır vəziyyətə gətirildi. Cənab prezident həmin kəndlərin yenidən istifadəyə verilməsində iştirak etdi və




# SUS KƏNDİNƏ QAYIDANLARIN SEVİNCİ




**düşdüyünə görə apara bilmirdilərsə, ona da od vurub yandırırdılar.**

Laçınlılar rayondan çıxanda bütün var-dövlətini elə orda qoydular. Gücü çatanlar isə qoyun-quzusunu, mal-qarasını götürüb üzü Füzuli istiqamətinə hərəkət etdilər. Onlar dedilər ki, bu qoyun-quzu ermənıyə qalana qədər qoy ya yolda qırılıb ölsün, ya da aparaq Füzulidə, Beyləqanda, İmişlidə camaata verək. Onları evdən, doğma yurddan bax, beləcə perik saldılar. Amma onlar didərgin düşəndə bir şeyə inanırdılar, nə vaxtsa doğma yurda dönəcəklər. Amma bu hadisə neçə ildən sonra olacaq, bax, onu bilmirdilər.

2020-ci ilin 44 günlük İkinci Qarabağ savaşında və ondan sonra Azərbaycanın işğal altında olan torpaqları azad olundu. Bax, onda Laçın da erməni işğalından azad edilərək sahibinə qaytarıldı. Yəni ermənilər təslim aktını imzalayarkən söz vermişdilər ki, onların sevincinə şərik oldu. Bu tarixi anı yaşamaq həmin kəndin sakinləri üçün çox böyük xoşbəxtlik idi. Çünki onlar uzun zaman kəsiyindən sonra doğma yurdlarına dönmüşdülər. Bax, onda insanlar sevinclərindən ağlayırdılar.

Bu yaxınlarda yolumuz yeni tikilmiş və abad Sus kəndinə düşdü. İnanın, bu kənddə yüzdən çox bir-birindən gözəl milli memarlıq üslubunda iki, üç, dörd otaqlı mənzillər istifadəyə verilib. Hər mənzilin də öz yaraşığı, öz gözəlliyi və öz əsrarəngizliyi var. Kəndin ortasında gözəl və hər cür standartlara cavab verən asfalt yol çəkilib. Yolun kənarında isə işıq dirəkləri var. Təbii ki, bu kəndin ən böyük gözəlliklərindən biri, bəlkə də birincisi Həkəri çayının bir addımlığında yerləşməsidir. İsti yay günlərində bura bir cənnətə bənzəyir. Həkərinin şırıltısı adamın əsəblərinə bir sığal çəkir. Biz də həmin kənddə əslən laçınlı olan dostumuz Ariflə iki gün qonaq olduq. Kəndin girəcəyində sağ tərəfdə elə birinci ev Əliş kişinin evidir. Onun özünə iki otaqlı, oğluna isə üç otaqlı mənzil verilib. Əliş kişi bizə dedi ki, qonağımız olub görərsiniz ki, bu evlər nə qədər gözəl və rahatdır. Üç geniş evin hər biri bir-birindən yaraşıqlıdır. Evin dəhlizi, mətbəxi adamın ürəyinə bir rahatlıq gətirir. Düşünürsən ki, bu mənzildə yaşamaq, bu mənzildə ömür sürmək elə özü bir xoşbəxtlikdir. Mənzilin içində kombi sistemi quraşdırılıb. Sutkanın 24 saatı isti və soyuq su var. Mənzildə internet sistemi və günəş paneli mövcuddur. İstənilən vaxt onlardan istifadə etmək mümkündür.

Bununla yanaşı, bu mənzillərin unikallığı və möhtəşəmliyi ondan ibarətdir ki, mənzilin sayı qədər hündür zirzəmisi var və bu zirzəmidə də müharibə şəraitində çox rahat yaşamaq mümkündür. Yəni Allah etməmiş, həmin kəndə mərmi, raket atılarsa insanlar sığınıacaq üçün bu zirzəmidən istifadə edə bilər. Zirzəminin havalandırma sistemi və pəncərəsi də var. Heç şübhəsiz, yeni salınmış Sus kəndində insanların yaşaması və işləməsi üçün hər cür şərait yaradılıb. Belə ki bu kənddə üçmərtəbəli məktəb, uşaq bağçası və tibb məntəqəsi fəaliyyət göstərir.

Səhər saat 6-da dostum Ariflə yuxudan oyanıb gəzməyə çıxırıq. Deyirik ən yaxşı gəzmək yeri Həkəri çayının sahilindən Sus kəndinə qədər olan yerdir. Kəndin başlanğıcından məktəbə və uşaq bağçasına qədər piyada gedirik. Təmiz hava və Həkəri çayının şırıltısı adama ləzzət edir. Hamı da kimisə görəndə bir-birinə salam verir, "sabahın xeyir" deyir. Elə həyətlər var ki, orda bostan-tərəvəz məhsulları, meyvə ağacları əkiblər. Hətta bəzi insanlar hinduşka, qaz və toyuq saxlayır və onların da səsi ətrafa yayılır.




Yolu gedərkən həyətində meyvə ağaclarına su verən bir suslunu görürük. Bizə "sabahınız xeyir" deyir, sonra da evinə dəvət edir. Tərəddüd edib getmək istəmirik. Arif dostum laçınlı olduğuna görə deyir ki, Faiq müəllim, onun sözünü yerə salmayın, gəl gedək onlara.

Həyətdə çox qəşəng "besedka" var. "Besedka"nın ətrafında güllər-çiçəklər əkilib, kənarda isə samovar qaynayır. Bir göz qırpımında evin sahibi Nadir kişi armudu stəkanlara pürrəngi çay süzür, sonra masanın üstünə yağ, pendir, şəkər tozu düzür. Yaxşı da bir yuxa masada gözümüzə dəyir. Təbii ki, bunlardan dadmamaq, yeməmək böyük günah olar. Biz səhər yeməyi yeyərkən Nadir kişi həyətə düşüb şaftalı ağacından şaftalıları dərib boşqaba yığır və onu da masanın üstünə qoyur.

Deyir ki, bir bunların dadına baxın, görün, necə dadlıdır? Şaftalıdan bir dişlək götürən kimi adama ləzzət edir. Sonra Nadir kişi deyir ki, bu ağacı keçən il əkmişəm, bu il bar verib. Görürsüz həyətdə badımcan, pomidor, bibər necə də göz oxşayır. Günorta bizə gəlsəniz nahar yeməyinə yaxşı toyuq çığırtması hazırlatdıraram.

**Biz ona təşəkkür edib "Allah ruzunuzu bol etsin" deyirik və həmişə öz yurdyuvanızda bax, beləcə firavan dolanasınız!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Gəncə-Ticarət-Nəqliyyat ASC-nin Mühasibat Balansı

# 31 Dekabr 2025 ci il tarixinə

| N-maddə | AKTİVLƏR | Qeyd | 31.12.2024 AZN-lə | 31.12.2025 AZN |
|---|---|---|---|---|
| 1 | Uzunmüddətli | | 49942.56 | 49434.0 |
| 11 | Torpaq,Tikili,avadanlıqlar | 111-112-113 | 38065.56 | 37557.0 |
| 12 | 1994/95 ci İLidebitor boec | 17X | 11877.0 | 11877.0 |
| 2 | Qısamüddətli | | 943.93 | 2208.17 |
| 20 | Ehtiyatlar | 20X-208 | 201.54 | 233.54 |
| 22 | Pul vəsaitləri vəEkvivalenti | 22X | 366.91 | 1722.29 |
| 24 | Sair qısamwddətli aktvlər | 24X | 375.48 | 252.34 |
| | CƏMİ AKTİVLƏR | | 50886.49 | 51642.17 |
| 3. | KAPİTAL | | | |
| 30 | Ödə-miş nom.nizamnamə | 301-302 | 44216.0 | 44216.00 |
| 31 | Kapital ehtiyatları | 31X | 69614.0 | 69614.00 |
| 34 | Bölüşdürülməmiş mənfət | 34X-344 | -70822.87 | -67209.07 |
| | CƏMİ KAPİTAL | | 43007.13 | 46620.93 |
| 4 | CƏMİ Uzunmüd. Öhdəliklər | | 0.00 | 0.00 |
| 5. | Qısa müd.öhdəliklər | | 7879.36 | 5021.24 |
| 5.2 | Vergi vəsair məcburi ödnş | 52X | 2992.0 | 1824.84 |
| 5.3 | Qısa müd. Kreditor borclar | 53X | 1174 | 4887.36 |
| 5.3 | Bank krediti | 53X | 0 | 0 |
| 54 | Sair qısa müddətli öhdliklər | 54X | | 2022.40 |
| | Cəmi Qısa müd.öhdəliklər | | 7879.36 | 5021.24 |
| | Cəmi Kapitalvə Öhdəliklər | | 50886.49 | 51642.17 |

## GƏLİRLƏR və XƏRCLƏR haqqında hesabat
## VÖEN 2300057321

| N-maddə | Əməliyyatlar | Hesabın N- | 2024 ci il AZN-lə | 2025 ci il AZN |
|---|---|---|---|---|
| 60 | Əsas Gəlir | 20 | 30250.00 | 35144.0 |
| 70 | Cəmi Xərclər | 24 | 29114.0 | 31340.0 |
| 70.1 | İşçinin əmək haqqı ödənişi | | 13577.0 | 17190.0 |
| 70.2 | Sair əməliyyat xərcləri | 73.1 | 14778.0 | 1332100 |
| 70.3 | Amortzasiya xərcləri | | 759.0 | 759.0 |
| | Umumi Mənfəət | | 1136.0 | 3804.0 |
| 75 | Mənfəət üzrə 75% azdolma | | 852.0 | 2853.0 |
| 90 | Mənfəət Vergisi | 901+902 | 56.8 | 190.2 |
| 80 | Xalis Mənfəət hesbt ilinə | 801 | +1079.20 | +3613.80 |

**AUDITOR RƏYİ: Gəncə-Ticarət-Nəqliyyat ASC-nin 2025 ci il üzrə İLLİK Mühasibat balansını və Maliyyə -İqtisadi göstəricilərinin hesabatları Beynəlxalq AUDİT STANDARTLARINA uyğun yerinə yetirildiyi Təsdiqlənir. Azərbaycan Respublikası AUDİTORLAR Palatasının 21.12.2021 ci iltarixdən N-072 saylı üzvü SƏRBƏST AUDİTOR Əhmədov Hafiz Məhəmməd oğlu tərəfindən RƏY verilmişdir.**

# *Kəmalə Günəşli: "Hansı efirdə elə hərəkətlər görürəmsə..."*

**Kəmalə Günəşli bəzi aparıcılar haqda sərt fikirlər söyləyib.**

Adalet.az xəbər verir ki, o özünə qarşı hörmətsizlik gördüyü səhnələrdə yer almadığını bildirib:

"Bu aparıcıları anlamaq olmur. Bəzi aparıcılar müğənniləri efirlərə çağırıb təhqir edirlər. Onlara qarşı hörmətsiz davranışlar sərgiləyirlər. Hansı efirdə elə hərəkətlər görürəmsə, ordan gedirəm. Elələrin göründə deyirəm ki, yalvarıb müğənniləri efirlərinizə çağırırsınız ki, efirləriniz baxımlı olsun. Biz də sizi sayıb gəlirik. Ancaq başlayırsınız bizi aşağılamağa. Oxuduğumuz mahnıları bəyənmirsinizsə, n iyə efirlərinizə dəvət edirsiniz?



Bəs bilmirsiniz ki, biz efirə gəlib ö repertuarımızı oxuyacağıq?"

**Əntiqə**

# *Aynur Dadaşova: "...niyə onunla məcbur yaşayım?"*



**Uzun zamandır efirlərdə görünməyən müğənni Aynur Dadaşova şəxsi həyatı ilə gündəmə gəlib.**

Adalet.az bildirir ki, müğənni boşanmağının səbəbin açıqlayıb: "Mənə deyirlər niyə boşanmısan? İllərdir bu suallarla adamı bezdirirlər. Qadın niyə boşanar? Hər xırda səbəbə görə ailə dağılmır. İnsan xəyanət göröndə həmin insanı bir dəfəlik silir. Mən 18 il səbrli qadın olaraq dayanmışam. Hər xırda söz üçün ailəmi dağıtmamışam. Çox da xoşbəxt yaşamışam. Ancaq anladım ki, mən 3-cü şəxs kimi qalmaq istəmirəm. Bir adam mənimlə xoşbəxt deyil ki, başqasını axtarır. Əgər o başqası ilə xoşbəxtdirsə, niyə onunla məcbur yaşayım? O mənə heç nə demədi, mən boşanmaq istədiyimi söylədim.Hətta o xanımla danışdıqlarını eşitsəm də, heç bir dava yaratmadım, səs- küy salmadım. Sadəcə ona yolun açıq olsun dedim.Anladım ki, bu həyatda məcbur heç nə mümkün deyil.

**Əntiqə**

# UEFA dünya çempionatını boykot edə bilər

**UEFA FİFA-nın yeni layihəsinə qarşı boykotu müzakirə edir.**

QOL.az xəbər verir ki, UEFA bu həftə 55 üzv assosiasiyanın iştirakı ilə təcili onlayn iclas keçirəcək. İclasda FİFA-nın yeni kommersiya layihəsinə qarşı mümkün addımlar, o cümlədən gələcək dünya çempionatlarının boykotu müzakirə olunacaq.

Bildirilir ki, FİFA prezidenti Canni İnfantino dünya çempionatları da daxil olmaqla əsas turnirlərin kommersiya fəaliyyətini idarə edəcək FIFA Forward Enterprise (FFE) adlı yeni qurum yaratmaq istəyir. Layihənin ilkin dəyəri 20 milyard dollar qiymətləndirilir və FİFA ilin sonunadək səhmlərin bir hissəsinin satışından 4,2 milyard dollar cəlb etməyi planlaşdırır.

UEFA isə bu təşəbbüsə sərt etiraz edib: "Futbolun ruhu və idarəçiliyi alınıb-satılan



aktiv deyil. FİFA-nın futbolu satmağa haqqı yoxdur".

Mənbənin iddiasına görə, UEFA-nın əsas təzyiq vasitəsi dünya çempionatını boykot etməkdir. Xatırladılıb ki, 2021-ci ildə də UEFA-nın sərt mövqeyi FİFA-nı mundialın iki ildən bir keçirilməsi planından imtina etməyə məcbur etmişdi.

## *"İnter"də yeni müqavilə*

**"İnter" müdafiəçisi Yann Bisseklə yeni müqavilə imzalayıb.**

QOL.az xəbər verir ki, bu barədə Milan klubunun rəsmi saytı məlumat yayıb.

Yeni sözləşməyə əsasən, almaniyalı futbolçu 2031-ci ilin yayına qədər "İnter"də çıxış edəcək.

Bissek 2023-cü ildən "İnter"in formasını geyinir. O, bu müddətdə iki dəfə A Seriyasının (2023/2024, 2025/2026), həmçinin İtaliya Kuboku və Superkubokunun qalibi olub.

**25 yaşlı müdafiəçi ötən mövsüm bütün turnirlərdə 36 matç keçirib, 3 qol vurub və 3 məhsuldar ötürmə edib.**

**Birinci Qarabağ şəhidi Abdullayev Yusif Məmməd oğlunun adına 15.04.2024-cü il tarixdə verilmiş 10385 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi iş yoldaşları **Faiq Qismətoğluna** əzizi
**Muxtar Həsənovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məzahir Əhmədoğlu **Faiq Qismətoğluna** əzizi
**Muxtar Həsənovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu **Faiq Qismətoğluna** əzizi
**Muxtar Həsənovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hüsniyyə Əlizadə "Qarabağa Aparan Yol" qəzetinin dizayneri **Ramizə**
**atasının**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 288
Çapa imzalanmışdır: 30.07.2026